www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 23 may 2016-cı il Bazar ertəsi № 111 (6432) Qiymәti 60 qəpik

**Xəbər**

## Sabunçu bazarında vəhşilik: sahibkarı döyüb bıçaqladılar

yazısı səh.12-də

**Gündəm**

### Türkiyənin yeni baş naziri məlum oldu - Binali Yıldırımla yola davam



Azərbaycanlı ekspertlər: "Münasibətlərimiz əvvəlki kimi yüksələn xətlə davam edəcək..."

yazısı səh.3-də

### Qarabağ məsələsində ABŞ-Rusiya rəqabəti başlayır

yazısı səh.11-də

### Şəhid ailəsi prezidentdən kömək istəyir

yazısı səh.12-də

### Müxalifət İqbal Ağazadəyə seçki dəstəyi verəcəkmi?

yazısı səh.4-də

### Aclıq aksiyasına başlayan məhbus NİDA-çılardan xəbər var

yazısı səh.3-də

*Eskpert:*

### "Sərkisyanın kadr islahatları işğalçı ordunu gücləndirməyəcək"

yazısı səh.9-da

### Milli Məclisin deputatları toxunulmazlıq hüququnun ləğvinə qarşıdır

yazısı səh.6-da

### Bakıda eyvan təhlükəsizliyi problemi - faciəvi ölüm hallarının daha bir səbəbi

yazısı səh.13-də

### İqtisadi amnistiyanın ardınca maliyyə amnistiyası da verilə bilər

yazısı səh.4-də

### Mədəni və iştahı necə kiçiltməli? - Arıqlamaq istəyən bu yazını oxusun

yazısı səh.15-də

### Putin beynəlxalq məhkəməyə verildi

yazısı səh.3-də

# Moskvadan İrəvana qarşı silah şantajı

# RUSİYA ERMƏNİSTANI BAKI İLƏ QORXUDUR - KREMLİN FORPOSTUNA TƏZYİQ "KART"I

İşğalçı ölkəyə veriləcək 200 milyon dollarlıq kredit müəmmasının pərdəarxası; Ermənistan əsas müttəfiqinin qəzəbinə gəlib?; Medvedyevin son İrəvan səfərinin də təcavüzkarın gözləntilərini doğrultmadığı iddia olunur...




yazısı səh.8-də

# Allahşükür Paşazadənin adı cinayət işində!!!

Qafqazın şeyxinin ailəsinə həbsdəki şəriklərindən ilginc ittihamlar; Müğdət Həşimov dini liderin xeyir-duası ilə həbs olunduğunu iddia edir...

yazısı səh.5-də



### Misir Mərdanovun xalası oğluna yarım milyonluq dələduzluq ittihamı

yazısı səh.12-də



*Zəlimxan Məmmədli:*

### "Bir məmurdan mövqe istədim, daş atıb başını tutdu"

yazısı səh.7-də



*Mübariz Əsgərov:*

### "O verilişin ağası da mən idim, qulu da..."

yazısı səh.10-da




# Prezident İlham Əliyev Türkiyəyə gedib

**Azərbaycan prezidenti İlham Əliyev dünən Türkiyəyə işgüzar səfərə yola düşüb. Azərbaycan prezidenti İstanbulda keçiriləcək Ümumdünya Humanitar Sammitində iştirak edəcək. Tədbir mayın 23-24-də keçiriləcək.**

Sammitdə BMT-nin baş katibi Pan Gi Mun və bir çox dünya liderləri də iştirak edəcəklər. Xatırladaq ki, Azərbaycan prezidenti İlham Əliyev axırıncı dəfə Türkiyəyə aprelin 13-də səfər etmiş və İslam Əməkdaşlıq Təşkilatının sammitində iştirak etmişdi.



# Türk dövlətləri arasında vahid turpaketlər həyata keçiriləcək

**Abzal Safarbekoqlu:** "Hazırda qiymət endiriminin olması barədə dövlətlərin hava xidməti rəhbərləri ilə danışıqlar davam edir"

**"Azərbaycanın Gəncə, Şamaxı, Şəki, Bakı şəhərlərinə getmək üçün turpaketlər hazırlanır. Həmin turlarda tarixi abidələr ziyarət olunacaq, gəzməli-görməli yerlərə ekskursiyalar təşkil ediləcək. Hazırda qiymət endiriminin olması barədə dövlətlərin hava xidməti rəhbərləri ilə danışıqlar davam edir. Türkiyənin Aksaray, İstanbul, Konya şəhərləri də bu sıraya daxildir. Gələcəkdə belə turlar Yaponiya və Çinə də nəzərdə tutulacaq".**

Bu fikirlər Türk Dilli Ölkələrin Əməkdaşlıq Şurasının (Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə təmsil olunur-E.P.) sədri Abzal Safarbekoqluna məxsusdur. Təşkilat rəhbəri vahid turpaketlərin hazırlanması barədə də layihələrin olduğunu və danışıqların aparıldığını vurğulayıb. Onun dediyinə görə, hazırda türk gənclərinin yay düşərgəsi də fəaliyyət göstərir - qızlar və oğlanlar üçün olmaqla iki düşərgə yaradılıb. Bundan sonra da hər ölkədən 30-35 tələbə düşərgəyə cəlb olunacaq.

Təşkilat sədri deyib ki, hətta keçmiş baş nazir Əhməd Davudoğlunun qızı da bu düşərgədə olub. "Biz istərdik bizim diplomatlar bir-birini daha yaxşı tanısınlar. Bununla bağlı müxtəlif təşəbbüslər var"- A.Safarbekoqlu deyib. Ümumi türk informasiya kanalının açılması ideyası olsa da, həlelik maliyyə problemlər səbəbindən bu layihəni təxirə salmışıq. Amma istəyirik ki, hər ölkədə həftədə bir dəfə olmaqla türk ölkələrindəki vəziyyət barədə bir saatlıq proqram yayımlansın".

Qeyd edək ki, 1992-ci ildə Ankarada ilk sammitini keçirən qurumun hazırkı rəhbəri Qazaxıstan təmsilçisidir. A.Safarbekoqlu Türkiyə Nazirlər Kabinetinin mətbuat və informasiya baş idarəsinin təşkilatçılığı ilə 7 ölkəni təmsil edən jurnalistlərlə görüşü zamanı A.Safarbekoqlu Transxəzər layihəsi, Bakı-Qars dəmir Transxəzər layihəsi, Bakı-Qars dəmir yolunun əhəmiyyətindən, türk dövlətilərinin önəmli mövqedə qərarlaşmasından da bəhs edib. Yük daşınmasında dəmir yolunun olduqca sərfəli olması barədə danışarkən deyib ki, bir kantenerin Türkiyəyə qatarla gətirilməsi 8 min dollardırsa, təyyarə ilə bu, 30 min dollara başa gəlir. O, türk dövlətləri ilə Gürcüstan arasında əməkdaşlığın gücləndirildiyini də qeyd edib. Qazaxıstan və Azərbaycan arasında əlaqələrin inkişafını məmnunluqla qeyd edən sədr Xəzər üzərindən yükdaşımalarının 30 faizə qalxdığını qeyd edib: "Bu, kifayət qədər yüksək göstəricidir".

❑ **Elşad PAŞASOY**

# Qənirə Paşayeva Xorvatiya parlamentinin vitse-spikeri ilə görüşüb

**Milli Məclisin üzvü Qənirə Paşayeva Xorvatiya parlamentinin vitse-spikeri Vesna Pusiçlə görüşüb. Görüşdə deputat Qarabağdan danışıb. Qənirə Paşayeva Azərbaycanla Xorvatiya arasında bütün istiqamətlərdə, o cümlədən parlamentlərarası əməkdaşlığın daha da genişlənməsinin məmuniyyət yaratdığını deyib. Xorvatiya parlamentinin vitse-spikeri Vesna Pusiçə Azərbaycanla bağlı, xüsusilə də Ermənistanın işğalçılıq siyasəti və Xocalı soyqırımı ilə bağlı geniş məlumatlar verib.**



O, 1 milyon azərbaycanlının, yüz minlərlə azərbaycanlı qadının Ermənistanın işğalı nəticəsində öz yurd-yuvalarından qaçqın və məcburi köçkün düşməsi və onların fundamental insan haqlarının bu gün də Ermənistan tərəfindən pozulmaqda davam etməsi, Xocalı soyqırımı barədə ətraflı məlumatlar verib. O deyib ki, dünyanın harasında yaşamasından asılı olmayaraq bütün qadınlar, xüsusilə də beynəlxalq aləmdə nüfuzlu qadınlar Ermənistanın bu addımlarına laqeyd, seyrçi qalmamalı və buna qarşı öz etiraz səsini ucaltmalı, Xocalı soyqırımının tanınması, bu dəhşətli cinayəti törədənlərin ədalət qarşısında cavab verməsi, azərbaycanlı qaçqın və məcburi köçkün qadınların öz ev-eşiklərinə dönməsi üçün səylərini artırmalıdırlar. O deyib ki, Xorvatiyada Azərbaycan həqiqətlərinin daha da geniş şəkildə bilinməsinə və daha da geniş dəstəklənməsinə hər zaman böyük ehtiyac var.

Qənirə Paşayeva Xorvatiya parlamentinin vitse-spikerini hər zaman Azərbaycanda görməkdən məmnunluq duyacaqlarını deyib və onu Azərbaycana dəvət edib. Azərbaycanla əməkdaşlığın inkişafına böyük önəm verdiklərini və əməkdaşlığı daha da genişləndirməkdə maraqlı olduqlarını deyən Vesna Pusiçlə bir sıra məsələlərlə bağlı geniş fikir mübadiləsi aparılıb.



# Xuraman Şuşalı hicablı qadınlar üçün geyim mağazası açacaq

**Müğənni Xuraman Şuşalı yeni bizmes qurmaq istəyir. Musavat.com saytına açıqlama verən müğənni bildirib ki, hicablı qadınlar üçün geyim mağazası açmaq arzusundadır:**

"Bakıda hicablı qadınlar üçün seçim çox azdır, həm də geyimlər çox bahadır. Alış-veriş etmək üçün Türkiyəyə gedirəm. Ona görə yeni biznes qurmaq arzusundayam, mənim kimi hicablılar üçün butik açmaq istəyirəm. Vaxt məhdudiyyəti olduğu üçün bunu edə bilmirəm. Uşaqlarıma çox vaxt ayırmalıyam. Mağaza haqda uzun müddətdir düşünürüm, planlar qururam. Uşaqlarım bir az böyüsün, bu arzumu yerinə yetirəcəyəm".

Müğənni yay istirahəti üçün qurduğu planlardan da bəhs edib: "Yay aylarında Bakıda oturmaq istəmirəm, dağları gəzmək istəyirəm. Ailəmlə artıq planlar qurmuşuq, yay ərzində rayonları gəzəcəyik. Üç uşaq anasıyam. Uşaqlarla xarici ölkələrə getmək alınmır. Həm də son vaxtlar terror hadisələri çox oldu, təyyarə partladı. Bu məni qorxutdu. Ona görə Azərbaycanda dincəlmək ən gözəlidir".

❑ **Könül İBRAHİM**



# Ermənistan Laçın istiqamətindəki qoşunlarını poliqonlara çıxardı

**Ermənistan silahlı qüvvələrinin 1-ci ordu korpusunun bölmələri Qarabağda aprelin əvvəllərində gedən hərbi əməliyyatların xüsusiyyətlərini və epizodlarını məşq etmək üçün strateji təlimlərə cəlb olunub. Virtualaz.org xəbər verir ki, bu barədə Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidmətinin məlumatında deyilir.**

Müdafiə Nazirliyi bildirir ki, təlimlərə cəlb edilmiş bölmələr döyüş şəraitinə maksimal yaxınlaşdırılmış şərtlər altında "qarşıya qoyulmuş vəzifələri" yerinə yetiriblər. "Təlimlər zamanı aprel müharibəsinin strateji baxımdan bir sıra mühüm epizodları, xüsusən də bölmələr arasında qarşılıqlı əlaqə, atəş zərbələri işlənilib və öyrənilib" - məlumatda deyilir. Təlimlərin gedişini müdafiə naziri Seyran Ohanyan izləyib.

Xatırladaq ki, mayın 21-də Ohanyan Qarabağa gəlib və işğalçı hərbi qüvvələrin inspeksiyasını həyata keçirib. Ermənistan silahlı qüvvələrinin 1-ci korpusu Azərbaycanla sərhəddə, Laçın-Qubadlı istiqamətində dislokasiya olunub. Korpusun qərargahı Gorus şəhərində yerləşir. Korpusun tərkibində bir ələhiddə ehtiyat batalyonu, bir ələhiddə kəşfiyyat batalyonu və iki motoatıcı polk var.

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**

# Qorbaçovun sözləri başına bəla oldu

**Krımın Rusiyaya birləşdirilməsinə haqq qazandırdığı üçün Mixail Qorbaçovun Avropaya girişinə qadağa qoyulması çalışacağıq. Axar.az xəbər verir ki, bu sözləri Ukrayna Daxili İşlər Nazirinin müşaviri Anton Geraşenko "Danışır Moskva" radiosuna deyib.**

"Diplomatik kanallar vasitəsilə Qorbaçovun Avropaya girişinə qadağa qoyulması və onun fondunun artıq maliyyələşdirilməməsi barədə müraciət edəcəyik. Çünki bu fond Ukrayna və Rusiya arasında nifrətin artmasına çalışır. Qorbaçov ehtiyatsız hərəkətləri ilə tək SSRİ-ni dağıtmadı, həm də Rusiyanı məhv edir", - Geraşenko bildirib.

Qeyd edək ki, Qorbaçov İngiltərənin "Sandey Tayms" qəzetinə müsahibəsində Rusiyanın Krımı ilhaq etməsini dəstəkləyib.

# İran iki ballistik raketini sınaqdan keçirib

**İran hərbçiləri ölkənin mərkəzi hissəsində keçirilməyə başlanan quru qoşunlarının təlimləri zamanı yaxınmənzilli "Nazeat" və "Fajr-5" ballistik raketlərini uğurla sınaqdan çıxarıb.**

"Report" xəbər verir ki, bu barədə İslam Respublikası quru qoşunlarının komandanı Əhməd Rıza Purdastana istinadən IRNA məlumat yayıb. "Hərbi təlimlərdə məqsəd müdafiə qabiliyyətinin yaxşılaşdırılması, vasitəli və assimetrik müharibələrdə istifadə olunan taktikaların həyata keçirilməsindən ibarətdir", - deyə komandan bildirib.

O, həmçinin əlavə edib ki, İranın quru qoşunları ölkənin müdafiəsinə tam hazırdır. Əhməd Rıza Purdastanın sözlərinə görə, təlimlərdə niyyət regionda sülhün qorunub saxlanmasından ibarətdir. Təlimlər Kaşan və İsfahan şəhərlərində başlanıb.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 111 (6432) 23 may 2016



# Türkiyənin yeni baş naziri məlum oldu - Binali Yıldırımla yola davam

## Azərbaycanlı ekspertlər: "Münasibətlərimiz əvvəlki kimi yüksələn xətt üzrə davam edəcək..."

**Mayın 22-də Türkiyənin hakimiyyətdə olan Ədalət və İnkişaf Partiyasının (AKP) Ankarada fövqəladə qurultayı keçirilib. Qurultay başlayanda AKP sədrliyinə namizəd Binali Yıldırım salonu dolaşaraq nümayəndələri salamlayıb. Ondan sonra salona gələn AKP-nin dünənə qədərki sədri və baş naziri Əhməd Davudoğlu isə salonu dolaşaraq qurultay nümayəndələriylə vidalaşıb.**

Qurultayda AKP sədrliyinə Yıldırımdan başqa namizəd göstərilməyib. Səsvermə keçirilib və Binəli Yıldırım bütün qurultay nümayəndələrinin səsini qazanaraq AKP-nin təzə başçısı seçilib. B.Yıldırım Rəcəb Tayyib Ərdoğan və Əhməd Davudoğludan sonra AKP-nin üçüncü sədridir.

Qurultayda çıxış edən Əhməd Davudoğlu AKP sədri vəzifəsini Rəcəb Tayyib Ərdoğandan təhvil alandan sonra mübarizəni uğurla davam etdirdiyini vurğulayıb: "7 iyun ilə 1 noyabr arasında Türkiyədə indiyə qədər yaşanmayan keçici hökumət təcrübəsini yaşayaraq ölkəni seçkiyə apardıq. Demokratiya tarixinin ən böyük reytinqini 1 noyabrdakı seçkidə gördük. Bu gün partiyamızın reytinqi 54-55%-dir. Cümhuriyyət dönəminin ən böyük terror təhdidi ilə üzbəüz qaldıq. Bu yoldakı qərarlılığımızdan güzəştə getməyi heç kim gözləməməlidir. Nə söz verdiksə, hamısını həyata keçirdik. I fövqəladə qurultay kimi II fövqəladə qurultayın da vida yox, vəfa qurultayı olmasını diləyirəm. Biz prinsiplərimizlə əsla vidalaşmarıq. Bu hərəkatda heç birimiz vazkeçilməz deyilik, ancaq bu hərəkatda vazkeçilməz dəyər AKP-nin Türkiyənin partiyası olmasıdır". Ə.Davudoğlu B.Yıldırıma uğurlar diləyib.

B.Yıldırım isə çıxışında Rəcəb Tayyib Ərdoğanı "Böyük Türkiyənin əyilməz müdafiəçisi" kimi xarakterizə edib və onun yolu ilə getməyə davam edəcəklərini vurğulayıb.



B.Yıldırım terrorla mübarizənin qətiyyətlə davam etdiriləcəyini, Türkiyənin bölünməsinə yol verilməyəcəyini vurğulayıb: "Biz bu bəlanı Türkiyənin gündəmindən çıxaracağıq".

O, paralel strukturlara qarşı mübarizəni də davam etdirəcəyini söyləyib. 14 illik AKP iqtidarı dönəmində rəhbərlik etdiyi Nəqliyyat, Dənizçilik və Kommunikasiya Nazirliyinin fəaliyyətindən danışan Yıldırım Türkiyəyə yeni konstitusiyanı və prezident üsuli-idarəsini gətirəcəklərini bildirib: "Bu gün məqsədimiz, görməyimiz lazım olan iş bu qarmaqarışıqlığı aradan qaldırmaq və yeni konstitusiya ilə Türkiyəyə prezident üsuli-idarəsini gətirməkdir. Yeni dönəmdə Türkiyəni iqtisadi cəhətdən dünyanın ən qüdrətli 10 ölkəsi sırasına daxil edəcəyik".

B.Yıldırım çıxışının sonunda prezident R. T. Ərdoğan tərəfindən illərdən bəri mitinq meydanlarında oxunan "Bərabər yürüdük biz bu yollarda" mahnısının 4 misrasını salondakılarla birlikdə oxuyub.

Qurultayda baş nazirliyə də Konstitusiyaya uyğun olaraq hakim partiyanın sədri kimi B.Yıldırım namizəd olub və seçilib. B.Yıldırımın çərşənbə günü Milli Təhlükəsizlik Şurasının toplantısına baş nazir kimi qatılacağı gözlənilir. Eyni zamanda yeni hökumətin qurulmasını da prezidentin verdiyi səlahiyyətə uyğun olaraq B.Yıldırım həyata keçirəcək.

***

AKP-nin qurultayına ötən qurultaylardan fərqli olaraq xarici dövlət başçıları dəvət edilməyib. Qurultaya xarici ölkələrin Türkiyədəki səfirləri dəvət edilsə də, Misir, Banqladeş və Rusiya səfirləri dəvət olunmayıb. Terrorla mübarizə məsələsində ortaya qoyduğu mövqe səbəbindən Xalqların Demokratik Partiyası (HDP) də qurultaya dəvət edilməyib. Qurultayda Azərbaycandan dəvət olunmuş qonaqların arasında "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri, deputat Cavid Qurbanov da olub.

Qeyd edək ki, Binəli Yıldırım uzun müddət Türkiyənin nəqliyyat, dənizçilik və kommunikasiya naziri vəzifəsində çalışıb. Həmin müddətdə Bakı-Tiflis-Qars dəmiryol xəttinin tikintisində "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanovla birlikdə birbaşa iştirakı olub. Bu yaxınlarda onların Ankarada görüşü baş tutmuşdu. Məlumatlara görə, Cavid Qurbanovla Türkiyənin yeni baş naziri arasında dostluq münasibətləri var.

Binəli Yıldırım 1955-ci ildə Ərzincan şəhərində dünyaya göz açıb. İstanbul Texniki Universitetinin Gəmi İnşaası və Dəniz Elmləri Fakültəsindən məzun olub, daha sonra həmin bölümün magistratura pilləsində təhsil alıb. O, 1978-1993 illər arasında Türkiyə Gəmi Sənaye Ümumi Müdirliyi və Camialtı limanında mühəndis və idarəçi vəzifələrində işləyib. 1990-1991-ci illərdə İsveçdə olan BMT-nin Beynəlxalq Dənizçilik Təşkilatına aid Dünya Dənizçilik Universitetində Dənizdə Can və Mal Təhlükəsizliyi sahəsində ixtisas təhsili alıb.

Binəli Yıldırımın Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ilə yaxınlığı isə Ərdoğanın 1994-1999-cu illərdə İstanbul Bələdiyyəsinin sədri olduğu zamanlardan başlayır. Həmin dönəmdə İstanbul Dəniz Avtobusları Müəssisəsinin baş direktoru olan B.Yıldırım, ictimai nəqliyyatın dəniz vasitəsi ilə də həyata keçirilməsi üçün çalışıb. Bu sahədə bir sıra yeniliklərə imza atıb. 2001-ci ildə AKP-nin qurucuları sırasında yer alıb. Partiya 2002-ci ildə hakimiyyətə gəldikdən sonra 2002-2003 və 2007-2011-ci illərdə Türkiyənin nəqliyyat naziri B.Yıldırım olub. İstanbul, Ərzincan və İzmirdən millət vəkili seçilən B.Yıldırım 2014-cü ildə nazir vəzifəsindən istefa verərək, seçkilərdə yarışıb. İzmir Bələdiyyə sədrliyinə namizəd olan B.Yıldırım 2014-cü il 30 mart seçkilərində CHP-nin "alınmaz qala"sı sayılan bu şəhərdə AKP-nin səslərini 36 faizə yüksəldib, lakin seçkini qazana bilməyib. 2014-cü ilin iyun ayında baş nazir olan, iki ay sonra isə prezident seçilən Rəcəb Tayyib Ərdoğanın müşaviri olub. AKP-nin 2015-ci il noyabr zəfərindən sonra baş nazir Əhməd Davudoğlu tərəfindən açıqlanan 64-cü hökumətdə nəqliyyat, dənizçilik və kommunikasiya naziri yenidən Binəli Yıldırım olub. B.Yıldırım nazir olduğu müddətdə 17 min 500 km yol təmir olunub, aktiv hava limanlarının sayı 26-dan 55-ə yüksəlib. B.Yıldırım nazir olduğu dövrdə dünyada cəmisi 5 faiz böyüyən hava sektorunun, Türkiyədə 15 faiz böyüdüyünü vurğulayıb. Evli və 3 uşaq atası olan, ingiliscə və fransızca bilən B.Yıldırım Türkiyənin 65-ci baş naziri olacaq.

***

Politoloqlar Qabil Hüseynli və Natiq Miri "Yeni Müsavat"a açıqlamalarında bildiriblər ki, Türkiyədə qəfil baş nazir dəyişikliyi, Binəli Yıldırımın baş nazir və AKP sədri gətirilməsi Türkiyədə Konstitusiya dəyişikliyinə - parlamentli respublika idarəçiliyindən prezident üsul-idarəçiliyinə keçid üçün hazırlığın bir hissəsidir. Ekspertlər eyni zamanda hesab edir ki, Əhməd Davudoğlunun gedişi Rusiya ilə Türkiyənin münasibətlərində müsbətə doğru dəyişikliklərin başlanacağı ehtimalını da artırır. Binəli Yıldırımın baş nazir olmasının Türkiyə-Azərbaycan münasibətlərinə necə təsir göstərəcəyinə gəlincə, ekspertlərin fikrincə, münasibətlər əvvəlki kimi yüksələn xətt üzrə davam etdiriləcək. B.Yıldırımın ənənəni davam etdirərək baş nazir kimi Şimali Kiprdən sonra ilk səfərini Azərbaycana edəcəyi bildirilir.

❑ **Etibar SEYİDAĞA**



Qiyasəddin İbrahim | Bayram Məmmədov

# Aclıq aksiyasına başlayan məhbus NİDA-çılardan xəbər var

### Gənc fəalların ev dustaqlığına buraxılması barədə vəsatət təmin edilməyib; qərardan apelyasiya şikayəti verilib

**Mayın 11-də narkotik ittihamı ilə həbs edilən NİDA-çı gənc Bayram Məmmədov və gənc fəal Qiyas İbrahimovun mayın 20-də ev dustaqlığına buraxılmaları ilə bağlı məhkəmələri olub. Xətai Rayon Məhkəməsində keçirilən prosesin sonunda hər iki gəncin həbsdə qalmaları barədə qərar çıxarılıb. Qərardan apelyasiya şikayəti verilib.**

Həbs edildikləri ilk gündən onlara verilən işgəncələrlə bağlı səslənən iddialar əsas müzakirələrdən biri idi. Xüsusilə, Ombudsman Aparatının nümayəndələrinin 1 saylı Bakı İstintaq Təcridxanasında gənclərlə görüşdən sonra mətbuata açıqlamalarında onlara işgəncələrin verilməməsi ilə bağlı fikirlər səsləndirməsi heç də birmənalı qarşılanmayıb. Hələ də qurumun ünvanına müxtəlif tənqidi fikirlər səsləndirilir. Hər iki gənc artıq aclıq aksiyasına başlayıb.

Bu barədə gənclərin vəkili Elçin Sadıqov "Yeni Müsavat"a açıqlamasında məlumat verdi: "Sonuncu dəfə onları mayın 20-də məhkəmədə gördüm. Mayın 19-dan etibarən onlar aclıq aksiyasına başlayıblar. Bizim hər iki gəncin ev dustaqlığına buraxılmaları barədə vəsatətimiz təmin olunmadı. Xətai Məhkəməsi tərəfindən həmin qərardan apelyasiya şikayəti vermişik. Şikayətimizə bu həftə baxılacağı gözlənilir. Aclıq aksiyalarına təcridxanada münasibətin necə olduğu barədə nəsə deyə bilmərəm. Onlarla yaxın günlərdə görüşüb bu barədə məlumat verəcəyəm. Ombudsman Aparatı indiyə qədər heç bir işgəncəni təsdiq etməmişdi, indi də elə addım atdı. Onlardan bu addım gözlənilən idi. Bayram Məmmədovun sol biləyində açıq yara var və irinləmə gedir. O yara işgəncənin nəticəsində yaranıb. Yaranın fotosunu yaymalı idilər. Amma Ombudsman bunu etmədi. Açığı bu qurumdan şikayət verməyimin nəticəsinin olacağını düşünmürəm. Hər kəs onların necə fəaliyyət göstərdiyini bilir".

Vəkil 1 saylı Bakı İstintaq Təcridxanasında gənclərə işgəncələrin verilməsini ehtimal etmədiyini qeyd etdi: "Orada gənclərə hələ ki, normal münasibət göstərilir. Hazırda hər iki gəncə işgəncə verilməsi ilə bağlı Avropa Məhkəməsinə müraciət hazırlayırıq. Yerli məhkəmələrdə bu məsələni tükəndirmişik. Qiyas İbrahimov son məhkəmədə dedi ki, hələ də verilən işgəncələrdən əziyyət çəkir, başağrıları olur. Bayram da eyni sözləri dedi. Xüsusilə, biləyindəki irinləmənin davam etdiyini söylədi".

Qeyd edək ki, Qiyas İbrahimov və Bayram Məmmədov Cinayət Məcəlləsinin 234-cü (qanunsuz olaraq narkotik vasitə əldə etmə, saxlama, satma) maddəsinə əsasən ittiham olunurlar. Xətai rayon Məhkəməsinin qərarı ilə onların hər biri barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

❑ **Cavanşir ABBASLI**

# Putin beynəlxalq məhkəməyə verildi



Vladimir Putin

**Ukraynanın hava məkanında Malayziyaya məxsus sərnişin təyyarəsinin vurulması nəticəsində ölən insanların ailələri Rusiya prezidenti Vladimir Putini məhkəməyə veriblər.**

Məlumata görə, 2014-cü ildə baş vermiş hadisə nəticəsində 298 nəfər ölüb. Təyyarənin Rusiya istehsalı olan raketlə vurulduğu bildirilir. Ukrayna hökuməti və Qərb təyyarənin vurulmasında rusiyayönümlü üsyançıları ittiham edirlər.

Ölən insanların ailələri Putinin Avropa İnsan Haqları Məhkəməsi qarşısında cavab verməsini tələb ediblər. Ailələr hadisəyə görə Rusiya hökumətindən kompensasiya da istəyiblər. Hər bir ölən şəxsə görə 7.2 milyon dollar tələb olunub.

İddianamə ilə əlaqədar işə baxan amerikalı vəkil Cerri Skiner ailələrin tələblərini səsləndirib. "Qəza qurbanlarının ailələri və yaxınları üçün hadisənin cinayət olduğunu bilərək yaşamaq çətindir. Rusların hadisəyə görə Ukraynanı təqsirləndirməsinə heç bir əsas, heç bir fakt yoxdur. Bizim əlimizdə isə onlarla fakt, fotoşəkil, sənəd var" - Skiner deyib.

Putinə qarşı qaldırılan iddiada 33 nəfərin imzası var. Onlardan 8-i avstraliyalı, biri yeni zelandiyalı, qalanları isə malayziyalıdır (Anspress).

YENİ MÜSAVAT
N 111 (6432) 23 may 2016



# Avropa Türkiyədən üzr istəyəcək

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Növbəti təhdid İngiltərənin baş nazirindən gəldi. Devid Kemeron deyib ki, Türkiyə Avropa Birliyinə üzv ola bilər, ancaq 3000-ci ildə. Bu, qosqocaman bir dövlətə, böyük bir millətə aşkar həqarətdir.**

Açıq görünür ki, Türkiyənin böyüklüyünü, regiondakı liderliyini həzm edə bilmirlər. Avropa Birliyinin üzv dövlətləri sanki vədələşib, vədlərini unudub da Türkiyə ilə diktə dilində danışır.

Ankaraya qarşı vizasız gediş-gəliş qarşılığında 72 şərtlə danışanlar nəzərə almır ki, bu gün Türkiyə 2 milyon 850 min qaçqına, dünya güclərinin cızdığı planlar ucbatından öz ev-eşiyindən didərgin düşənlərə qucaq açan nəhəng ürəyə sahib ölkədir. Hətta milyonlarla suriyalıya "qaçqın" da yox, "müsafir", "qardaş" deyir.

Kemeron Türkiyə vətəndaşlarının Avropaya vizasız gedişinə qarşı çıxsa da, Ankara heç vaxt humanist insani davranışlarından imtina etməyəcək, buna kimsənin şübhəsi olmasın. Çünki Türkiyə 5 ildir Suriya qaçqınlarına ona görə qucaq açmayıb ki, sonda Avropadan ənam alsın.

Avropa Birliyi mərhələli şəkildə Türkiyəyə 3 milyard avro yardım verəcəyini vəd etsə də, hələlik bir quruş belə ayrılmayıb. Ancaq qardaş ölkə 2011-ci ilin aprelindən - Suriyadan gələn ilk 250 minlik qaçqını qəbul edəndən bəri suriyalılar arasında ərəb, kürd, türk, çərkəz fərqi qoymadan 9 milyard 560 milyon dollar xərcləyib. BMT-li, UNİSEF-li bütün dünyanın Türkiyədəki qaçqınlara yardımı isə cəmi 468 milyon dollar olub.

Yəqin cənab Kemeronun xəbəri var ki, Böyük Britaniya Suriya qaçqınlarına 2020-ci ilədək 1 milyard 750 min dollar yardım ayırmağı düşünür. Hələ düşünür... Bir az əvvəl Ankaranı hədələmək missiyasını həyata keçirən xanım Merkelin Almaniyası isə 2018-ci ilədək 2 milyard 500 milyon vəd edib. Dünyanın supergücü ABŞ bu vaxtadək Suriyaya 5 milyarddan bir az artıq yardım edib, Türkiyədən iki dəfə az! Ötən ay London konfransında Suriya üçün 10 milyard dollar toplandı və BMT-nin baş katibi Pan Ki-Mun bunu sevincək bəyan etdi. Ancaq ardınca demədi ki, bu məbləği təkbaşına xərcləyən Türkiyə qarşı vicdansızlıq etməyin!

Bu gün Böyük Britaniya daxil, Avropa qaçqınları "xoxan" şəklində gördüyü, onları geriyə, odun-alovun içərisinə qaytarmaq üçün planlar hazırladığı halda, Türkiyə ölümdən qaçan insanları gələcək həyata hazırlayır, onlara təhsil verir, peşə öyrədir. 350 min suriyalı qaçqını bağrına basan Qazientep şəhər valisinin köməkçisi Xəlil Uyumazın dediklərini xatırlayıram: "Biz çörəyimizi paylaşırıq. Çünki bunlar turist deyil, ölümdən, savaşdan qaçan insanlardır". Əsl insanlıq nümunəsidir.

Fransa dövləti iki il ərzində öz ərazisinə vur-tut 24 min qaçqın və miqrant yerləşdirməyi planlaşdırır. O biri ölkələr də daş atıb başını tutur qaçqın adı gələndə. Olsa-olsa, özləri üçün gərəkli olan ixtisaslı kadrları seçib onlara yaşamaq imkanı yaradırlar, faktiki insan alırlar! Türkiyə isə dörd bir tərəfində problemlər yaşanmasına, daxildə terrorla üz-üzə qalmasına baxmayaraq, Suriyadan ona pənah gətirənlərə arxa çevirmir, qucaq açır. Özü də necə?

Rəqəmlər çox şeyi deyir. Bu günə qədər suriyalı qaçqınların 918 min nəfəri hətta ikinci, üçüncü dəfə tibbi müayinədən keçirilib! 786 min qaçqın müalicə olunub! Son 5 ildə Türkiyədə 165 mindən çox suriyalı doğulub! 670 min nəfər üzərində cərrahiyyə əməliyyatı aparılıb! Kartlarına hər ay pul yüklənilir ki, gedib istədiyi ərzağı alsınlar!

250 min suriyalı Kilisin və Hatayın qarşısındakı 10 düşərgədə məskunlaşıb. Onlar Türkiyəyə gəlmək istəmir, lakin Türkiyə onları da unutmur. Üstəlik, Türkiyənin Fövqəladə Hallar Nazirliyi Suriyanın Hələb şəhəri daxil olmaqla, müxtəlif şəhərlərə 25 min TIR-lə, 1,5 milyard dollar TL dəyərində yük göndərib! Türkiyə doğulandan ölənə qədər suriyalılara sahib çıxıb, hətta dəfn xərclərini də ödəyir! Vəfat edənlərin nəşini sərhədə qədər aparıb yola salır. Türkün böyüklüyü budur, Avropa!!!

Türkiyə ilə təhdid dilində danışmaq risklidir... Tarix də bunu sübut edib. Bu gün yetər ki, Türkiyə qaçqın şəhərciyinin qapılarını açsın və suriyalılara "Buyurun, bu yol, o da Avropa" desin. Təbii ki, qardaş ölkə bunu etməz, Avropa nə qədər pis davransa da. Amma edərsə, o liderlər nə bu qaçqın selinin qarşısında duruş gətirə, nə də belə yekə-yekə danışardı. Yəqin ki, Avropa bir gün üz istəyib Türkiyənin haqqını tanıyacaq. Minnət qoymadan bunu nə qədər tez etsə, həm də özünün faydasına olar...

**90 saylı Ağdaş seçki dairəsində keçiriləcək seçkilərə bir aydan az müddət qaldı. 18 iyunda keçiriləcək seçkilərdə deputatlığa ən şanslı iddiaçı kimi görünən Ümid Partiyasının sədri İqbal Ağazadənin namizədliyi artıq qeydə alınıb. Ümid sədrinə demokratik düşərgənin dəstək verib-verməyəcəyi isə hələlik məlum deyil.**

# Müxalifət İqbal Ağazadəyə seçki dəstəyi verəcəkmi?

## Tamilla Qulami: "Özünə ana müxalifət deyən siyasi partiyadan..."
## Tural Abbaslı: "İqbal bəyin parlamentdə olması daha səmərəlidir"
## Elman Fəttah: "Heç bir cavabımız yoxdur"

Partiya sədrinin müavini Tamilla Qulami hakimiyyətlə bərabər müxalifətin də manevrləri ilə üzləşdiklərini bildirdi: "2015-ci ilin noyabrında keçirilən parlament seçkilərində səs çoxluğu ilə qələbə qazandığımız 26 protokolu əldə etməyimizə baxmayaraq, parlamentə düşə bilmədik. Bunun da səbəbləri bəllidir. Qarşımıza istər hakimiyyət, istərsə də müxalifət nümayəndələri manevrlər çıxardı. Təəssüflər olsun ki, ana müxalifət uğrunda savaşan heç bir partiya heç bir halda haqlarımızın tapdanması ilə bağlı dəstək vermədi. İstər parlamentdə, istərsə də, digər çıxışlarında İqbal Ağazadə hər zaman hər məsələdə dəstəyini səsləndirib, onların problemlərinin həlli üçün çalışıb. Bunları videofaktlarla da görə bilərsiniz. Bizim partiya olaraq prinsipimiz budur ki, haqqı tapdanan, bunun faktlarını gördüyümüz hər bir kəsə bütün hallarda dəstəyimizi əsirgəməyək - istəyir lap YAP nümayəndəsi olsun. Hazırda 60-dan çox rayonda formalaşmış təşkilatlarımız var. Hələ indiyədək bir-ikisini çıxmaqla, özünə güclü, ana müxalifət deyən siyasi partiyaları heç birindən dəstəklə bağlı təklif gəlməyib".

"AĞ blok"un lideri Tural Abbaslı Ağdaş dairəsindən irəli sürdükləri namizədin qeydə alınmayacağı təqdirdə sona qədər İ.Ağazadəni dəstəkləyəcəklərini bildirdi: "Əgər namizədimiz Kərim Kərimli qeydə alınsa, çalışacağıq ki, öz namizədimizin qələbəsi üçün hər şeyi edək. Əksi baş versə, orada müxalifət adına bir namizəd var. O da İqbal Ağazadədir. Onun parlamentdə olması daha səmərəlidir. Öz namizədimiz olsa belə, yenə İqbal bəylə həmin dairədə əməkdaşlığımız olacaq. İstər müşahidəçilər, istərsə də, digər məsələlərdə. Düşünürəm ki, müxalifət adına birlikdə olmağımız həmişə vacib məsələdir".



İqbal Ağazadə

ADP sədri Sərdar Cəlaloğlu seçkidə iştirak etmədikləri üçün heç bir qərarlarının olmadığını qeyd etdi: "Könüllü şəkildə partiyadan kimsə seçkilərdə İqbal bəyə kömək etsə, şəxsi işidir. İxtiyarımız yoxdur ki, kiminsə hüquqlarını məhdudlaşdıraq".

Müsavat başqanının müavini Elman Fəttah partiya olaraq Ağdaşda seçki olduğunu düşünmədiklərini söylədi: "Ağdaşdakı seçki hadisəsi yox dərəcəsindədir. Ona görə də Müsavatın nə yerli təşkilatı, nə də özü bu məsələ ilə bağlı heç bir münasibət sərgiləmir. Könüllü şəkildə iştirak və başqa məsələlər bizdə ümumiyyətlə, müzakirə olunmur. Ona görə də, heç bir cavabımız yoxdur".

KXCP sədrinin müavini Xəzər Teyyublu seçki kampaniyası dövründə müxalifətçiyə dəstək olmağa hazır olduqlarını bəyan etdi: "Orada yerli şöbəmiz var. Nə kömək lazım olsa, müraciət edilərsə, əlimizdən gələni edə bilərik. Onların Seçki Qərargahı fəaliyyət göstərir. Qərargah bizə müraciət edərsə, kömək etməyimiz normal bir şeydir. Nə köməyimizin olduğunu onlar daha yaxşı bilərlər. Biz də əsirgəmərik".

❑ Cavanşir ABBASLI

# İqtisadi amnistiyanın ardınca maliyyə amnistiyası verilə bilər

## Ekspertlər qərarın davamını vacib sayırlar, ona görə ki...

**İyunun 1-dən etibarən Azərbaycanda qanunsuz sahibkarlıqla məşğul olan şəxslər cərimə ödəməklə məsuliyyətdən azad olunacaqlar. Prezident İlham Əliyev bununla bağlı Cinayət Məcəlləsində edilən dəyişiklikləri təsdiqləyib.**

Xatırladaq ki, hazırda qanunsuz sahibkarlıqla məşğul olan şəxs cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki misli miqdarında cərimə və ya 6 ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Əvvəllər vergi və gömrük rüsumlarından 2000 manat məbləğində yayınan sahibkarlar cinayət məsuliyyətinə cəlb edilirdi. Yeni qanun qüvvəyə mindikdən sonra cinayət məsuliyyəti yaradan hədd 10 dəfə artırılaraq 20.000 manat olub. Yəni 20.000 manata qədər vergi və gömrük rüsumlarından yayınan şəxslər artıq cinayət məsuliyyətinə deyil, inzibati məsuliyyətə cəlb ediləcəklər. Bu da həmin məbləğə qədər olan əməllərin dekriminallaşdırılması deməkdir.

Başqa bir dəyişikliyə əsasən, ilk dəfə böyük ictimai təhlükə törətməyən qanunsuz sahibkarlıq və ya yalançı sahibkarlıq cinayətlərini törətmiş şəxslər əldə etdikləri qanunsuz gəliri və ya vurduqları ziyanı dövlət büdcəsinə tamamilə ödədikdə məsuliyyətdən azad ediləcək. Bu dəyişiklik nəticəsində ümumilikdə 24 maddədə sahibkarların məsuliyyəti yüngülləşdirilir. İqtisadi amnistiya cəmiyyətdə müsbət qarşılanıb.



Vüqar Bayramov



Natiq Cəfərli

İqtisadçı ekspert Vüqar Bayramov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, iqtisadi amnistiyanın verilməsi müsbət haldır: "Biz əvvəllər də müsahibələrimizdə iqtisadi amnistiyanın verilməsini vurğulamışdıq. Xüsusən vergidən yayınma ilə bağlı hallara 1000 manatdan artıq məbləğə görə cinayət işinin açılması arzuolunan deyildi. Xüsusən də sahibkarların fəaliyyətinə mənfi təsir göstərirdi. Faktiki olaraq, çox kiçik məbləğə görə cinayət işi açılırdı. Bu məbləğin 20 min manatadək artırılması müsbət haldır. Bu artıq imkan verəcək ki, 20 min manatadək vergidən yayınma halları inzibati iş olaraq aparılsın və cinayət işi açılmasın. Bu qərar sahibkarlıq subyektinin fəaliyyətinin müvəqqəti olaraq dayanmasının qarşısını alacaq. İnzibati iş olduğuna görə, bu sahibkarın fəaliyyətinə təzyiqlərin azalmasına gətirib çıxaracaq. Bu baxımdan məbləğin 20 dəfə artırılması müsbət haldır. Bundan sonra da məbləğin mərhələli şəkildə artırılması gündəmə gətirilməlidir".

İqtisadçının sözlərinə görə, əhəmiyyətli məqamlardan biri də sahibkarlıq fəaliyyətinə edilən güzəştlərlə bağlıdır: "Əvvəllər obyektin dövriyyəsini gizlətməklə bağlı yüksək cərimələr və həbs də mümkün idi. İndiki halda bu qaydalar kifayət qədər yüngülləşdi. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxs əldə etdiyi gəliri dövlətə ödəyirsə, bu artıq imkan verəcək ki, o şəxsi məsuliyyətdən azad etmək mümkün olsun. Bu həm də qanunsuz sahibkarlığın leqallaşdırılması baxımından mühümdür. Praktika da göstərir ki, inzibati yollarla qanunsuz sahibkarlığı leqallaşdırmaq mümkün deyil. Əksinə, inzibati metodlar qanunsuz sahibkarlıq fəaliyyətinin dayandırılmasına gətirib çıxarırdı. İndiki qanun isə imkan verir ki, belə bir hal aşkarlandıqda, o sahibkar dəymiş ziyanı ödəməklə həmin fəaliyyətinə davam edə bilsin və obyektini leqallaşdırsın. İqtisadi amnistiyanın verilməsi bütövlükdə postneft dövründə ciddi bir yumşalma kimi qiymətləndirilir. Bundan sonra isə sahibkarlıq fəaliyyətinə müdaxilələrin azalması gözlənilir".

İqtisadçı ekspert Natiq Cəfərli isə bu islahatların davamı kimi maliyyə amnistiyasının verilməsini də vacib hesab edir: "Maliyyə amnistiyası gec-tez həyata keçirilməlidir. Sadəcə, maliyyə amnistiyasının keçirilməsi bir çox şərtləri özündə ehtiva edir. Yəni maliyyə amnistiyasının köklü sistem dəyişikliklərinə ehtiyacı var ki, atılan addımlar əks effekt verməsin. Söhbət şəxslərin yox, sistemin dəyişməsindən gedir. Maliyyə amnistiyası müstəqillikdən bu yana hər hansı yolla vəsait əldə etmiş insanların pulun bir hissəsini dövlətə keçirməklə, bir hissəsinin isə vergisini ödəməklə leqallaşmasından gedir. Azərbaycan kimi ölkələr üçün bu, çox önəmlidir. Ancaq söhbət hansı yolla pul qazanmasından asılı olmayaraq həminn bağışlanmasından getmir. Bu ancaq o zaman effekt verə bilər ki, Azərbaycan bir formatdan digər formata keçsin. Ümid edirəm ki, hökumət bu yolla gedəcək".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 111 (6432) 23 may 2016

**Hacı Allahşükür Paşazadənin adı cinayət işində keçir. Paşazadə ailəsi aralarında şəriklik müqaviləsi olan Müğdət Əhmədiyyə oğlu Həşimovdan şikayət edərək həbs etdiriblər. Paşazadələrlə Həşimov 2014-cü ildə qapadılan tibb müəssisəsində şərik olublar. 2 ilə yaxın davam edən şəriklik 59 yaşlı Həşimovun sifarişli həbsi ilə sonuclanıb. Hazırda Bakı İstintaq Təcridxanasında saxlanılan M.Həşimov "Yeni Müsavat"a məktub yollayaraq başına gələnləri açıqlayıb. Məktub müəllifi M.Həşimov Azərbaycan Jurnalistlər və Yazıçılar birliyinin üzvüdür. İxtisasca filoloq olan M.Həşimovun ilginc məqamlarla zəngin məktubunu təqdim edirik.**



# Allahşükür Paşazadənin adı cinayət işində!!!

## Qafqazın şeyxinin ailəsinə həbsdəki şəriklərindən ilginc ittihamlar; Müğdət Həşimov dini liderin xeyir-duası ilə həbs olunduğunu iddia edir...

### "Həbsimin səbəbkarı və sifarişçisi Milli Məclisin deputatı Cavanşir Paşazadədir"

"Saxta ittihamla, sifarişlə 12 avqust 2015-ci ildə məni 179.3.2 (mənimsəmə) maddəsi ilə Korrupsiyaya Qarşı Mübarizə İdarəsi ittiham elan edərək, həbs edib. 18 mart 2016-cı ildə yenə saxta ittihamlarla 178.3.2 (dələduzluq) və 213.1(vergidən yayınma) maddələri artırılıb. 9 aydan çoxdur ki, zindan həyatı yaşamağımın, saxta ittihamlarla qaldırılmış cinayət işinin Ağır Cinayətlər Məhkəməsinə gedib çıxmasının səbəbkarı və sifarişçisi Milli Məclisin deputatı Cavanşir Paşazadədir. 2 il yarımdır mənə nə işləməyə, nə də yaşamağa imkan verməyən, qanunları kobud şəkildə pozaraq özbaşınalıq edən bu adam məhkəmə zalında olmalıdır və mənim suallarımı cavablandırmalıdır".

### "Paşazadələr bankdan 700 min manat pul götürüb"

M.Həşimov yazır ki, özünü elan olunmuş ittihamlar üzrə günahkar bilmir: "Özümü zərrə qədər müqəssir hesab eləmirəm, əksinə, millət vəkili Cavanşir Paşazadə Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə mənə qarşı cinayət əməli törədib, vəzifə səlahiyyətlərini aşmaqla özbaşınalıq edib. Günahlandırıldığım 179.3.2 maddəsi barədə: - Millət vəkili C.Paşazadənin himayəsində olan "Aygün-C" MMC-nin təsisçiləri ilə mənim aramda 2012-ci ilin 6 dekabrında rəsmi qaydada "Birgə fəaliyyət haqda" müqavilə bağlanıb. Müqavilənin şərtlərinə görə mənimlə iş birliyində adları keçən - Allahşükür Paşazadənin həyat yoldaşı və oğlu, Cavanşir Paşazadənin qızı və kürəkəni 8 aylıq istintaq gedişində 1 dəfə də olsun istintaqa çağırılmayıblar. Bu 179.3.2-ci maddə guya 193 min 50 manatlıq tibbi avadanlığın çatışmazlığı faktına görə qaldırılıb. Hansı şəraitdə bu çatışmazlıq yaranıb, burdan başlamaq lazımdır. Adlarını çəkdiyim 4 təsisçi məhkəməyə gəlməlidir, qanun hamı üçün qanundursa, gəlib izah etməlidirlər ki, bu avadanlıqlar niyə və hansı şəraitdə yoxa çıxıb? Bu avadanlıqların onların olmasını sübut edən sənədləri varsa, narahat olmalıdırlar, istintaqa təqdim etməlidirlər. Yox əgər yoxdursa, mən niyə məhkəmə qarşısında dayanmalıyam? Axı onlar bankdan pul götürüb həmin pulun banka qaytarılması öhdəliyini üzərimə qoyublar. Gəlib münasibət bildirməlidirlər ki, niyə mən öhdəliyimi yerinə yetirmirəm? Mən onların hər birinə, C.Paşazadəyə məktubla müraciət etmişəm, məktublar açılmamış üstümə qaytarılıblar. Təsisçilər pulu mənə öz ciblərindən verməyiblər, bankdan götürüb veriblər, həmin pulun banka qaytarılması isə 2018-ci ilə qədər mənim həmin ünvanda - yəni millət vəkili C.Paşazadənin adına olan 1255 kv.metrlik qeyri-yaşayış sahəsində işləyərək ödəmək öhdəliyim olub. C.Paşazadə ilə 9 saylı notariat kontorunda 2013-cü ilin mart ayında 5 illik icarə müqaviləsi bağlamışam. Deməli, həmin obyektdə 2018-ci ilə qədər işləyib bankdan götürülmüş 700 min manatı ödəməliyəm. Bankın pulu ödənilib bitdikdən sonra əldə olunan qazanc Cavanşir Paşazadə ilə mənim aramda yarı bölünməliydi. Bu yazdıqlarım icarə müqaviləsinin şərtlərində göstərilib. Fəaliyyətə başladığım vaxtdan 10 ay keçməmiş - yəni 2014-cü ilin fevral ayında millət vəkili C.Paşazadə başının dəstəsi ilə obyektə gələrək işçi kollektivini və tibbi avadanlığı oradan çıxartmağımı, 2018-ci ilə qədər ödəniləsi olan bank pulunu təcili verməsəm məni tutduracağını bildirdi. Heç bir məhkəmə qərarı olmadan özbaşınalıq edən bu millət vəkili 100-ə yaxın evinə çörək pulu aparan işçi kollektivini işsiz qoydu, böyük əziyyətlə başa gələn, qurulan biznesi dağıtdı, məni də 2015-ci ilin avqustunda saxta ittihamla həbs etdirdi".

### Həbsdəki şərikindən Cavanşir Paşazadəyə tələb - məhkəməyə gəlsin!

M.Həşimov yazır ki, Cavanşir Paşazadənin məhkəməyə gəlməsini gözləyir: "Tələb edirəm ki, gəlsin qanunsuz dağıtdığı biznesə, qanunsuz bağladığı obyektə dair açıqlama versin. Mən Azərbaycan vətəndaşıyam, o güclüdü, qardaşı güclüdü deyə istədiklərini etməlidilərmi? İnsan həyatı ilə belə oyun oynamağa onlara kim haqq verib? Bəs möhtərəm Prezidentimiz "bu ölkədə toxunulmaz şəxs yoxdur" deyəndə Cavanşir Paşazadə qulaqlarına pambıq tıxamışdı?"

### "Cavanşir Paşazadə qanunlar qəbul olunan Milli Məclisə hansı sifətlə gedir?"

Məktub müəllifi yazır ki, dəfələrlə Paşazadələrə xəbər yollayaraq inadlarından əl çəkmələrini istəyib: "Demişəm imkan verin tibbi avadanlığı yığıb işimi davam etdirim, bankın öhdəliyini yerinə yetirim. Deyib yox, gətirsin 700 min manatı versin ondan əl çəkim. Hansı ki, rəsmi sənədlərlə sübuta yetirilib ki, mən həmin obyektə və banklara 800 min manatdan artıq pul ödəmişəm. Bu haqsızlıq, bu amansızlıq, bu ədalətsizlik bizim inkişaf etmiş Azərbaycanda, hüquq-mühafizə işçilərinin gözü qarşısında, onların iştirakı ilə baş verir. Bir ailə başçısını qanunsuz olaraq həbsə saldıran Cavanşir Paşazadə qanunlar qəbul olunan Milli Məclisə hansı sifətlə gedir?"

### "Allahşükür Paşazadə müqəddəs Quran ayələrini öz qardaşına xatırlatmağa vaxt tapmır?"

Müəllif məktubu Paşazadələrin geniş əhatəli biznesi, biznes ortağı haqda məlumatları diqqətə çatdırmaqla davam etdirir: "Beton zavodları, çınqıl zavodları, restoran biznesi, tikinti biznesi sahələrinə sahiblik edən Cavanşir Paşazadəyə Milli Məclisin nə ehtiyacı var? Gedib biznes ortağı, daha doğrusu, qoçusu Hacı Mazanın əli ilə Azərbaycan xalqını çapıb-talamaqla məşğul olsun. Bu sahədə Cavanşir Paşazadə daha peşəkardır, nəinki həyatı boyu pozduğu qanunların qəbul olduğu yerdə neçə ildi deputatlıq edir, onun səsini eşidən olub? Sizcə, bu adam öz seçicilərinin xidmətçisi ola bilər? Belə insanlar ailələri gözüyaşlı qoymaq üçün, taleləri məhv etmək üçün doğulurlar. Görəsən qardaşı Allahşükür Paşazadə müqəddəs Quran ayələrini öz qardaşına xatırlatmağa vaxt tapmır? Görəsən Quranın hansı ayəsində göstərilib ki, güclü gücsüzü basıb əzməlidir?

### "Allahın evinə Allahşükür Paşazadə elə mühafizəçilər qoyub ki..."

M.Həşimov işə Allahşükür Paşazadənin xeyir-duası ilə başladıqlarını da qeyd edir: "İşə başlamamışdan bir neçə gün əvvəl - 2013-cü ilin əvvəli Cavanşir Paşazadə, Ramazan Zeynalov və mən Allahşükür Paşazadənin yanında olduq ki, o, da öz razılığını bildirsin. O, razılığını verdikdən sonra işə başladıq. Cavanşir Paşazadənin bu haqsızlığı başlayandan 2 il yarım keçib, mənim ailəmin, qohumlarımın bütün cəhdlərinə baxmayaraq bir dəfə də olsun Allahşükür Paşazadə onları qəbul etməyib. Bütün müsəlmanların üzünə açıq olduğu deyilən Allahın evinə Allahşükür Paşazadə elə mühafizəçilər qoyub ki, bir neçə dəfə rayondan gələn qohumlarımı az qala döyərək oradan üzaqlaşdırıblar. Bu 2 il yarımda bir müsəlman kimi, bir ağsaqqal kimi bir dəfə də olsun danışığa razılaşmayan bu din rəhbəri ona yazılan məktubları, onun telefonuna göndərilən mesajları cavabsız buraxıb. Keçən il Avropa oyunları ərəfəsində 3 aydan çox idi ki, Korrupsiyaya qarşı Mübarizə İdarəsinin prokuroru, polkovnik Faiq Rzayev bu işin ibtidai istintaqını aparırdı. O da, mən də, azca savadı olan hər bir kəs görürdü ki, bu iş mülki müstəvidə həll olunası bir işdir. Ona qədər də bu iş Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə İdarəsində 6 aydan çox araşdırılmış, günahsız ola-ola 6 ay da bu idarəyə ayaq döymüşəm. Cavanşir Paşazadənin bütün cəhdlərinə baxmayaraq həmin idarənin əməkdaşları bu işdə cinayət tərkibi olmadığını görüb sifarişi yerinə yetirmədilər. Faiq Rzyaev ibtidai istintaq zamanı bu işi mülki iş kimi yekunlaşdırmaq ərəfəsində bir gün mənə zəng vurub idarəyə gəlməyimi istədi. Gəldim, dedi ki, 308.1 maddəsi ilə fakta görə cinayət işi qaldırmalıyam. Dedim axı bu işdə cinayət tərkibi yoxdur, susdu. Dedi ki, bu işi başqa müstəntiq aparacaq. Onu da bildirdi ki, məhkəməyə qədər bu maddə ilə səni saxlamaq, tutmaq qanunsuzdur. Həmin ərəfədə mən yenidən Allahşükür Paşazadə ilə görüşmək üçün cəhdlər etdim, mümkün olmadı".

### "Allahşükür Paşazadə deyirdi ki, gətirib pulu tam ödəməsə, ağır maddə ilə gedəcək"

Məktub müəllifi A.Paşazadəyə zəng etdirdiyini də yazır: "Onun öz yerlisi, tanışı Moskvada yaşayan Məhərrəm Axundov vasitəsilə Allahşükür Paşazadəyə zəng vurdurdum. Danışıqlarına mən də qulaq asırdım. Allahşükür Paşazadə deyirdi ki, qohumları mənimlə görüşmək istəyir, amma mən onları qəbul etmirəm, gətirib pulu tam ödəməsə, ağır maddə ilə gedəcək. Allahşükür Paşazadə necə demişdi elə də oldu. "Korrupsiyadan" müstəntiq Qabil Səfərov məni idarəyə çağırıb dedi ki, sənə 179.3.2-ci maddə ilə cinayət işi qaldırmışam. Vəkilim Ravil Çükanov da mənim yanımda idi. Ona elə birinci danışıqda sübut etdim ki, burada ümumiyyətlə cinayət tərkibi yoxdur, nəinki 179.3.2-ci maddə. Q.Səfərov öz növbəsində dedi ki, mən neyləyim Müğdət müəllim, mən "ruçkayam". Vəkilim də bunu təsdiq edə bilər.

### Hacı Mazan da Paşazadələrin şərikindən şikayət yazıb

"Mənə qarşı qaldırılmış saxta ittihamdan biri də 178.3.2-ci maddədir. Təcridxanada olduğum müddətdə Ramazan Zeynalov iddia ərizəsi verib ki, guya o vaxt təzə tikdirdiyi binada mənə 1 otaqlı ev verib, mən də onun etimadından sui-istifadə edərək evi satıb onu aldatmışam. Əvvəla ev əşya deyil adama verəsən. Heç bir yerdə, heç bir sənəddə onun binasından mənim adıma ev sənədləşdirilməyib. İndi bu işin ardına diqqət eləyin. 2 il yarımdır "Parex" lizinqdən qiyməti 100 min manat olaraq şirkətimin adına rəsmiləşdirilmiş rentgen aparatı Ramazan Zeynalovun girovluğundadır. Mənim və "Parex" lizinqin bütün cəhdlərinə baxmayaraq 2 il yarımdır ki, həmin avadanlığı onun girovluğundan azad edə bilmirik. Məhkəmə qərar çıxarıb rentgen aparatının götürülməsi ilə əlaqədar, icra məmurları məhkəmə qərarını icra etmək üçün obyektə gediblər. Lakin Ramazan Zeynalov icra məmurlarını oradan qovaraq rentgen aparatını verməyib. R.Zeynalov mənim adımdan öz işçisi - Laləyə kağız yazdırıb, guya mən ondan 70 min manat pul almışam, mənim yerimə də qol çəkdirib. Bu saxta sənəd də bu gün istintaq materiallarının içindədir. Sadəcə olaraq işi araşdıran müstəntiqin bu sənədi oxumağa savadı çatsa da, ortalığa çıxartmağa cəsarəti çatmayıb. Mənim yerimə sənəd yazdığını və mənim yerimə qol çəkdiyini Lalə öz ifadəsində təsdiq də edib. Paşazadənin qoçusu Hacı Mazan saxta sənəd də düzəltdirə bilir, sıravi adamları yox, dövlət adamlarını, icra məmurlarını qovub məhkəmənin qərarını icra etməyə də bilir, günahsız adamların üzünə durub zindanlara da göndərə bilir" -deyə M.Həşimov məktubunu davam etdirir və R.Zeynalovun kimliyinə aydınlıq gətirir:

### Kimdir bu Hacı Mazan?

- üzündən oxuya bilməyən, yazı bilməyən, ən başlıcası isə ilin-günün bu vaxtında Paşazadənin qoçusu. Hacı Mazanın cinayətləri ilə bağlı, onun və onun himayədarının qanunsuz əməlləri ilə bağlı əlimdə təkzibedilməz sübutlar var, yeri gəldikcə Azərbaycan ictimaiyyətini tanış edəcəm. Mən onları tanımamışam, bütün Qafqazın Şeyxi Allahşükür Paşazadənin ailə üzvləri ilə iş birliyinə gedəndə, din, iman, insaf, mərhəmət ocağına getdiyimi güman edirdim. Sən demə bu fitnə-fəsad, dinsizlik, imansızlıq, insafzlıq, tamahkarlıq ocağı imiş".

### "Mehriban xanım Əliyevaya səslənirəm"

M.Həşimov 1-ci xanıma müraciət edərək üzləşdiyi qanunsuzluqların aradan qaldırılmasında yardımçı olmasını istəyir: "Mən və həyat yoldaşım 1975-80-ci illərdə ADU-nun Filologiya fakültəsini bitirmişik. O vaxtkı universitet illərində çox qiymətli müəllimlərimizlə yanaşı Mehriban xanım Əliyevanın babası Mircəlal Paşayev də sevimli müəllimimiz idi. Əsl müəllim idi, düzgün, sadə, mərhəmətli, xeyirxah. Biz o tərbiyədən, o təhsildən çıxmışıq. Mehriban xanım Əliyevaya səslənirəm, mən və mənim ailəm indi Mazanın, Paşazadələrin qanunsuz əməllərinin, fitnə-fəsadlarının nəticəsində məhv olmaq ərəfəsindədirlər. Xatirəsini həmişə əziz tutduğumuz əsl müəllim Mircəlal Paşayev və onun timsalında bizə təhsillə yanaşı əsl insanlıq, xeyirxahlıq dərsi keçən o kişilər indi əlində əsirə çevrildiyimiz bu adamları nə yaxşı görməyib, tanımayıblar. Hardan biləydilər ki, bir zaman gələcək üzündən oxuya bilməyən, yaza bilməyən mazanlar varlanıb hacı olacaq, qoçuluq edəcək, əsl insanı dəyərlər itib batacaq. Möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının bu yazını oxuyacağına, məni və ailəmi Cavanşir Paşazadənin caynağından qurtaracağına böyük ümid bəsləyirəm. Tək bir qələmimlə aparacağım mübarizəm isə sağ olacağım bütün dövr üçün davam edəcək".

Qeyd edək ki, hazırda Bakı Ağır Cinayətlər Məhkəməsində iş üzrə məhkəmə araşdırması davam etdirilir.

❑ **E.HÜSEYNOV**

***P.S** Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

**Türkiyə Böyük Millət Məclisi deputatların toxunulmazlıq hüququnun ləğvi ilə bağlı qalmaqallı qanun layihəsini təsdiqləyib. Qərarın millət vəkilləri tərəfindən qəbulu geniş müzakirələrə yol açıb.**

# Milli Məclisin deputatları toxunulmazlığın ləğvi əleyhinədir



Xüsusilə, CHP və HDP partiyaları bunu özlərinə qarşı təhlükə hesab edərək, onların parlamentdən uzaqlaşdırılması ilə bağlı belə bir qanun layihəsinin qəbul edildiyini iddia edirlər. Layihə 550 nəfərlik parlamentdə 376 deputatın dəstəyini qazanıb. Bu isə o deməkdir ki, referenduma ehtiyac olmadan deputatların toxunulmazlıq hüququ birmənalı şəkildə ləğv olunacaq.

Əslinə qalsa, belə bir qərarın qəbulu zaman-zaman təkcə Türkiyədə deyil, müxtəlif ölkələrdə də səsləndirilib. Buna misal olaraq Ukraynanı göstərmək olar. Üç ay öncə Ukrayna prezidenti Petro Poroşenko belə bir təşəbbüslə çıxış edib. Azərbaycanda da qonşu ölkədə millət vəkilləri ilə bağlı qəbul edilən qərar birmənalı qarşılanmayıb. Deputatların bununla bağlı mövqelərini aldıq.

İqtidaryönlü deputat Zahid Oruc bu məsələnin daim bütün ölkələrdə gündəmdə olduğunu söylədi: "Napoleon dövrünün parlamentini xatırlamaq kifayətdir. O dövrdə siyasi qurumlar üz-üzə dayanmışdılar. Edam hökmünü yerinə yetirənə qədər hakimiyyəti ələ keçirmiş qüvvələrin belə qərarları parlamentdəki bu tipli müzakirələrdən keçirdi. Qardaş ölkədə bu qərarın qəbulunun deputatları xalqa yaxınlaşdırmaq, onlarla eyni hüquqlarının olması barədə müxtəlif fikirlər var. Onlar da əsassız deyil. Orada qüvvələr nisbəti məlumdur ki, deyişib. Müxtəlif layihələr var. Ona görə belə bir qərar verildi. Hər bir halda bu komissiyadan keçdi. Ona görə də bizim hörmətlə yanaşmağımız vacibdir. Azərbaycanda da bu tipli layihənin müxtəlif dövrlərdə qaldırıldığını xatırlayıram. Düşünürəm ki, parlament üzvü hər bir vətəndaşla bərabər qanun qarşısında cavabdehlik daşımalıdır. O, qətiyyən hüququnu qabartmamalıdır. Açığı, bu cür qərarın Azərbaycanda qəbul ediləcəyini gözləmirəm. Cəmiyyət daxilində bununla bağlı fikirlər səslənsəydi, bəlkə də qəbul edilərdi. Amma indiyə qədər bu məsələ elə də ciddi narazılıq yaratmayıb. Arzu edirəm ki, həmkarlarımız qanuna daim əməl etsinlər. Bu məsələnin ölkəmizdə həllini real saymıram".



**Zahid Oruc:** "Qərarın Azərbaycanda qəbul ediləcəyini..."



**Fərəc Quliyev:** "Doğru saymıram"



**Fəzail Ağamalı:** "Ehtiyac yoxdur"

Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev deputat toxunulmazlığı hüququnun götürülməsini doğru saymır: "Bunu özümün deputat olmağıma görə demirəm. Deputatın üzərindən bu hüququ götürmək düzgün deyil. Onda belə çıxır ki, istənilən polis, prokuror deputata qarşı istədiyini edə bilər? Əgər qanunverici orqan icraedici orqan üzərindəki funksiyasını həyata keçirə bilməyəcəksə, o zaman ölkədə xaos yaranar. Bu gün Türkiyə yaşananlar əvvəlcədən baş verən xətaların nəticəsidir. Çünki HDP parlamentə buraxılmamalı idi. PKK-nın sürünüb parlamentə girməsi yanlış idi. Məqsəd burada Türkiyənin bölücülüyünün qarşısını almağa yönəlib. Müxtəlif ölkələrdə belə hallar ola bilər. Amma ümumiyyətlə, dünyanın heç bir ölkəsində deputatların toxunulmazlıq hüququnun ləğvini doğru saymıram".

Ana Vətən Partiyasının sədri, iqtidaryönlü deputat Fəzail Ağamalı fərqli münasibət sərgilədi: "Qardaş Türkiyədə və digər ölkələrdə baş verənlərin dərhal ölkəmizə təsiri axtarılır. Bu cür yanaşmaların əleyhinəyəm. Hər bir dövlətin spesifik xüsusiyyətləri, yaşadığı şərait, məruz qaldığı çağırışlar, geosiyasi məkanda tutmuş olduğu yer var. Bunların hamısı şərtlərdir. Hər bir ölkədə siyasi proseslərə ciddi təsir edir. Nəticədə parlamentdə müxtəlif yanaşmalar meydana çıxır. Türkiyədə bu cür halın meydana çıxmasının müxtəlif səbəbləri mövcuddur. Bu da onunla bağlıdır ki, parlamentdə təmsil olunan Dəmirtaş adlı yaramaz var. O, Türkiyə əleyhinə olan siyasi oyunların içərisindədir. Rusiyadan hərtərəfli dəstək alaraq, bundan qardaş ölkənin əleyhinə istifadə edir. Digər tərəfdən PKK-nı dəstəkləyir. Eyni zamanda Türkiyənin ərazi bütövlüyünə olan təhdidlərə açıq dəstək verir. Bu şəxsin də toxunulmazlığı var. Bu toxunulmazlıq götürülmədir ki, o şəxs bu cür addımlar atanda ona qarşı qanun çərçivəsində addımlar atılsın. Türkiyədə bu baxımdan deputatların üzərindən bu hüquq götürüldü. Azərbaycanda bu şərait yoxdur. Milli Məclisdə terrorizmə çağırış edən deputat yoxdur. Əgər belə hal olarsa, konstitusiya ilə prokurorluğun deputatın toxunulmazlıq hüququnu ləğv etmək səlahiyyəti var. Haqqında isə cinayət işi açılır. Belə halları dəfələrlə görmüşük. Bu baxımdan düşünürəm ki biz də belə dəyişikliyə ehtiyac yoxdur".

❑ **Cavanşir ABBASLI**

# Növbəti devalvasiya həyəcanı...

## **"Deutsche Bank":** Dolların məzənnəsi sıçrayışın başlanğıc mərhələsindədir; yerli ekspertlər bunun milli valyuta olan manata təsirlərindən danışırlar, dəyər itirmədən qaçmaq mümkündürmü?

**Dolların məzənnəsi sıçrayışın başlanğıc mərhələsindədir. Bu barədə "Deutsche Bank"ın hesabatında bildirilir. George Saravelosun rəhbərlik etdiyi analitik qrup hesab edir ki, ABŞ-ın Federal Ehtiyatlar Sistemi (FES) son iclasından sonra iyunda uçot dərəcəsini qaldıracağına işarə etdikdən sonra ABŞ-ın milli valyutasının məzənnəsini xeyli möhkəmlənib. Bankın Nyu-York ofisinin analitiki Sebastien Galy isə deyir ki, dolların kəskin bahalaşması üçün ciddi potensial var.**



Yerli ekspertlər isə musavat.com-a dollarla bağlı məsələnin Azərbaycanın milli valyutasına təsirlərindən danışıblar. Ekspert Qubad İbadoğlu məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, dollara olan tələbat istənilən halda artacaq: "Çünki Azərbaycanın üç aylıq xarici ticarət göstəricilərinə görə, ölkə 324 milyonluq qeyri-neft ixracatına malik olub. Yəni aya təxminən yüz milyon dollar Azərbaycanın qeyri-neft ixracatıdır. Azərbaycanın neft ixracatından da qazancı Dövlət Neft Fondunun gəlirlərində 4,5 milyard manat göstərilib, bu da 3 milyard dollar edir. Nəzərə alsaq ki, 3 milyard neftdən qazanc var, eyni zamanda, qeyri-neft sektorunun maksimum illik ixracatı 1,5 milyard edəcək. Bu ikisi bir yerdə 4,5 milyard dollar edir. Neft və qeyri-neft sektorunda birlikdə dollarla qazancımız 4,5 milyard dollardır. Amma ölkənin idxalının həcmi əgər biz onun rəsmiyyətə düşən, eyni zamanda qeydiyyata alınmayan və yaxud gömrükdə aşağı qeyd olunan idxalı da qeyd etsək, təxminən 9-20 milyard edir. Bu, o deməkdir ki, bizim ən azı, 9-10 milyard pulumuz olmalıdır ki, ölkəyə idxal mallarını gətirək. Ölkənin qazancı ildə 4,5 milyarddır, iki dəfə azdır. İstənilən halda, bu, dollara tələbatı artıracaq. Çünki ölkəyə idxal malı gətirmək məcburiyyətindəyik. Yerli istehsal bu idxalı əvəz edə bilmir. Belə olan halda hələ kimsə gedir xaricə investisiya qoyur, bunu nəzərə almıram. Hələ bankların xarici borcu var, Dövlət Neft Şirkətinin borcu var, "Azərenerji"nin, digər şirkətlərin dollarla borcu var. Bunları nəzərə alsaq, qazandığımız valyuta bizə lazım olandan üç dəfə az olacaq. O deməkdir ki, valyutaya olan tələbatımız ödənilməyəcək, ən yaxşı halda, üçdə biri ödəniləcək. Belə olan halda, dolların bahalaşmasının alternativi yoxdur. Dolların bahalaşmasının qarşısını ortamüddətli, uzunmüddətli dövrdə biz ala bilməyəcəyik. Ona görə də bahalaşmanın qarşısını qısamüddətli dövrdə almaq mümkündür. Məsələn, manat qıtlığı yaradılıb. Azərbaycan manatı dəyərsizləşməyə məhkumdur. Sadəcə zamana bağlı olan məsələdir. Ölkədə iqtisadi tənəzzül yaradılır, işgüzar aktivlik, alıcılıq qabiliyyəti aşağı salınır. Bu, çıxış yolu deyil. Çıxış yolu ölkənin milli valyutasının gerçək məzənnəsinin müəyyənləşdirilməsindədir. Gerçək məzənnəni də bazar müəyyənləşdirə bilər, bunu Mərkəzi Bank müəyyənləşdirməli deyil".

Ekspert Fikrət Yusifov isə qeyd edib ki, dolların məzənnəsində müəyyən dəyişiklik olması mümkün ola bilər: "Çünki iyun ayının 15-də Federal Ehtiyatlar Sistemi uçot dərəcəsini dəyişdirməyi hədəfləyir. Əsas göründülər ondan ibarətdir ki, Amerika iqtisadiyyatında lazım olan irəliləyiş, artım baş verərsə, işsizlik sahəsindəki problemlər gözlənilən həddə qədər həll oluna bilərsə, inflyasiya səviyyəsi nəzərdə tutulan hədlərə qədər yaxınlaşarsa, bu göstəricilər nəzərdə tutulan proqnozlar özlərini doğruldursa, iyunda ola bilsin ki, uçot dərəcəsi dəyişdirilsin. Bu baş verərsə, dünya maliyyə bazarlarında dolların kursunda müəyyən müsbət tendensiyaların baş verməsi mümkündür. O ki qaldı, bunun Azərbaycan manatına təsiri, biz dünya maliyyə sisteminin tərkib hissəsiyik. Buna görə müəyyən qədər təsiri olacaq. Bütövlükdə keçən ilin əvvəlində və sonlarında manatla bağlı yaranmış vəziyyətin, baş vermiş hadisələrin təkrar olunması qeyri-realdır. Çünki bu gün faktiki olaraq bu məsələlərin hamısı idarə olunur və nəzarət altındadır. Kəskin devalvasiyanın təkrar baş verəcəyi qeyri-real görsənir. Həm də son aylar neftin dünya bazarında qiyməti 75 faiz civarında yüksəlib. Bu tendensiya davam edir. Bu da göstərir ki, manatın məzənnəsində hər hansı bir ciddi dəyişikliyin olması gözlənilən deyil. İlin sonuna qədər manatın dəyərsizləşməsi gözlənilmir".

Qeyd edək ki, iki həftə əvvəl Mərkəzi Bankın rəhbəri Elman Rüstəmov mətbuata açıqlamasında bildirib ki, ilin sonuna qədər manatın məzənnəsində dəyişiklik gözlənilmir: "İqtisadi vəziyyət bunu deməyə əsas verir. Manatın məzənnəsi neft qiymətləri ilə deyil, Azərbaycan Dövlət Neft Fondunun gəlirləri ilə bağlıdır".

Ekspertlər isə bildirirlər ki, Mərkəzi Bank rəhbərliyi inzibati metodlardan istifadə etməklə bu günə qədər manatın kursunu sabit saxladıqları kimi, bundan sonra da eyni qaydada davam edə bilər. Yəni milli valyutanın dəyərdən salınmasının bir səbəbi də hökumətin büdcə qarşısında öhdəlikləri icra edə bilməməsi olub. Bildirilir ki, manatın kursu hazırkı siyasət davam etməklə süni şəkildə bir müddət saxlanıla bilər. Amma bu, o deməkdir ki, ölkədəki iqtisadi fəaliyyət kəskin şəkildə passivləşəcək. Onsuz da milli valyutanın bu cür dəyərdə saxlanılması iqtisadi fəallığa ciddi zərbə vurur. Ekspertlər vurğulayırlar ki, manatın məzənnəsinin bu cür saxlanılması çox çətin olacaq. Bu, sürətlə iş yerlərinin itirilməsi, əhalinin gəlirlərdən məhrum edilməsi deməkdir.

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 111 (6432) 23 may 2016



# "Bir məmurdan mövqe istədim, daş atdı, başını tutdu"

## Zəlimxan Məmmədli: "Diş həkimi kimi zehniyyətimizi, sağlığımızı, təhsilimizi, iqtisadiyyatımızı zəhərləyən irinli dişi "uf" demədən çəkib atardım"

**"Baxış bucağı"**

**Son günlər ermənilərin Gürcüstanda xeyli fəallaşması müşahidə olunur. Cavaxetiya bölgəsində kompakt yaşayan erməni əhali növbəti dəfə erməni lobbisinin dəstəyi ilə hərəkətə keçib və artıq onların "səsi" okeanın o tayından gəlməkdədir. Erməni lobbisi Gürcüstan ermənilərinin hüquqlarının qorunması barədə artıq ABŞ hökumətindən xahişlər etməkdədir.**

Əslində "erməni kartı" Gürcüstan üçün hər zaman təhdid vasitəsi olub və bu kartın ABŞ-Gürcüstan hərbi əməkdaşlığı, Cənubi Qafqazda ciddi gəlişmələrin baş verdiyi dönəmdə yenidən masaya qoyulması suallar yaradır. 300 mindən artıq soydaşımızın da yaşadığı qonşu ölkədə baş verənlər, həmçinin digər aktual məsələlərlə əlaqədar "Borçalı" Cəmiyyətinin sədri Zəlimxan Məmmədli ilə söhbətləşdik.

***- Zəlimxan bəy, yaxın qonşu ölkədəki vəziyyəti izləyirsiniz, Cavaxetiya ermənilərinin hərəkətə keçməsinin səbəbləri nədir?***

- Heç kimə sirr deyil ki, ermənilər vassaldır və bölgənin, konkret halda Azərbaycanla Gürcüstanın inkişafında buxovdur. Erməni Rusiya təxribat maşınının əl alətidir. Bu vaxtadək erməni nə edibsə, Kremlin əli ilə edib. Onların zaman-zaman Gürcüstanda fəallaşması da Kremldə basılan düymə ilə bağlıdır. Azərbaycan və Gürcüstan Rusiyanın təsir dairəsindən çıxmağa çalışdıqca ermənilər Kreml tərəfindən üstümüzə qısqırdılacaq.

***- Erməni təxribatı bu günlərdə keçirilən NATO-Gürcüstan hərbi təlimləri ilə bağlıdır, yoxsa ayrı səbəbi var?***

- Ermənilər özbaşına deyillər, başları qoltuqdadır. Gürcüstanın NATO-ya inteqrasiyası Rusiya milli maraqlarına uyğun bilmir. Gürcüstana basqılar, bu məqsədlə ermənidən alət kimi istifadə də bununla bağlıdır. Gürcüstan bu yolda Abxaziya və Cənubi Osetiya ilə "cəzalandırılıb". Əgər Tiflis NATO yolunda israrlı olacaqsa, erməni separatizmi ehtiyat variant olaraq saxlanacaq. Ermənilərin bu istiqamətdə təşkilatlanmalarının arxasında duran qüvvənin Rusiya olması bir həqiqətdir.

***- Bu vəziyyətdə Gürcüstanın azərbaycanlı əhalisinə təhlükə varmı? İddialar səslənir ki, Ermənistan "Qırmızı Körpü"nü ələ keçirmək üçün də fürsət gözləyir...***

- Çox təəssüf ki, erməni rus barmağı ilə təşkilatlandığı halda bəzilərinin yarıtmaz, eqoist düşüncəsi ucbatından bizlər xeyli arxadayıq. Kremlin Borçalı ilə bu cür davranma imkanları məhduddur. Amma təxribatlar, Borçalı türklərini bu destruktiv oyuna salma cəhdləri ola bilər. Borçalılar hələ ötən əsrin 80-ci illərində Kremlin hazırladığı və böyük paraların xərcləndiyi planları puç edə biliblər. Azərbaycan, Gürcüstan və Türkiyə arasında strateji, o cümlədən regional təhlükəsizlik məsələləri ilə bağlı ciddi əməkdaşlığın olması da erməni təxribatı ehtimalını minimuma endirir - baxmayaraq ki, Gürcüstanda bu gərginliyi arzulayan "milli kadrlar" yox deyil.

***- Hazırda sizin də ata yurduna girişiniz yasaqdır. Qadağanın ləğvi üçün çoxsaylı müraciətlər etmisiniz. Bir yenilik varmı?***

- Hesab edirəm ki, süni yaradılmış bu problemin arxasında erməni-rus barmağının ehtimalı çoxdur. Gürcüstanın güvənlik və siyasi strukturlarında qiyafəsi gürcü, mahiyyəti erməni olanlar heç də az deyil. Əksər müraciətlərimiz hələlik cavabsız qalıb. Problemin mahiyyəti siyasi xarakterli olsa da, hüquq müstəvisində pozulmuş hüququmun bərpası prosesinə start vermişik. Tbilisidə tanınmış gürcü vəkil hüququmun təmin olunması üzrə vəkalətlidir. Lazımı sənədləri təqdim etmişik. Çox güman ki, proses beynəlxalq müstəviyə daşınacaq. AŞPA-ya müraciətimiz hazırdır. Millət vəkili Qənirə Paşayeva da bu işdə fəaldır. Təəssüf ki, Azərbaycan tərəf vətəndaş hüququmun təminində gücsüz görünməkdədir.

***- Yeri gəlmişkən, QAT sədri Akif Nağının və müavininin də qonşu ölkəyə yolu qapanıb. Heç maraqlanmısınızmı ki, Gürcüstan hökuməti Ermənistandan Cavaxetiyada işləyən hansısa Ermənistan vətəndaşının ölkəyə girişini yasaq etsin?***

- Əksinə, Gürcüstanın indiki hakimiyyəti tərəfindən sırf separatçı mövqeyi ilə mühakimə olunan, giriş yasağı tətbiq olunmuş Çaxalyan və Ohanyan üzərindən giriş qadağası, eyni zamanda həbs qərarı ləğv edilib. Çaxalyan və Ohanyan Saakaşvili dönəmində mühakimə olunmuşdular. Kimin tərəfindən olmasından asılı olmayaraq, dövlətçiliyi təhdid edən ixtiyarı biri üçün sərt qərarların qəbulunu təqdir edirəm. Mən və rəhbərlik etdiyim təşkilat isə mütləq anlamda dostluq, qardaşlıq carçısıdır. Bizi ən çox narahat edən də Gürcüstanın indiki hakimiyyətinin anormal düşüncəsidir.

***- Gürcüstan parlamentində təmsil olunan azərbaycanlı deputatlar və yerli hakimiyyət orqanlarında təmsil olunan soydaşlarımızdan bu mənada hansı gözləntiləriniz var?***

- Onlardan elə bir gözləntim yoxdur. Səbəbi hamımıza aydındır. Bir məmurdan baş verənlərə, mənim və "Borçalı" Cəmiyyəti haqqında ən azından sosial şəbəkədə bir mövqe ifadə etməsini istədim, daş atdı, başını tutdu. Lakin ucuzlaşmaq bizlik deyil. Deputat Mahir Dərziyevdın isə umacağım qüvvədədir. Axı o, indiki 41-in millət vəkilidi, özü də fəaliyyətimiz haqqında kifayət qədər bilgili olan eloğlumuzdur. Yeri gəlmişkən, 41 İvanişvilinin "Gürcü Arzusu"nun nömrəsidir.

***- Hər halda Gürcüstanda ictimai rəyə reaksiya var. Niyə yerli azəraycanlılar sizi müdafiə tədbirləri keçirmir?***

- Yerli qurumlar elliklə Gürcüstan rəhbərliyinə müraciət ediblər. Ayrı-ayrı yerlərdə bir neçə min nəfər soydaşımız da müvafiq qurumlara kollektiv müraciətlər ünvanlayıb. Ancaq hələ ki, xeyli ümidverici vədlər verilsə də, konkret nəticə yoxdur. Bəzi gürcü qurumları isə bu və ya digər formada çevrəmizdəki həlqəni daraltmağa cəhdlər etməkdədirlər. Mən



**"Bir çox məsələlərin həlli Azərbaycan-Gürcüstan-Türkiyə hərbi ittifaqının yaranmasına bağlıdır"**

ümumiyyətlə, Gürcüstanın indiki hakimiyyətinə çox təşəkkür edirəm. İlk öncə varlığımıza həssas yanaşdıqları üçün və kimin-kim olmasına yardımçı olduqları üçün. Onlar mənə çox şey öyrətdilər. Bu mərhələdən məmnunuq və yolumuzu gedirik. İnanıram ki, gürcü xalqı ən yaxın zamanda bizi gül-çiçəklə qarşılayacaq.

***- Sizcə, Azərbaycan XİN-in çalışmaları nədən nəticə vermədi?***

- Azərbaycan zəifdir. Hərdən zarafatla dostlara deyirəm ki, ən çox xarici işlər nazirləri kontaktda olsa da, görünür Elmar müəllim Məmmədyarov dilimizi yaxşı bilmədiyi üçün gürcü həmkarını başa sala bilmir. Hər halda milli məsələlərdə dişsiz olmağımız bu məsələdə də öz təsdiqini tapmaqdadır. Bu problemi həll etmək iqtidarında olmayan iqtidar yazıq görkəmdə görünür və güclü adlandırıla bilməz. Cəhdləri isə sanki gözdən pərdə asmağa bənzəyir. Gürcüstan tərəfdən daha çox bizimkiləri günahlandırma cəhdləri mövcuddur. Hərçənd bu versiyanı rədd edirəm.

***- Bu problemlər ənənəvi Elat tədbirlərinin keçirilməsini əngəlləyə bilərmi?***

- Qətiyyən. Hər könüldə bir Elat tonqalı yanmaqdadır. Onu söndürməyə cəhd edən alışıb yana bilər. Onun istisinə qızınanlar udacaq və var olacaqlar. Müqəddəsləşmiş Elat bayramının mahiyyətini dəyişmək cəhdləri olsa da, gürcü mədəniyyətinin milli mədəniyyətimizə elliklə qucaq açacağına inanıram.

***- Zəlimxan bəy, Azərbaycandakı müxalif siyasi qüvvələrin davranışları cəmiyyətin siyasətlə maraqlanan hissəsində məyusluğu artırmaqda davam edir. Bu qüvvələr həta Məhəmməd Əmin Rəsulzadənin abidəsini ziyarətə də ayrı-ayrılıqda gedir...***

- Bu, siyasi sistemimizin formalaşmağa qoyulmaması və patoloji quruluşu ilə bağlıdır. Mövcud iqtidar bu sonluqdan məmnun olmaqdansa ağlamalıdır. Nifaqların kökündə də bu patoloji yanaşma durur.

***- Elə isə bu patologiyanın müalicə varmı? Diş həkimi bu patologiyanı necə aradan qaldırardı?***

- Əlbəttə, müalicəsi var. Bu da genetik quruluşumuzdadır. Bu gün siyasət adlı meydanda formalaşmış çox zəngin milli baza var. Bu baza milli gücə çevriləcək. Ölkəmizdə, regionda və dünyada daralan həlqə bunu diktə edir. Diş həkimi kimi zehniyyətimizi, sağlığımızı, təhsilimizi, iqtisadiyyatımızı zəhərləyən irinli dişi "uf" demədən çəkib zibil qutusuna atardım - baxmayaraq ki, müalicəyə meyilli həkiməm.

***- Qəzvində azərbaycanlı qadın - milli fəal Süheyla Kargərin həbsi yenidən diqqəti Güney Azərbaycandakı proseslərə, İrandakı azərbaycanlı topluma yönəltdi. Necə etmək olar ki, bu həssas zamanda Azərbaycan-İran münasibətləri zədələnmədən qonşu ölkədəki azərbaycanlıların haqları qorunsun? Anlaşma mümkündürmü? Yeri gəlmişkən, qarşıdan Dünya Azərbaycanlılarının qurultayı gəlir...***

- İran teokratik, antitürk ovqatlı şovinist dövlətdir. Qanunun ali olduğu dövlət olsaydı, ardıcıl islahatlar kimin kim olma məsələsinə bəlkə də aydınlıq gətirərdi. Təəssüf ki, rejim istismar mexanizmidir. Türk ruhunu öldürmək, türk dünyasına qarşı düşmənçilik ideoloji olaraq özünə yer eləyib. İran adlı coğrafiya yenidən qurulmalıdır. Güney Azərbaycan milli hərəkatı ayaq üstədir. Strateji olaraq istiqlal qaçılmaz görünür. Mübarizəyə hazır olmasaq və mübarizə aparmasaq, iflas qaçılmazdır. Tək silahımız ardıcıl mübarizədir.

***- Ancaq belə yanaşma da var ki, bizim bu məsələyə sərt yanaşma ortaya qoymağımız İranı Ermənistana daha çox yaxınlaşmağa vadar edir. Son vaxtlar Bakı-Tehran əlaqələri sanki fərqli müstəvidədir. Dəmir yolu birləşdirilir, birgə layihələr gözlənilir. Bu mərhələ güneylilərin həyatına təsir edə bilərmi?***

- Subyektiv yanaşmadır. İran və Rusiya 200 ildir bizi istismar etməkdə ortaqdır. İran və Rusiya demokratikləşsə, islahatlara ümid etmək olar. Rejimlər isə demokratiya ilə düşməndirlər. Bu belədirsə, biz öz yolumuzu getməliyik. Kommunikasiya imkanlarından daha üstün qatda biz geni, qanı bir olan eyni millətik. Sayımız isə bu bölgədə birincidir.

***- Necə bilirsiniz, hazırkı durumda Azərbaycanın qarşısında duran ən birinci məsələ nədir?***

- Açar məsələ Türkiyənin bu durumdan güclü çıxması və Azərbaycan, Gürcüstan və Türkiyə arasında hərbi ittifaqın yaranmasıdır. Çox məsələlərimizin kökü buradadır.

❑ **Elşad PAŞASOY**
**FOTO: "YM"**

YENİ MÜSAVAT
N 111 (6432) 23 may 2016



# Tikanlıqda oxuyanlar

Zamin HACI
zaminhaci@gmail.com

**ABŞ-ın Şimali Dakota Universitetində riyaziyyat professoru işləyən həmyerlimiz Azər Əhmədov həm də yaxşı şairdir. Vaxtaşırı şeirlərini "Alatoran" dərgisində oxumuşuq. Bu günlərdə isə Azər bəy Kanadanın Vinnipeq şəhərində açılmış İnsan Haqları Muzeyindən maraqlı paylaşım elədi. Sən demə orada bizim Mirzə Fətəli Axundova aid bir eksponat da var. Bu, Axundovun portretidir. Kanadalılar yazıblar ki, bu kişi Şərqdə insan hüquqları, azadlıqlar uğrunda mübarizə aparmışdır. Fəxr elədik.**

Daha sonra "Azadlıq" radiosu Azər bəyin öz müəllimləri, ümumiyyətlə ötən əsrdə yaşamış azərbaycanlı müəllimlər haqda bir yazısını dərc elədi. Babası, atası müəllim olmuş bir adam kimi bu yazını çox maraqla oxudum. Ancaq indiki dövrümüzdə Əhmədovun yazısına kimisə inandırmaq çox çətindir. Oxuduqca elə bil fantastik hekayə oxuyurdum. Misal üçün, yazıda Əhmədov Bakıda 1980-ci illərdə keçirilən riyaziyyat olimpiadasından danışır. Başqa məktəbin müəllimi burda yaxşı nəticə göstərən Əhmədovla maraqlanır! Gəlir onun məktəbinə, suallar verir, dostlaşır. Sonralar isə Əhmədov xaricdə oxumaq imkanı qazananda müəllim öz maaşından yığdığı puldan gətirib verir, deyir kömək olsun! İnandırıcı deyil, eləmi? İndiki reallıqlarımız xaricindədir axı. Biz müəllimlərin rüşvət almasına, savadsızlığına, yaltaqlığına artıq müəyyən qədər öyrəşmişik. Pis adama, lağla "məllim" deyən heyvərə nəsil yetişib.

Ancaq Azərbaycan tarixində öz kasıb tələbələrini evinə aparıb yedizdirən Üzeyir Hacıbəyli kimi müəllimlər də olub. Bilirəm ki, indi də beləleri var, sadəcə çox azalıblar, yapistlərin təhsil "ishalatları" bu cür davam eləsə, Azərbaycan məktəbi gündəmə tualet açılışı, müəllimin şagirdi zorlaması tipli xəbərlərlə gələcəksə tamam kökü kəsiləcəkdir. Bu yaxında bir orta məktəb şagirdi ilə danışırdım. Sən demə onlara AYB üzvlərindən Elçin Hüseynbəylini tədris edirlər. Mirzə Cəlili proqramdan silib AYB üzvünü tədris eləyən "məktəbə" nə deyəsən? Uşaq dedi ki, ədəbiyyat müəllimi hansı kitabları oxuduqlarını soruşub, bu da Artur Konan Doyl-un da adını çəkib. Müəllim Doyl-u tanımayıb!

Bunu araşdırmaq sosioloqların işidir, ancaq Əhmədovun yazısında bir detal diqqətimi çəkdi: onun təriflədiyi müəllimlərin hamısı kişilər idilər! Demək istəmirəm təhsilimizin problemləri məktəbin "qadınlaşması" üzündəndir (hələ Misir Mərdanovun vaxtında qadınların müəllim sayında nisbətinin 80 faizə çatdığı deyilmişdi). Dünyada necədir, bu haqda da rəqəmlərim yoxdur. Hər halda, könül istərdi kişi-qadın müəllimlərin nisbəti təxminən yarı-yarıya olsun. Ancaq indiki dilənçi payı müəllim maaşına neçə kişi ailə başçısı bu yükün altına girəcək?

Sosial şəbəkədə bir bağça uşağının haqqında yazmışdılar. Uşaq hər gün evlərinin qabağından qızılgül dərib tərbiyəçi-müəlliməsinə aparırmış. Bir gün bağçaya az qalmış uşaq gülü anasına qaytarıb, deyib, ana, lazım deyil, qoy səndə qalsın. Ana təəccüblənib, təkidlə səbəbini öyrənib: sən demə bu "müəllimə" gülü alıb elə uşağın gözü qabağında zibil qabına atırmış! Uşağın pak sevgisinə bu cür murdar qarşılıq verən "tərbiyəçi"nin tərbiyəsi şübhə altındadır. Beləsinə necə uşaq etibar edəsən? Ancaq uşağı hara qoyasan? Azərbaycan xalqı bu sahədə də özü öz yolunu kəsibdir. Burda da öz taleyini quldur-muldura etibar edibdir.

Yeri gəlmişkən, bir ara bağçalar Bakı İcra Hakimiyyətinə tabe idi. Hacıbala əkəyə. Guya "Gül bayramı" təşkil edən tipə. Abutalıbovu yada salanda, tərbiyəçiyə şükür edirsən. Deməli onun gül siyasətinin toxumları bu cür bitibdir.

Bakı məktəblərinin birində həyətə ağac əkiblər, həmin ağacı uşaqlardan qorumaq üçünsə... akasiya tikanlarına bürüyüblər. Hərəsi barmaq boyda, şagirdlərə xəsarət törədəcək boyda tikanlardır. Ancaq yerinə düşən simvoldur.

# Moskvadan İrəvana qarşı silah şantajı

**Ötən həftənin siyasi olaylarından biri də Rusiya baş naziri Dmitri Medvedyevin İrəvana gəlişi oldu. Səfər Avrasiya Birliyinə üzv ölkələrin baş nazirlərinin görüşü çərçivəsində reallaşsa da, Ermənistan rəsmiləri Medvedyevin səfəri ilə bağlı gözləntilərini gizlətmirdilər. Söhbət Rusiyanın hələ ötən il İrəvana vəd elədiyi 200 milyon dollarlıq güzəştli krediti və bu kredit çərçivəsində işğalçıya yeni silah partiyasının verilməsinin ləngiməsindən gedir.**




## Rusiya Ermənistanı Bakı ilə qorxudur - Kremlin forpostuna təzə təzyiq "kart"ı

### İşğalçı ölkəyə veriləcək 200 milyon dollarlıq kredit müəmmasının pərdəarxası; Ermənistan əsas müttəfiqinin qəzəbinə gəlib?; Medvedyevin son İrəvan səfərinin də təcavüzkarın gözləntilərini doğrultmadığı iddia olunur...

Maraqlıdır ki, kreditlə bağlı anlaşma sənədi Ermənistan parlamentində dərhal ratifikasiya olunsa da, Rusiya tərəfi buna tələsmir. İrəvan isə aprel hərbi uğursuzluğundan sonra bəlli səbəbdən bərk narahatdır və tələsir. Lakin Ermənistanın baş naziri Ovik Abramyanın və müdafiə naziri Seyran Ohanyanın az öncə Moskvaya etdikləri səfərlərə, verdikləri nikbin bəyanatlara rəğmən, məsələdə köklü irəliləyiş yoxdur.

Erməni mənbələri bildirir ki, prezident Serj Sərkisyanın Medvedyevlə İrəvan görüşü zamanı əsas müzakirə mövzularından biri bu olub. Ermənistanın narahatlığı bir daha müttəfiq dövlətin diqqətinə çatdırılıb, müqavilə bir ildir bağlansa da, onun indiyədək reallaşmamasından yana məyusluq ifadə edilib.

Doğrudur, görüşdən bir gün sonra baş nazir Abramyan bir növ ictimaiyyəti sakitləşdirmək üçün bəyan edib ki, guya silahların verilməsinə artıq başlanıb. Lakin onun sözlərini, yaxud Sərkisyan-Medvedyev görüşünün müsbət nəticə verdiyini nə yerli müstəqil qaynaqlar, nə də ən önəmlisi, Rusiya mənbələri hələlik təsdiqləmir.

***

Tanınmış erməni analitiklərindən biri isə yaranmış vəziyyəti "Kremlin İrəvana qarşı silah şantajı" adlandırıb və hətta bu xüsusda Bakının Rusiyaya 200 dollarlıq kreditlə bağlı vaxtilə verdiyi etiraz notasını yada salaraq, həmin notanın da artıq effekt verdiyini bildirib.

Təcavüzkar ölkənin vəziyyətini qəlizləşdirən həmçinin, odur ki, onun hərbi parkı Azərbaycandan fərqli olaraq bütünlüklə sovet-rus silahlarından təşkil olunub. Bu silah-sursatın ehtiyat hissələri isə Rusiyadadır. Üstəlik, Rusiya Ermənistana başqa ölkələrdən silah almağa izn vermir. Acından ölən Ermənistanın heç belə imkanı da yoxdur.

Ən absurdu da belə acınacaqlı durumda olan forpost bir ölkənin - Ermənistanın öz yeganə xilaskarı və havadarı Rusiyaya diş qıcamasıdır. Aprel döyüşlərindən sonra özünü göstərən bu nankorluğu təbii ki, Kreml rəhbərliyi görürdü və mütləq ciddiyə alacaqdı...

***

Medvedyevin səfəröncəsi isə Rusiyanın Ermənistana vassal münasibətini göstərən daha bir olay baş verib. Belə ki, iki ölkənin parlament komissiyalarının müdafiə və təhlükəsizlik üzrə İrəvanda keçirilən iclasından sonra Qarabağla bağlı qalmaqal yaşanıb.

Məlumatlara görə, aprelin 15-də keçirilən iclasdan sonra birgə bəyanat verilməsi barədə razılıq əldə olunub. Ermənistan nümayəndələri yenə təxribata əl ataraq öz xeyirlərinə olan bəyanat hazırlayıblar. Ruslara təqdim edilən bəyanatın mətninə Azərbaycanın aprelin əvvəlində Ermənistan ordusunun təxribatına qarşı həyata keçirdiyi əməliyyatların pislənməsi ilə bağlı bənd də salınıb.

Lakin "Aykakan jamanak" qəzetinin yazdığına görə, Rusiya nümayəndə heyəti bəyanatı qəbul etməkdən imtina edib və vaxt istəyib. Amma iclasdan 1 aydan çox vaxt keçməsinə baxmayaraq Rusiya nümayəndələri Ermənistan tərəfinə heç bir məlumat verməyiblər. Qəzetin yazdığına görə, komissiya sədri Koryun Naapetyan rusiyalı həmkarına bəyanatın qəbul edilməsi ilə bağlı məktub da göndərib. Ancaq məktub indiyədək cavabsızdır...

***

Əlbəttə, Rusiya istəsə, ondan ötrü elə böyük məbləğ olmayan 200 milyon krediti özünün ağır iqtisadi durumuna rəğmən, tapa bilər. Amma tələsmir. Ehtimal ki, bununla ilk növbədə Ermənistanın təkcə iqtisadi deyil, hərbi sahədə də ondan nə dərəcədə asılı olduğunu İrəvana və erməni ictimai toplumuna anlatmaq istəyir. Eyni zamanda son vaxtlar Moskvaya qarşı qəzəb püskürən erməni toplumuna yerini göstərir.

İkincisi, istisna deyil ki, Moskva bu yolla həm də Azərbaycanla silah ticarətindən narazı olan erməni ictimai rəyində bəraət qazanmağa çalışır. "Yəni kimin imkanı-pulu var, silahı da o alır, Moskvadan inciməyə dəyməz" məntiqi.

Üçüncüsü, Rusiya yaxşı bilir ki, maliyyə imkanı zəif olan Ermənistana Rusiyadan başqa heç kim ucuz və kreditə silah verməz. İşğalçı ölkənin hansısa digər dövlətdən müasir silahlar almaq imkanı isə şifrin yanındadır. Başqa sözlə, ermənilərin Rusiyadan incikliyi, ona qarşı aqressivliyi enində-sonunda elə özlərinə qalacaq.

Nəhayət, silah şantajının dördüncü mühüm məqamı kimi, Rusiyanın Qarabağ və Güney Qafqazla bağlı planlarında (sülhməramlılar məsələsi, Cənubi Qafqaz ölkələrinin Qərbə yaxınlaşmasını önləmək və s.) İrəvanı daha üzüyola və sözə baxımlı eləmək istəyini qeyd eləmək mümkündür.

***

Qarabağ danışıqlarının donunun açıldığı və prezidentlərin gələn ay planlaşdırılan görüşü ərəfəsində Moskvanın Ermənistan sarıdan arxayınçılığı indi xüsusi əhəmiyyət kəsb edir. Çünki bəzi ehtimallara görə, Qarabağ məsələsində artıq ABŞ-Rusiya rəqabəti başlayıb. Vyana görüşünü də məhz Amerikanın təşkil elədiyi sirr deyil.

Bu mövzuda danışan rusiyalı tanınmış siyasi ekspert Qriqori Trofimçuk hesab edir ki, hazırda status-kvonu saxlamaq mümkün deyil: "Situasiyadan görünür ki, əgər yaxın zamanda Rusiya, Azərbaycan və Ermənistan lazım olan qərarı verməsələr, Qərb problemin həlli ilə bağlı öz mexanizmini işə sala bilər. Məsələn, regionda Azərbaycan, Gürcüstan və Türkiyənin birgə fəaliyyəti aktivləşdiriləcək və sair".

Yeri gəlmişkən, üç ölkə müdafiə nazirlərinin mayın ortasında Qəbələdə keçirilən görüşündə Azərbaycan, Türkiyə və Gürcüstan arasında birgə təlimlərin keçiriləcəyi bəyan edilib. Belə bir həssas durumda Ermənistanın Rusiyaya münasibətdə yersiz və narazı ovqat yox, sədaqət göstərməsinə Moskvanın daha çox ehtiyacı duyması məntiqlidir. Güclüyə sədaqət isə gücsüzə xas keyfiyyətdir ki, bunu da elə Kreml vaxtaşırı İrəvana xatırlatmaqla ona hər hansı başqa çıxış yolunun qalmadığına, Qərbə boylanmalarının lüzumsuz olduğuna işarə vurmaqdadır.

Sonda əlavə edək ki, Moskvanın İrəvana qarşı iddia edilən silah şantajı əsla Azərbaycana yaxşılıq eləmək və ya Bakının mövqeyini gücləndirmək məramından irəli gəlmir, ümumən bölgədə daha da möhkəmlənmək planından qaynaqlanır. Görünür, bundan ötrü Rusiyaya təcavüzkarı ara-sıra həm də Bakı il qorxutmaq lazım gəlir.

Bütün hallarda Kreml, əlbəttə ki, regionda Ermənistanın 1 nömrəli sadiq müttəfiqi olaraq qalır və İrəvan özünü "yaxşı aparanadək", ələlxüsus da Qərblə separat sövdələşməyə gedənədək çətin ki, ona pislik eləsin, Ermənistanın silahlanma məsələsində Azərbaycandan güclü şəkildə geri qalmasını arzulasın.

Onu da unutmayaq ki, Ermənistan adlı qondarma dövlət yalnız Rusiyanın sayəsində mövcuddur. Sadəcə olaraq, Moskva fərqindədir ki, Azərbaycanı da öz yanında saxlamalıdır. Bundan ötrü isə silah ticarəti asılılıq yaratmaq üçün Moskvanın əlində yeganə sınanmış vasitədir - vassal Ermənistan bundan narazı qalsa da.

❑ Analitik xidmət

# İşğaldan hansı yolla qurtulacağıq - hərb, yoxsa sülhlə?

**Aprelin əvvəlindəki 4 günlük savaşdan sonra keçən müddətdə bütün beynəlxalq ekspertlər, siyasətçilər, vasitəçilər Qarabağ məsələsinin hərb yolunun mümkün olmadığını bəyan etdilər. Bu tipli açıqlamalar bir çox dövlətlərin rəsmi şəxslərinin və siyasi ekspertlərinin dilindən indi də səslənməkdədir. Azərbaycanda isə belə bir mövqe hakimdir ki, əksinə, məhz savaşla Qarabağ problemi çözülə bilər.**



Bəs kim haqlıdır, beynəlxalq ekspertlər, siyasətçilər, yoxsa? Ümumiyyətlə, nə vaxtsa problemin dinc həlli üçün şərait yetişə bilərmi?

Politoloq Hikmət Hacızadə hesab edir ki, Qarabağ probleminin hərbi yolla həllinin mümkün olmadığını deyənlər öz maraqlarını güdürlər və cığallıq edirlər: "Onların bəziləri yanılırlar, bir çoxlarının isə öz maraqları var. Qərb ekspertlərini götürsək, onların marağı Azərbaycan neft sektoruna və cürbəcür kəmərlərə qoyduqları vəsaitlərdir. Onlar istəmirlər ki, müharibə başlasın və neft borularının partlaması riski yaransın. Yəni onlar öz investisiyalarının qorunması ilə məşğuldurlar. Digər tərəfdən, dünyada ümumən müharibəyə qarşı yeni ovqat yaranıb ki, insan tələfatı olmasın. Lakin sülhün olmasını istəyənlər zəhmət çəkib Ermənistana təsir etməlidirlər ki, işğal etdiyi torpaqlardan geri çəkilsin. İndiki vəziyyət sonsuza qədər davam edə bilməz. Hər kəs bilməlidir ki, Qarabağ probleminin hərbi həlli var. Aprelin əvvəlində 4 günlük hərbi əməliyyatlar ortaya çıxardı ki, bəli, hərbi yolla həll mümkündür. Əgər Rusiya Ermənistanın arxasında dayanmasa Azərbaycan bu məsələni çoxdan həll eləmişdi. İndi lazımdır ki, hansısa yollarla Rusiyanın neytral qalmağına nail olaq. 4 günlük savaş göstərdi ki, Ermənistan bizim qabağımızda heç nədir. Rusiya onun arxasından çəkilsə, biz onu qısa müddətdə məhv edəcəyik. Ona görə də Rusiyanın maraqlarını hansısa yolla ödəmək və Qarabağ problemini hərbi yolla qısa vaxtda həll etmək lazımdır".



**Hikmət Hacızadə:** "Rusiya Ermənistanın arxasından çəkilsə, qısa müddətdə onu məhv edərik, odur ki, hərb yolu var"



**Bəxtiyar Hacıyev:** "Belə ağır münaqişənin 2-3 illik danışıqlarla həllini gözləmək sadəlövhlük olardı"

Gənc siyasi fəal Bəxtiyar Hacıyev isə bildirdi ki, əslində, hərbi yolla Azərbaycanın işğal edilmiş ərazilərinin separatçılardan təmizlənməsi ən son və ən ağır yoldur: "4 günlük savaşda verdiyimiz şəhidlərin sayı da bunu göstərdi ki, hərb yolu həm erməni tərəfinə, həm də Azərbaycan tərəfinə kifayət qədər ağır, çətin başa gələcək. Ancaq eyni zamanda münaqişənin həllinə vasitəçilik edən beynəlxalq qüvvələr də anlamalıdırlar ki, bir ölkənin təxminən 5-də birinin 20 ildən çox işğal altında saxlanması, orada müstəqil dövlət qurmağa çalışmaq, digər separatçı təxribatlar da dözülməzdir. Belə ağır münaqişənin 2-3 il danışıqlarla həll edilməsini gözləmək sadəlövhlük olardı, ancaq 22 il də kifayət qədər böyük zaman idi ki, həmin o beynəlxalq qüvvələr ortaya iradə qoysaydılar, münaqişəni sülh yolu ilə həll etmək olardı və hərbi yola ehtiyac qalmazdı. Ancaq görünür ki, vasitəçi tərəflərdən ən az biri münaqişənin həll olunmasından daha çox, münaqişənin uzanması, qızışması və davam etməsində daha çox maraqlıdır".

❑ **Etìbar SEYİDAĞA**

# "Sərkisyanın kadr islahatları işğalçı ordunun güclənməsinə gətirməyəcək"

## Qabil Hüseynli: "İanə ilə nə ordu qurmaq olar, nə də qarşıya qoyulan məqsədlərə çatmaq..."

**Aprel ayında Qarabağda baş verən 4 günlük müharibə Ermənistanın ordusu ilə bərabər, iqtidarını da möhkəm silkələyib. Bunun nəticəsi olaraq prezident Serj Sərkisyan orduda artıq ikinci kadr dəyişikliyi ilə bağlı fərman imzalayıb.**

Fərmana görə, Baş Qərargah rəisinin müavini Movses Akopyan işdən çıxarılıb və o, müdafiə nazirinin müavini təyin edilib. Movses Akopyan eyni zamanda nazirliyin maddi-texniki təminat departamentinin rəhbəri vəzifəsini də yerinə yetirəcək. Aprelin 26-da isə Sərkisyan silahlı qüvvələrdə bir neçə yüksək rütbəli hərbçini vəzifəsindən azad etmişdi. Belə ki, onun əmri ilə Ermənistanın müdafiə nazirinin maddi-texniki təchizat üzrə müavini Alik Mirzəbekyan, Baş Qərargahın kəşfiyyat idarəsinin rəisi general-mayor Arşak Karapetyan, rabitə qoşunlarının və avtomatik idarəetmə sistemlərinin rəisi, general-mayor Komitas Muradyan işdən azad edilmişdi.

Bəs, Sərkisyanın kadr islahatları işğalçı ordunun yenidən



qurulması və güclənməsinə gətirə bilərmi?

Məsələ ilə bağlı "Yeni Müsavat"a politoloq Qabil Hüseynli danışıb. O bildirib ki, Müdafiə Nazirliyində böyük dəyişikliklər olsa da bu, ordunun uğuruna təsir edən faktor deyil: "Ordunun uğuru ciddi texniki təchizatdan, fasiləsiz keçirilən hərbi təlimlərdən və şəxsi heyətin yüksək ruhi və psixoloji hazırlığından asılıdır. İnanmıram ki, ermənilər bu cür iqtisadi tənəzzül şəraitində, qısa müddətdə ordudakı maddi təchizat qıtlığını ardan qaldırıb, müasir ordu qura bilsinlər. Buna onların nə maddi imkanı, nə də zamanları var. Eyni zamanda hər zaman Rusiyadan asılı olan ermənilərin müasir ordu yaratması kifayət qədər perspektivli görünmür. Onların Azərbaycanla qarşı-qarşıya durması üçün ən azından 300-350 minlik ordularının olması lazımdır. Onlar isə qeyd etdiyim sayda canlı qüvvəni hərbi səfərbərliyə çağıra bilmirlər. Çünki ölkədə əhali yoxdur. Doğrudur, əlavə səfərbərlik elan edilib və buna uyğun olaraq 46 yaşına qədər olan şəxsləri orduya alırlar. Lakin bu faktın özü də onları xilas etməyəcək. Çünki həmin şəxslər kifayət qədər yaşlıdır və döyüş qabiliyyətlərini itiriblər. İndiki şəraitdə qeyd etdiyim kimi hər şey hərbi-texniki göstəricilər və taktiki əməliyyatların hazırlanması, həyata keçirilməsindən asılıdır ki, bu sahədə də erməni ordusu ciddi şəkildə axsayır".

Politoloq bildirib ki, Ermənistanda əhali arasında da ciddi narahatlıq var: "Qarabağ erməniləri ilə Ermənistan əhalisi arasında ciddi problemlər yaşanır. Eyni zamanda ölkənin içərisində müharibə əleyhinə əhval-ruhiyyə də formalaşıb. Adamlar bu müharibədən cana doyublar və normal yaşamaq istəyirlər. Aprel ayındakı hadisələr göstərdi ki, yeni müharibə olacağı təqdirdə bu, sıravi əhaliyə çox ciddi zərbə vuracaq və onları yerlərindən məhrum edəcək. Bu qorxu içərisində əhalinin müəyyən qismi antimüharibə əhvalındadırlar".

Ekspertə görə, hazırda texnika o qədər inkişaf edib ki, texniki kəşfiyyat qüvvələri insan faktorunu əvəzləməyə qadirdir: "İnanmıram ki, Ermənistan Azərbaycan səviyyəsində xüsusi təyinatlılar, kəşfiyyatçılar hazırlamağa qadir olsun. Azərbaycanda bu işlə uzun müddətdir ki, çox yüksək təcrübəli kadrlar məşğul olurlar. Peşəkar xüsusi təyinatlının hazırlanması üçün minimum 2 il zaman lazımdır. Ermənilərin isə bu qədər vaxtı yoxdur. Azərbaycan onlara bu qədər zaman verməyəcək. Belə olan təqdirdə onların iki yolu var: ya sülh danışıqlarında ciddi kompromislərə hazır olmalıdırlar ya da yeni müharibə onların başları üzərini alacaq. Azərbaycan tərəfi haqq uğrunda, öz torpaqlarını azad etmək üçün mübarizə aparır. Ermənilər isə bizim torpaqlarımıza qəsd edən tərəfdir. Bu amillər də böyük əhəmiyyətə malikdir. Misal üçün, aprel müharibəsində erməni ordusunun içərisində belə əhval yaranmışdı ki, müharibə Sərkisyana lazımdır. Azərbaycan ordusu isə müharibəni davam etdirmək, işğal altındakı torpaqlarımızı azad etmək əhvalında idi. Bunun özü müharibənin taleyi üçün böyük amillərdən biridir. Buna görə də Ermənistan iqtidarı hansı dəyişikliklərə əl atsa da, gözlənilən səmərə əldə olunmayacaq. Ölkənin iqtisadiyyatı dağılıb, maliyyə ehtiyatları sıfır dərəcəsindədir. İanə ilə nə ordu qurmaq olar, nə də qarşıya qoyulan məqsədlərə çatmaq".

❑ **Əlì RAİS**

# Bir dəfə Astanada...



**Xalid KAZIMLI**

**Ötən ayın bu günləri Qazaxıstanın paytaxtı Astana idik. 5 gün ərzində şəhərdə gəzdik, müşahidələr apardıq, yazılar yazdıq.**

O vaxt Astanada əmin-amanlıq idi. Əhalisi sarıdan milyonluq şəhər olduğundan orada "qu desən qulaq tutulmazdı", amma şəhərdə, ümumilikdə ölkədə sakitlik vardı. İnsanlar işinə-gücünə gedir, "Xan Şatır"da alış-veriş edir, meyramxanalarda yeyib-içir, əylənir, Bayterek meydanında dincəlirdilər. Sanki elə bir dərdləri, problemləri yox idi.

Əlbəttə, biz mətbuatdan bunun zahiri görüntü, aldadıcı mənzərə olduğunu bilirdik. Çünki avtoritar rejimlər tərəfindən idarə olunan ölkələrdə heç vaxt həqiqi əmin-amanlıq, sakitlik olmur. Mütləq alt təbəqələrdə gərginlik ocaqları oluə bir gün o, tektonik süxurlar hərəkətə gəlir.

Astanada söhbət etdiyimiz şəxslər (qazaxlar və bu ölkədə yaşayan azərbaycanlılar) siyasətdən çox danışmırdılar. Bəzən hətta siyasətlə bağlı konkret suallarımıza cavabdan yayınırdılar. Elə bunun özündən də görünürdü ki, Qazaxıstanda siyasi arena inhisardadır və siyasət xətalı mövzu sayılır.

İnsaf naminə demək lazımdır ki, Qazaxıstanın Özbəkistan və ya Türmənistan olmadığı açıq-aşkar idi. Bu ölkələrdən gələn və ya əcnəbi jurnalist olaraq orda işləyən həmkarlarımız danışırdılar ki, əgər bu saat Özbəkistanda olsaydınız, hər addımınız azı beş çuğul tərəfindən izlənərdi, ölkənin bir yerindən başqa yerinə sərbəst gedə bilməzdiniz, hətta sərhəd-keçid məntəqələrində sizə problem yaradardılar.

Ancaq Qazaxıstanda o cür sərt diktatura olmadığı göz önündəydi. Bizi izləmirdilər, ölkənin əsaslarını hansısa vasitələrlə sarsıtmaq niyyəti güdən əcnəbi kəşfiyyatçı hesab etmirdilər. Heç küçədə polis patrulları da çox gözə dəymirdi. Əslində polis gücü ilə idarə olunan dövlətlərdə fərqli olur - addımbaşı poqonlu, mundirli qulluqçulara rast gəlirsən. Onlar öz mövcudluqları və gözə girmələri ilə həm yerli insanlara, həm də əcnəbilərə təlqin edirlər ki, ölkə sahibsiz deyil, hamı nəzarətdədir.

Açığı, qazaxlar bizim gözümüzə idarə olunmağı, itaəti, qayda-qanunlara riayəti sevən millət kimi görünürdülər. Ancaq çoxdan bu ölkədə yaşayan tarixçi-akademik Vidadi Salahovla söhbətimiz zamanı o belə bir fikir işlətdi: "Qazaxları bilmək olmaz. Bir də gördün, qıpçaq əcdadları kimi atlarını mindilər və sarayın üstünə sürdülər".

Burada "atlarını minmək" söhbəti, əlbəttə ki, məcazi məna daşıyırdı, söhbət qazaxların haqsızlıqla üzləşəcəkləri halda etiraza qalxmalarından gedirdi.

O da unudulmamalıdır ki, 1986-cı ildə SSRİ dövründə ilk dəfə milli zəmində etiraza qalxan xalq məhz qazaxlar olmuşdu.

Bu baxımdan nə qədər itaətkar olsalar da, qazaxların içindəki potensial protest ruhunun bir gün oyanması təəccüblü deyil.

Üstəlik, bu dəfə etiraz predmeti torpaqdır. Türk qövmləri üçün daima əkin-biçin, örüş, otlaq yeri olaraq həssas səciyyə daşıyan torpaq məsələsi, onun əldən çıxması, itirilməsi qorxusu qazaxları ayaqlandıra bilərdi və informasiyalardan da məlum olur ki, elə olub.

Ümumiyyətlə götürsək, Qazaxıstanda məmur özbaşınalığı, harınlığı, acgözlüyü, korrupsiya və rüşvətxorluq halları Azərbaycandakı qədər deyil. O ölkədə əkin-biçinlə, maldarlıqla (eləcə də başqa biznes sahələri ilə) məşğul olub pul-para qazanmaq bizdəkinə nisbətən daha əlverişlidir. Bununla belə, qazaxlar bu duruma qane olmayıb yeni qəbul olunmuş torpaq məcəlləsinə etirazlarını bildirirlərsə, demək, əndişələnmələri əsaslıdır. Avtoritarzmin boy göstərdiyi ölkədə repressiyadan qorxmayaraq etiraz bildirmək, bu riskə getmək asan iş deyil. Demək, səbəb qorxudan güclü olub.

Həmişə olduğu kimi, yəqin ki, qazaxların torpaq davasında da "xarici barmaq" amilinin izi axtarılacaq və "tapılacaq". Hər zaman belə olur. Sərt rejimlər hesab edirlər ki, həmişə müti olan camaat bir gün ayağa qalxırsa, ona xaricdən dil verən olur, yoxsa heç nə olmazdı.

Bu, yanlış rəydir. Bıçaq sümüyə dayananda camaat xarici-daxili barmaq hayında olmur, qalxır, səsini qaldırır. Hərçənd bəzi qüvvələr ictimai hərəkətlənmədən öz xeyirlərinə istifadə eə bilirlər.

Hələlik isə Qazaxıstanda belədir: prezident Nazarbayev qoca olmasına rəğmən gümrah və güclüdür və addım-addım öz varis planını həyata keçirmək istiqamətində irəliləyir.

YENİ MÜSAVAT
N 111 (6432) 23 may 2016

# "O verilişin ağası da mən idim, qulu da..."

## Mübariz Əsgərov: "AzTV-də "Qulp"u hazırlayanda, müzakirə olunurdu, hamı əl çalırdı, amma efirə yox, arxivə gedirdi"

**Onu Azərbaycan tamaşaçısı "Qulp" verilişindən tanıdı. Həyatının 20 ilini ölkənin, cəmiyyətin problemlərinə məcazi mənada desək, qulp qoymağa, insanların gözünü həqiqətlərə açmağa həsr elədi.**

Söhbət uzun illər ANS-in efirində yayımlanan "Qulp" verilişinin, indi isə "Rezonans" verilişinin aparıcısı və müəllifi Mübariz Əsgərovdan gedir. Bir iş gününün sonunda redaksiyamızın qonağı olan Mübariz müəllim "Yeni Müsavat"ın suallarını cavablandırdı. Onunla Azərbaycan tamaşaçısına tanış olan "Qulp" nostalgiyasını yenidən canlandırdıq.

***- Mübariz müəllim, sizi hamı "Qulp" verilişindən tanıdı, yoxsa daha əvvəl də hansısa proyektləriniz olmuşdu?***

- Mən 1992-ci ildə Moskva Dövlət Universitetinin jurnalistika fakültəsini bitirdim. Təyinatla Azərbaycan Dövlət Televiziyasına gəldim və ilk verilişim "Qulp" oldu. Moskvada universitet bitirdiyimə görə mənə imkan yaratmışdılar. Bir də eksperimental qrup təşkil etmişdilər ki, mən də onun rəhbəri idim. Bu eksperimental qrupda ilk elədiyim "Qulp" proqramı oldu. Təxminən proqramın 10 buraxılışı dövlət televiziyasında getdi. Ondan sonra məsləhət bilmədilər, hər dəfə mən "Qulp"u hazırlayanda, müzakirə olunurdu, hamı əl çalırdı, amma efirə yox, arxivə gedirdi. Ondan sonra ANS-ə getdim və uzun illər bu proqramı orada həyata keçirdim.

***- Azərbaycan tamaşaçısı o zaman şablon veriliş adlarına öyrəşmişdi. Sizin haradan ağlınıza gəldi "Qulp"? Təkcə bu ad özü cəmiyyətdə böyük maraq doğurdu...***

- Elə bir hadisə oldu ki... Mən sonuncu kursda oxuyanda Moskvadan Bakıya gəlmişdim və qayıdanda bütün ailələrdə olduğu kimi evdən anam çamadanıma çoxlu bişmələr, mürəbbələr doldurmuşdu. Əsgərlikdən gətirdiyim bir ağ çamadan var idi. Onu o qədər doldurmuşdular ki, qaldırmaq mümkün deyildi. Mən Bakıda təyyarəyə minənə yaxın o çamadanın qulpu qırıldı. Nəticədə mən o ağır çamadanı qucağımda daşıyası oldum. Təyyarədən metroya, metrodan tramvaya, oradan yataqxanaya kimi mən o ağır çamadanı qucağımda daşıdım və həmin gecə səhərə kimi bu qulpun nə qədər önəmli olduğunu düşündüm. Elə oradaca ağlıma gəldi ki, təhsilimi başa vurub işə başlayandan sonra mənim hazırlayacağım verilişin adı "Qulp" olacaq. Elə orada musiqisini də tapdım. Sonradan belə də oldu və mən Azərbaycan teleməkanında 20 il bu verilişin müəllifi və aparıcısı oldum.

***- ANS-dən sizə təklif gəldi, yoxsa siz layihə ilə oraya müraciət etdiniz?***

- Əvvəlcə onlardan mənə təklif gəldi. Mən özüm də gördüm ki, Azərbaycan televiziyasında "Qulp"un efirə getməsi çətin məsələdir. AzTV-nin özündən mənə təklif oldu ki, sən bizə baş ağrısına çevrilmisən, get ANS-ə. O zaman yeganə özəl kanal ANS idi. ANS-lə AzTV-nin binası yaxın idi, mən onları da tanıyırdım. Beləcə mən iş yerimi dəyişdim. ANS-də "Qulp" efirə getdi və 20 ildən çox davam elədir. "Qulp" Azərbaycan televiziya tarixində iki ilkə imza atıb. Həm ən uzun publisistik proqram kimi tarixə düşüb, həm də Azərbaycan teleməkanında belə satirik ənənələri olan ikinci veriliş olmayıb. İndi də tamaşaçılardan yadındadır. Haraya gedirəmsə, tamaşaçıdan bu verilişin adını eşidirəm. Bir də ona təəssüf edirəm ki, Azərbaycan efirində onun yerini əvəz edən başqa bir proqram olmadı.

> **"Azərbaycan televiziyalarını vitrinləri boş qalan marketlərə bənzədirəm"**

***- "Qulp" başlayanda, birlikdə yola çıxdığınız insanlar var idi, verilişin sevimli personajları. İndi onlardan bəziləri həyatda yoxdur... Onlarla yollarınız necə kəsişdi? Haradan tapdınız onları?***

- Baha Pünhan, Aşıq Yedigar, Xanım nənə, çəlləyin üstünə çıxan Teymur müəllim, onlar tamaşaçıların sevimli personajları idi. Bizdə təbii seçim aparılırdı. Bəzilərini mən özüm tapırdım, bəzilərini isə baxanlar təklif edirdilər, mən yoxlayırdım, əgər bizim proqramın parametrlərinə uyğun gəlirdisə, onu dəvət edirdim. Baba Pünhanın necə gəlməyi yadımdadır. Bir nəfər mənə dedi ki, çox gözəl bir şair var. Bir şeirini də mənə oxudu. Şeirin möhürbəndini oxuyan kimi, dedim onu səhər çağır gəlsin. O zaman rəhmətlik Baba Pünhan hələ tanınmırdı. "İt günündə" adlı şeir idi. Axırda Baba Pünhan itə müraciət edərək deyirdi:

İtim dur gəl önümdə, gəl başına dönüm də,

Sən Pünhanın günündə, Pünhan da it günündə...

Bu şeirdən bəyənib, Baba Pünhanı "Qulp"a gətirmişdim. Məsələn, bir də Aşıq Yedigar obrazı var idi məndə, ancaq qəhrəmanı tapa bilmirdim. O zaman Yadigar Muradovu tapdım, həm də Şuşa teatrının direktoru idi. Teymur müəllimi də o cür tapmışam. Yəni hamısı təbii seçimlər idi. İndi onlardan Baba Pünhan, Xanım nənə, Şirin Zərdablı dünyasını dəyişib.

***- Bu obrazlar efirə çıxanda tamaşaçıdan nə cür reaksiyalar alırdınız?***

- Əgər mən bilsəydim ki, efirə çıxan adamlardan hansınısa tamaşaçı qəbul eləmir, onu bir də efirə çıxartmazdım. Xanım nənənin oxumasını tamaşaçı sevirdi. Şirin Zərdablının sözü dillərə düşmüşdü ki, "Ay nədəndir, nədəndir? Hamısı zəmanədəndir". Baba Pünhanın şeirləri, Yadigarın mahnıları dillər əzbəri olmuşdu. Tamaşaçılardan çox gözəl reaksiyalar alırdıq. Əgər bu gün də insanlar "Qulp"un qəhrəmanlarını xatırlayırlarsa, deməli yaxşı qəbul ediblər. Həm də bu personajlar hamısı xalqın içindən çıxmış insanlar idi.

***- Bəs, "Qup"da qırmızı xətlər var idimi? Özünüzün qoyduğu və ya televiziya rəhbərliyinin tətbiq etdiyi senzuranı nəzərdə tuturam...***

- İnanın ki, yox. Heç bir senzura yox idi. Mən müstəqil idim və müstəqil olduğum qədər də məsuliyyətli idim. Jurnalistin əsas vəzifəsi odur ki, təhqirlə tənqidi qarışdırmasın, cəsarətlə həyasızlığın yerini səhv salmasın. Mən heç bir ailədaxili məsələlərə, kimlərinsə şəxsi işlərinə qarışmırdım. Ümumi məsələlərə toxunurduq. Buna görə də, 20 ildən artıq müddətdə "Qulp"u bir dəfə də məhkəməyə vermədilər. Çünki orada qaldırılan məsələlər hamının üreyindən keçən problemlər idi. Ona görə də heç bir qırmızı xətt yox idi. İndinin özündə də deyirlər ki, yəqin o verişi bağlayıblar, məni gözümçıxdıya salıblar. Mən sadəcə onu deyərdim ki, məhz həmin verilişdən sona mənə jurnalistlər üçün ən böyük fəxri ad olan "Əməkdar jurnalist" adını veriblər. Mənə heç bir qadağa olmayıb.

***- "Qulp"un efirə çıxmasında təxminən neçə nəfərin əməyi var idi? Komandanız böyük idimi?***

- Belə demək pis çıxmasın, o verilişin ağası da mən idim, qulu da. İştirak edənlər çox idi, ancaq bütün yük mənim çiynimə düşürdü. Elə vaxt olurdu ki, çəkilişlərə çoxlu insanlar qatılmalı idi. Yadınıza düşürsə, parlament seçkiləri vaxtı mən nə qədər adam yığırdım oraya... Nə qədər partiya yaratmışdım - milli yaltaqlar, demokratik cibgirlər, tamadalar partiyaları ... Yəni yüküm çox idi. Amma iştirak edənlər də hamısı çox ürəkdən çalışırdılar. Canlarında olan son enerjini də gecə-gündüz o proqramın yaxşı alınmasına sərf edirdilər.



> **"İki oğlum hal-hazırda hərbi geyimdədir"**

***- Bu 20 ildə ANS rəhbərliyi ilə münasibətləriniz necə oldu?***

- Səmimi deyim ki, mənim bu illər ərzində ANS rəhbərliyi ilə heç bir problemim olmayıb. Mən orada tam müstəqil olmuşam və çox vaxt ANS rəhbərliyi "Qulp"u efirə gedəndə izləyiblər. Mən bir muxtar qrup kimi olmuşam ANS-də. Bu 20 ildə bir dəfə də olmayıb ki, bizim ANS rəhbərliyi ilə problemimiz yaransın və ya mən nəyisə düzgün eləməyim. Heç bir söz-söhbət olmayıb.

***- "Qulp"un biznes tərəfi necə idi? Gəlir gətirirdimi? Bildiyim qədər reytinqli veriliş idi...***

- Mən, ümumiyyətlə, "Qulp" efirə gedəndən maliyyə tərəflərini fikirləşməmişəm. Bəli, çox baxılırdı, hətta bir neçə sponsoru da var idi. O vaxt "Mərdəkan broyler" var idi. Azərbaycanda ilk broyler şirkəti idi. Açığı, sponsorluq və reklam işi ilə başqa bir qurum məşğul olurdu deyə, mən bu işlərə qarışmırdım ki, pul gətirir, yoxsa gətirmir. Ən əsası o idi ki, televiziyaya sevgi və baş ucalığı gətirirdi.

***- Necə oldu ki, "Qulp" dayandı? Bunu televiziya rəhbərliyi necə qarşıladı? Əsas səbəb nə oldu burada?***

- Çox təbii şəkildə ayrıldım. Çünki mən sırf telejurnalistəm. Mənim edə biləcəyim yeganə proqram "Qulp" deyildi. Onunla məhdudlaşmadım və başqa proqramlar da etmək istədim. Əslində mən "Qulp"u yaradanda onu cəmi bir neçə il hazırlamağı düşünürdüm Bir dəfə dilimdən "Qulp" çıxdı, tamaşaçı bundan tutdu və mən 20 il eyni verilişi aparası oldum. Ondan sonra başqa proyektlər etmək istədim və "Rezonans"ı elədim. "Qulp" gedə-gedə "Rezonans"ı hazırladım. O da çox çətin idi. Həbsxanada çəkilişlər aparmaq hədsiz çətindir. O zaman təbii olaraq, "Qulp" dayandı. ANS rəhbərliyi ilə də problemimiz olmadı. "Rezonans" dövlətə baş ucalığı gətirən bir proyektdir. Xarici müşahidəçilər gəlib oradakı studiyanı görəndə inana bilmirlər ki, həmişə tənqid etdikləri Azərbaycanda belə bir şərait var.

***- Son illərdə hansı hadisələri görəndə düşünürsünüz ki, bu "Qulp" üçün əla mövzu ola bilərdi?***

- Siz sualı bəlkə də əksinə qoyardınız ki, elə bir hadisə oldu ki, siz ona qulp qoymaq istəmirsiniz. Bütün hadisələrdə "Qulp"un yeri var idi. Arada mənə sual da verirlər ki, sən hər şeydə qulp yeri necə görürsən? Görünür, bu da mənim xasiyyətimdir.

***- Bu xasiyyətiniz təkcə verilişdə keçərli idi, yoxsa həyatda da qulp qoşmağı sevirsiniz?***

- Mən kamera qarşısında necəyəmsə, həyatda da eləyəm. Mən kamera qarşısında dəyişən kişilərdən deyiləm (gülür). Necəyəmsə, elə də varam.

***- Sizdən küsənlər olurdumu? Axı siyasətçiləri, sənətçiləri tənqid edirdiniz...***

- Bu qədər veriliş hazırladım və inandırım sizi ki, bir nəfər də məndən küsmədi. Əksinə, həm iqtidarın ən yuxarı pillələrində, həm də müxalifətdə "Qulp"u izləyirdilər. Biz ortaya vətəndaş mövqeyini qoyurduq. Ona görə də hansı mövqedə olmasından asılı olmayaraq hamı verilişə baxırdı.

***- "Rezonans" "Qulp"la müqayisədə tamam fərqli bir sahədir. O, ağlınıza necə gəldi?***

- "Rezonans" mənə uzaq sahə deyildi. Mən "Qulp"un 10 ilyini də məhz həbsxanada eləmişdim. Təkcə, bu deyil, başqa layihələrim də var. Allah qoysa və yaxşı adamlar şərait yaratsa, başqa layihələrimi də tamaşaçılar görəcək.

***- Məhbuslarla işləmək çətindirmi? Hansı hisslər keçirirsiniz onları görəndə? Aralarında qatıllər də var axı...***

- Həddindən artıq çətindir onlarla işləmək. Bir tərəfdən dövlətin elə bir strateji yeridir ki, orada artıq-əskin söz demək olmaz. Məhkum elə bir insandır ki, bircə sözlə qəlbinə dəysən müsahibə verməz. Həm də tamaşçını nəzərə almalısan ki, veriliş reytinqli olsun. Hər dərddən bir dərd götürəndə adama ağır olur. Mən onların hamısına cinayətkar gözü ilə baxmıram. Heç kim oraya düşməkdən sığortalanmayıb. Çalışıram ki, onlara müəyyən köməklik olsun. Onların azadlığı əllərindən alınıb, insani hüquqları əllərindən alınmayıb ki...

***- Bildiyimə görə, doğum gününüz 20 yanvar tarixindədir və 26 ildir ki, ad günü keçirmirsiniz?***

- Bəli, 1990-cı ildən bu yana ad günü keçirmirəm. Son ad günümə hazırlaşırdım ki, bu hadisələr baş verdi. Mən onda Moskvada tələbə idim. Sonradan çox böyük proseslər başladı. Moskvanın mərkəzində 20 mindən çox azərbaycanlı mitinq elədi. O vaxt ora dünyanın ən əsas mərkəzlərindən biri idi. Orada bazarda pomidor satan da, aspiranturada oxuyan da bir oldu, birlik oldu, möhkəm bir müqavimət ortaya qoydu. Mən həmin gün öz millətimə vuruldum və bu millətin övladı olmaqla qürur duydum. İndi 54 yaşım var və deyə bilərəm ki, tamaşaçının gözü önündə saç ağartmışam.

***- Televiziyalardakı indiki verilişlərə münasibətiniz necədir?***

- Mən Azərbaycan televiziyalarını vitrinləri boş qalan marketlərə oxşadıram. Çoxunda normal proyektlər yoxdur.

***- Mübariz müəllim, neçə övladınız var?***

- İki oğlum, bir qızım var. Hələ nəvəm yoxdur. Qızım mənə Allahın hədiyyəsidir, balacadır, 10 yaşı var. Oğlanlarımdan biri ali məktəbi bitirib, hərbi xidmətdədir, o biri də Dövlət Sərhəd Xidmətinin Akademiyasında oxuyur. İki oğlum var və ikisi də hal-hazırda hərbi geyimdədir. Jurnalistika mənim o qədər vaxtımı aldı ki, uşaqlarımın necə böyüməyini demək olar ki, görmədim. Səhər işə gedəndə də yatmış olurdular, axşam gələndə də.

***- Sonda demək istədiyiniz nəsə varmı?***

- Həmişə "Qulp"un axırında dediyim sözləri deyim ki, "Gəlib çıxdıq axıra. Təki axıra çıxan biz olar. Bizim axırımıza çıxan olmasın".

> **"Jurnalistin əsas vəzifəsi odur ki, təhqirlə tənqidi qarışdırmasın, cəsarətlə həyasızlığın yerini səhv salmasın"**

Nərgiz LİFTİYEVA
Fotolar: Məğrur MƏRDİNDİR

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF
www.kivdf.gov.az



YENİ MÜSAVAT
N 111 (6432) 23 may 2016

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Vyana görüşündən sonra Qarabağ danışıqlarında sıçrayış olmasa da, müəyyən hərəkətlilik və fəallıq müşahidə edilməkdədir. Ötən həftəsonu ABŞ-ın vitse-prezidenti Co Baydenin Azərbaycan və Ermənistan prezidentlərinə telefon açaraq onlarla konfliktlə bağlı müzakirələr aparması bunun növbəti təzahürü sayıla bilər. Hər necə olmasa, bu zəng də Ağ Ev administrasiyasının problemə diqqətinin göstəricisidir.**



# Qarabağ məsələsində ABŞ-Rusiya rəqabəti başlayır




## Tanınmış rusiyalı ekspertə görə, yaxın zamanlarda Amerika problemin həlli ilə bağlı öz mexanizmini işə sala bilər; Ermənistan Rusiyanın arxasından çıxıb Qərbə sığınsa...; **azərbaycanlı politoloq:** "Proseslər Bakının xeyrinə işləyir..."

Ancaq bu kimi səylər, əfsus ki, nizamlama prosesində kardinal dönüş yaratmaq gücündə deyil. Çünki münaqişədə aparıcı söz sahibi olan Rusiya hələ ki, onun çözümünə tələsmir, yalnız imitasiya ilə məşğuldur. Bununla belə, qarşıdakı ay ərzində danışıqları prezidentlər səviyyəsində davam etdirməklə bağlı Vyanada əldə edilən ilkin anlaşma da var.

Sülh prosesin hansı məcrada davam edəcəyi isə həmişəki kimi, Moskvanın iradəsindən asılı olacaq. Bu xüsusda iyun ayı ilə bağlı həm nikbin, həm də bədbin gözləntilər var.

***

"İyunda sülhyaratma proseslərinə start veriləcək. Yeni nizamlama prosesinin prinsipləri, paket və ya mərhələli variantında olması dəqiqləşdiriləcək". Bunu Axar.az-a sabiq dövlət müşaviri Qabil Hüseynli deyib. Politoloq Ermənistanın yenə paket həll variantı üzərində dayanacağını deyib: "Azərbaycan rayonların işğaldan azad olunması ilə Dağlıq Qarabağın statusunun eyni vaxtda müəyyənləşdirilməsinə heç vaxt razılıq verməyəcək. Bakı birmənalı şəkildə mərhələli həlli - ilkin olaraq bütün rayonların boşaldılmasını, sonrakı mərhələdə Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsini təklif edir. Hazırda Qarabağ prosesi əsasında "Madrid prinsipləri"nin dayandığı "Kazan formulu" üzərində iş aparılır. Azərbaycan bölgəyə sülhməramlıların yerləşdirilməsinin əleyhinədir, Ermənistan isə sülhməramlılar barədə danışmağın çox tez olduğunu bildirsə də, qəti mövqe sərgiləməyib".

Sabiq dövlət müşaviri hesab edir ki, Rusiya sülhməramlı məsələsini sızdırmaqla Dağlıq Qarabağda hərbi baza yaratmaq fikrindədir: "Bu, sülhməramlılar adı altında Cənubi Qafqazda yenidən möhkəmlənmək planının bir parçasıdır. Bu baxımdan əlverişsiz sülhdənsə, geosiyasi vəziyyətin Azərbaycanın xeyrinə bir qədər də dəyişməsini gözləyə bilərik. Çünki bölgədə geosiyasi situasiyanın uzağı il yarıma, iki ilə tamamilə dəyişəcəyini proqnozlaşdırırlar. Belə hesab edilir ki, Cənubi Qafqazda Rusiyanın mövqeyi tamamilə heçə endirilə bilər, hətta bu yöndə cəhdləri artıq indidən hiss etmək mümkündür".

Politoloq bildirib ki, Rusiya sözügedən faktları dərindən araşdırsa da, zahirən başqa görüntü yaradır: "Rusiya hazırda elə davranır ki, sanki Cənubi Qafqaz onun arxa bağçasıdır. Ancaq Vyana görüşü göstərdi ki, ABŞ, Almaniya və NATO üzvü olan bir sıra ölkələr artıq Qarabağ məsələsində kifayət qədər maraqlıdırlar. Bu siyahıya Türkiyə, Pakistan və müsəlman dünyası da daxildir. Xüsusilə də ABŞ məsələdə Rusiya ilə rəqabət içərisindədir. Bir sözlə, hazırda proseslər Bakının xeyrinə işləyir".

***

"Qarabağ problemi incə şəkildə gələcəyə saxlanılmışdı". Bunu isə rusiyalı politoloq Qriqori Trofimçuk deyir. Onun sözlərinə görə, hazırda status-kvonu saxlamaq mümkün deyil: "Bu gün bir şeyi deyə bilərik: Qarabağdakı situasiyanın apreldə qəfildən gərginləşməsi uzun illər dondurulmanın nəticəsidir və indi onu əvvəlki vəziyyətinə nə Rusiya, nə də ABŞ qaytara biləcək. Bunu da qeyd etmək lazımdır ki, Moskva və Vaşinqtonun həll prosesinə baxışı fərqli olmaqla yanaşı, onların hər birinin burada öz məqsədləri var".

Politoloq yaxın vaxtlarda problemin həlli baxımından qərar verilməsinin gərəkdiyini də bildirib: "Situasiyadan görünür ki, əgər yaxın zamanlarda Rusiya, Azərbaycan və Ermənistan lazım olan qərarı verməsələr, Qərb problemin həlli ilə bağlı öz mexanizmini işə sala bilər. Məsələn, regionda Azərbaycan, Gürcüstan və Türkiyənin birgə fəaliyyəti aktivləşdiriləcək və sairə. Qərbin fikrincə, Rusiya da bu prosesə görə cavabdehdir. Məhz Moskva aprelin 5-də atəşkəsin yaranmasına nail oldu. Başqa sözlə, Rusiya və Ermənistan tələsməlidir, Vaşinqtonun isə tələsməyinə ehtiyacı yoxdur, çünki zaman onun maraqlarına işləyir. Üstəlik, məhz ABŞ hər iki prezidentin Vyanada görüşməsinin təşəbbüskarı idi. Rusiya atəşkəsin başladığı andan etibarən situasiyanı əvvəlki danışıqlar şəraitinə qaytarmaq istəyir. Vyana görüşündə də həmçinin 1994-cü ilə qayıdışla bağlı tezisdən söhbət açıldı. Lakin bu, əlbəttə ki, Azərbaycanı qane etmir".

***

Potsdamdan olan professor Vilfrid Furman isə hazırda ATƏT-in Minsk Qrupu həmsədrlərinin Qarabağ konfliktinin həllinə yönəlik səylərini yetərli hesab eləmir. "Hələlik mən status-kvonjn möhkəmlənməsi və sementləşdirilməsinə yönəlik səyləri görürəm" - alman ekspert söyləyib.

Onun iddiasına görə, Qərb Ermənistan Silahlı Qüvvələrinin Azərbaycan ərazilərini boşaltmasında təkid eləməyəcək. "Çünki Qərb hər üç Güney Qafqaz ölkəsinə, o cümlədən Azərbaycan iqtisadi bonuslar vəd eləməklə bütün regionu Rusiya və Avrasiya Birliyinə sipər olaraq öz tərəfinə çəkmək fikrindədir. Əgər Rusiya Ermənistandan işğal altındakı əraziləri azad eləməyi tələb eləsə, o zaman İrəvan dərhal Moskvanı Avrasiya Birliyindən çıxmaq və Avropa Birliyi ilə assosiasiya sazişi imzalamaqla hədələyəcək. Fikrimcə, ABŞ və Fransa yanlış olaraq düşünür ki, Ukraynanın şərqindəki barışıq prosesi analoji şəkildə Dağlıq Qarabağa tətbiq oluna bilər" - professor əlavə edib.

Lakin Ermənistanın Rusiyanı hədələməsi elə də asan məsələ deyil. Ona görə ki, İrəvan Azərbaycan ərazilərini müstəsna olaraq Kremlin dəstəyi ilə ələ keçirib və Kremlin köməyi ilə də öz nəzarətində saxlayır. Bundan başqa, Rusiya ilə 2049-cu ilədək strateji müttəfiqlik müqaviləsi olan Ermənistanın təhlükəsizliyini, o cümlədən onun xarici sərhədlərini bütünlüklə Rusiya təmin edir. Moskvanın İrəvanın arxasından çəkilməsi kifayətdir ki, Azərbaycan zəbt edilmiş 7 rayonu qısa müddətdə azad eləsin. O zaman çətin ki, Qərb Ermənistanın köməyinə gəlsin...

***

Bu arada Avrasiya Hökumətlərarası Komissiyasının iclasında iştirak etmək üçün mayın 20-də İrəvana səfər edən Rusiyanın Baş naziri Dmitri Medvedyevin Serj Sərkisyanla Qarabağ münaqişəsini də müzakirə elədiyi xəbəri yayılıb. Bu haqda erməni nəşrlərindən biri belə yazıb: "Medvedyev aprelin 7-də İrəvana gələrkən, özü ilə bu planı gətirmişdi. Bir gün sonra o, Bakıya yola düşdü. Bu səfərlər ərəfəsində Qarabağla bağlı "Lavrov planı"nın olduğuna dair iddialar ortaya çıxdı. Aprelin 22-də Lavrov İrəvana gələrkən bu planın mövcudluğunu təkzib etməyə çalışdılar. Lakin Vyana görüşündən sonra Medvedyevin yenidən İrəvana gəlişi və Sərkisyanla köhnə müzakirələri davam etdirməsi ehtimal etməyə imkan verir ki, Rusiya baş naziri bir ay əvvəl təklif etdiyi Qarabağ planını yenidən özü ilə gətirib. Pərdəarxası proseslərin necə davam etdiyini deyə bilmərik, lakin Rusiya baş nazirinin bəyanatları Moskvanın Qarabağla bağlı təkliflərini davam etdirdiyini göstərir. Lavrov da Vyana görüşündən dərhal sonra açıqladı ki, Moskva tərəflər arasında güzəştləri axtarmağa davam edəcək. Əgər nizama salınmanın variantları müzakirə edilirsə, belə çıxır ki, İrəvan həqiqətən də Rusiya ilə danışıqlar aparır və daha sonra Rusiya bu məsələləri Bakı ilə müzakirə edəcək", - deyə sayt qeyd edib.

İddialara görə, Rusiyanın Qarabağ planı belədir: işğal olunmuş Dağlıq Qarabağ ətrafındakı 7 rayonun ən azı 5-i qaytarılır, iki rayonun qaytarılması prosesi sonraya saxlanılır, Laçın dəhlizi müvəqqəti olaraq qalır, Dağlıq Qarabağın statusu üzərində danışıqlar aparılır, bölgəyə beynəlxalq sülhməramlılar yerləşdirilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi




# Sabunçu bazarında vəhşilik: sahibkarı döyüb bıçaqladılar

## "Bazar qoçuları"nın özbaşınalığı davam edir...

**Sabunçu bazarındakı özbaşınalıq, "bazar qoçuları"nın vəhşilikləri davam edir. Bazarın pul yığan qoçuları sahibkarı çalışdığı mağazada vəhşicəsinə döyüb, çoxsaylı bıçaq zərbələri endiriblər.**

Musavat.com-un məlumatına görə, hadisə mayın 21-də saat 12 radələrində baş verib. Hadisə tərəflər arasında yaranan söz davasından sonra baş verib. Nəticədə mağazanı icarəyə götürən Müşfiq adlı şəxs döyülüb və bıçaqlanıb.

Qeyd edək ki, Həftənin şənbə və bazar günləri Sabunçuda "rus bazarı" təşkil olunur. Həmin bazarda köhnə məişət və geyim əşyaları satılır. Həmçinin, şənbə və bazar günləri bazara müxtəlif rayonlardan kənd təsərrüfatı məhsulları da satış üçün gətirilir. Bu zaman bazar ərazisində satış edən hər bir şəxs bazarın pul yığan şəxslərinə müəyyən məbləğ ödəməli olurlar. Həmin məbləğ isə pul yığan idmançı dəstə tərəfindən müəyyən edilir və heç bir satıcı da buna etiraz edə bilmir. Yığılan yer haqqından narazı olan şəxslər elə yerindəcə cəzalandırılır. Ya onların malları dağıdılır, ya döyülür, ya da bazardan qovulurlar. Bu barədə bir neçə dəfə məlumat vermişik.

Pul yığan şəxslər təxminən 10-12 nəfərlik dəstədən ibarətdirlər. Onlar bazar ərazisindəki ticarət köşklərindən, bu ətrafda maşınlarda mal satanlardan gündəlik yer haqqı yığmaqla məşğuldurlar. Satıcılara qarşı kobudluqları, amansızlıqları ilə seçilən həmin şəxslərə hələ ki, "dur" deyən yoxdur. Bazar satıcıları arasında "bazar qoçuları", "qulağı qırıqlar" kimi tanınan bu şəxslərin növbəti özbaşınalığı daha dəhşətli olub. Nəticədə bir nəfər aldığı bıçaq zərbələri ilə xəstəxanaya yerləşdirilib və hazırda reanimasiyadadır.

Hadisənin təfərrüatları isə belədir: mayın 21-də bazara tərəvəz satmağa gələn yaşlı qadın "bazar qoçuları"nın qəzəbinə tuş gəlib. Hadisənin baş verdiyi "Zooaptek"in qarşısında dayanan yaşlı qadından yer haqqı istəyən şəxslər "yoxdur" cavabı aldıqdan sonra onun əşyalarını yığaraq mağazanın içərisinə atıblar. Mağazada çalışanlar isə buna etiraz edib. Daha sonra hadisə yerinə mağazanın sahibi "Lexus" markalı avtomobili ilə gəlib. Mağaza sahibi də yaşlı qadının mallarının içəri yığılmasına etiraz edib və bu zaman tərəflər arasında söz davası başlayıb. Mağazanı icarəyə götürən Müşfiq adlı şəxsin isə "bazar qoçuları" ilə mübahisəsi davaya çevrilib. Əvvəlcə iki nəfər olan pul yığanlardan biri Müşfiqin cavabını vermək üçün onun üstünə hücum çəkib. Lakin idmançı olan Müşfiq həmin şəxsi döyərək yerə yıxıb. "Bazar qoçuları" hadisə yerinə kömək üçün bir neçə nəfər çağırıblar. Bundan sonra 6-7 nəfərlik dəstə mağazaya girib və Müşfiqi vəhşicəsinə döyüblər. Həmin şəxslərdən biri özü ilə gətirdiyi bıçaqla Müşfiqə boyun, qarın və ayaq nahiyyələrindən bir neçə zərbə endirib. Həmin şəxslər daha sonra hadisə yerindən qaçıblar. 3 saylı Şəhər Klinik Xəstəxanasına çatdırılan Müşfiqin vəziyyəti ağırdır. Hazırda reanimasiyadadır.

Hadisə yerinə Sabunçu Rayon Polis İdarəsinin 12-ci Polis Bölməsinin əməkdaşları gəliblər.

Baş verən qanlı olayla bağlı məlumat əldə etmək üçün 12-ci Polis Bölməsi ilə əlaqə saxladıq. Növbətçi hissədən faktla bağlı araşdırma aparıldığını və əlavə məlumat verə bilməyəcəklərini söylədilər. Növbətçi hissədən əlavə məlumat öyrənmək üçün Daxili İşlər Nazirliyinin mətbuat xidməti ilə əlaqə saxlamağımızı məsləhət gördülər. DİN-in mətbuat xidmətindən isə telefon zənglərinə cavab verilmədi.

Əlavə edək ki, hadisənin baş verdiyi mağaza hazırda bağlıdır. Mağazanın içərisində və qarşısında hələ də qan izləri qalır.

❑ Musavat.com

# Şəhid ailəsi prezidentdən kömək istəyir

## Mənzərə Rəsulova: "Yoldaşım iki balasını bu dövlətə əmanət etmişdi..."

**Paytaxtda yaşayan şəhid ailəsi prezident İlham Əliyevdən kömək istəyir. Nərimanov rayonunda yaşayan Mənzərə Rəsulova bu barədə musavat.com-a bildirib.**

Onun sözlərinə görə, 1991-ci ildən könüllü döyüşə gedən həyat yoldaşı Şükür Rəsulov 1994-cü ildə Qarabağ uğrunda döyüşlərdə şəhid olduqdan sonra iki övladını çətinliklə böyüdüb. Ş.Rəsulov bu illər ərzində Şuşa, Qaybalı, Kosalar və Laçında döyüşüb. Atəşkəsə az qalmış isə şəhid olub. Qadının şəhid ailəsi olaraq kömək gözlədiyi aidiyyəti qurumlar isə bu illər ərzində susqunluq nümayiş etdiriblər: "O vaxt qızımın üç, oğlumun bir yaşı vardı, zülmlə böyütdüm onları. Hökumət qurumları hərdən vəd verir, vəssalam".

Hazırda M.Rəsulova sağlamlığında problem olan oğlu ilə birlikdə təmirsiz, nəm mənzildə yaşayır: "Qızım ailə qurub, oğlumla yaşayıram. Böyrəyində problem var, ağıq iş görə bilməz, iş qabiliyyətsizdir. Oğlum həm də tələbədir, ölkədən kənarda təhsil alır. Təhsil haqqını ödəməyə belə çətinlik çəkirik. Burada olduğu müddətdə ağır olmayan iş tapdıqda işləyir. Heç bu təmirsiz mənzili belə dövlət verməyib, yoldaşımla işləyəndə özəl koperativdən verilib. Dövlət bu illər ərzində şəhid ailəsi olaraq bizdən gözünü çəkib. Ancaq yoldaşım iki balasını bu dövlətə əmanət etmişdi..."

Hazırda şəhidin oğlu uzun müraciətlərdən sonra rayon icra hakimiyyəti tərəfindən fəhlə işinə götürülüb: "O da bir illik müvəqqəti müqavilə ilə. Cəmi bir aydır uşaq işə gedir". Onların şəhid ailəsi kimi aldıqları kompensasiya isə iki yüz manatdır, o da üç yerə bölünür: "Bu pul yoldaşımın anası, atası və mənim aramda bölünür. Təxminən iki yüz manatdır, hərəyə 78 manat edir. İndi bir az qalxıb, 86 manatdır. Bu pulla necə dolanmaq olar?"



Şikayətçiyə görə, şəhid ailələrinin heç olmasa, kommunal xərclərinə güzəşt edilməsi hökumət tərəfindən müzakirə olunmalıdır: "Bu ölkədə şəhidə verilən qiymət budurmu? Ailəmiz ehtiyac içində yaşayır. Uşağın müalicəsi üçün pul tapa bilmirəm. Oğlum ikinci qrup əlildir, hətta o vaxt tibb komissiyası pul verməyi üçün dərəcəni üçə salmışdı. İcra hakimiyyətinə, digər aidiyyəti qurumlara dəfələrlə məktublar yazmışam, verdikləri cavablar qalın qovluqlarda toplanıb, hər dəfə qovluqlara baxanda düşünürəm ki, bu ölkə üçün şəhid olmağın mənası budur? Sən ölürsən, ailən isə zillət içində yaşayır və bu, heç kəsin vecinə deyil. Yoldaşımın Qubada qəbri də uçur, heç baxan, maraqlanan yoxdur. O vaxt yoldaşıma ölümündən sonra milli qəhrəman statusu vermək istəyirdilər, ancaq bunun üçün istədikləri pul bizdə olmadı. Tapa bilmədik o pulu, yoxsa indi heç olmasa, bir az çox kompensasiya ala bilərdik".

Hazırda şəhid ailəsi olaraq ev növbəsinə dayanan M.Rəsulova qeyd edir ki, icra hakimiyyəti 2018-ci ilə qədər ev veriləcəyini vəd edib: "Ancaq bilmirəm vaxt bitincə nə bəhanə gətirəcəklər". Həmçinin, şəhid ailələrinə verilməsi olan 11 min manatlıq kompensasiya da bu ailəyə verilməyib. Dövlət başçısından kömək gözləyən M.Rəsulova övladının müalicəsini, ev şəraitinin düzəldilməsini və maddi yardımın verilməsini istəyir.

❑ Röya RƏFİYEVA
❑ Foto müəllifindir

# Misir Mərdanovun xalası oğluna yarım milyonluq dələduzluq ittihamı

## Sənan Əliyev: "Allahverdi Dəmirov 450 min manatımı qaytarmır"

**"Keçmiş təhsil naziri Misir Mərdanovun yaxın qohumu, xalası oğlu Allahverdi Dəmirov 2010-2011-ci illərdə məndən ümumilikdə 450 min manat pul alaraq təsisçisi və direktoru olduğum "Xudafərin" Tikinti-Quraşdırma MMC-yə tikinti işləri verəcəyini vəd verərək məni aldadıb". Bu sözləri prezidentə ünvanladığı, surətini redaksiyamıza yolladığı məktubda Suraxanı rayonunda qeydiyyatda olan Sənan Əliyev yazıb.**


Misir Mərdanov

S.Əliyev qeyd edir ki, üzləşdiyi dələduzluq əməli onu çox pis duruma salıb: "Uzun müddətdir ki, ailəmlə birlikdə Bakı şəhərində yaşayır və burada sahibkarlıq fəaliyyəti ilə məşğulam. Biz sahibkarlar daim mərhum Heydər Əliyevin sahibkarlığa və sahibkarlara göstərdiyi qayğısını hiss etmiş, sahibkarlığın inkişafı üçün müəyyən etdiyi siyasi kurs və bu kursu ondan sonra sizin tərəfdən çoxşaxəli şəkildə inkişaf etdirilməsini görmüş, ölkə iqtisadiyyatının yüksəlməsi fonunda bəhrələnmişik. Sizin sahibkarlara dəstək olmağınız özüm və ailəmin təhlükəsizliyi naminə sizə ərizə ilə müraciət etməyimə cəsarətləndirib. Məlumat üçün bildirim ki, mən 2007-2012-ci illərdə "Xudafərin Tikinti Quraşdırma" MMC-nin direktoru işləmişəm. Bu dövr ərzində təhsil müəssisələrində, əsasən məktəblərdə aparılan tikinti və abadlıq işlərində direktoru olduğum "Xudafərin Tikinti Quraşdırma" MMC-nin mühüm rolu olub. Həmin dövrdə təhsil naziri Misir Mərdanovun yaxın qohumu, Misir Mərdanovun təhsil naziri işlədiyi dövrdə Nazirliyin "Əsaslı Tikinti İdarəsinin" rəisi işləmiş Allahverdi Dəmirovla tanışlığım yaranıb. Belə ki, Allahverdi Dəmirovun Təhsil Nazirliyində idarə rəisi, sifarişçi təşkilatın rəhbəri kimi 2007-2012-ci illərdə direktoru olduğum MMC ilə bir neçə tikinti obyektlərinin icrası ilə bağlı müqaviləmiz olub. Əsaslı tikinti idarəsinin sifarişçiliyi ilə işlədiyim bu dövr ərzində bütün digər xərclərdən başqa Allahverdi Dəmirov ayrı-ayrı vaxtlarda məndən dövlət tədbirləri adı ilə 450 min manat pul alıb".

Şikayətçi yazır ki, A.Dəmirovdan pulları geri almaq üçün çox çalışıb. Lakin ondan işlədiyi dövrdə yalnız vəd alıb:

"2011-ci ilə qədər, yəni Allahverdi Dəmirov işdən azad olunana qədər həmin pulların geri alınması üçün çox çalışdım. Amma bir nəticə əldə edə bilmədim. Belə ki, hər dəfə Allahverdi Dəmirovdan məndən müxtəlif adlarla aldığı pulların qaytarılmasını xahiş edəndə o, mənə başqa-başqa bəhanələrlə pulu qaytaracağına söz verirdi. O, vəzifəsindən getdikdən sonra mənim pullarımın qaytarılacağını onun yerinə vəzifəyə gəlmiş İsaxan Babayev öz üzərinə götürdü. 2012-ci ilin axırına qədər İsaxan Babayev məni müxtəlif bəhanələrlə aldadaraq pulu geri qaytarmadı. Əvəzində isə mənə dedi ki, mən pulu tək yeməmişəm, yuxarıların haqqını vermişəm".

S.Əliyev yazır ki, A.Dəmirov onu sahibkar kimi müflis edib: "Təsisçi və direktoru olduğum müəssisənin dövlət büdcəsinə, yəni vergi orqanlarına 350 min manat, banka 150 min manat, ayrı-ayrı şirkətlərə və fiziki şəxslərə 127 min manat borcum yaranıb. Borclu olduğum pulların hamısı Allahverdi Dəmirov və İsaxan Babayev kimi məmurlardadır. Uzun müddətdir onlardan bu məsələnin həll olunmasını xahiş və tələb etməyimə baxmayaraq, heç bir nəticə əldə edə bilməmişəm"

S.Əliyev A.Dəmirov tərəfindən hədələrə məruz qaldığını da açıqlayıb: "Allahverdi Dəmirovun özü və yaxın adamları məni və ailəmi hədələməkdən çəkinmirlər. Evimə qədər gəlib çıxıblar və deyirlər ki, əgər harasa şikayət etsən, səni məhv edərik. Bütün bu olanlardan Təhsil Nazirliyinin əsaslı tikinti idarəsində işləyən işçilərin hamısının məlumatı vardır. Lazım olsa, onların arasından bu yazılanları təsdiq edəcək insanlar vardır.

Hörmətli cənab prezident, vəzifəsindən istifadə edərək mənim külli miqdarda pullarımı ələ keçirən Allahverdi Dəmirov və İsaxan Babayev barədə qanuni tədbir görülməsi və mənim ailəmi ölüm təhdidindən müdafiə etməyinizi xahiş edirəm".

S.Əliyev məktubunda qeyd edir ki, üzləşdiyi dələduzluqla bağlı hüquq-mühafizə orqanlarına üz tutub və şikayəti üzrə cinayət işi başlanıb. Lakin cinayət işi üzrə hər hansı hərəkətlilik yoxdur: "Şikayətimlə bağlı Nərimanov Rayon Prokurorluğunda 15 aprel 2016-cı ildə №160066058-li cinayət işi açıldı. Ancaq naməlum səbəblərə görə cinayət işini gedişində heç bir yenilik yoxdur. Baş prokuror Zakir Qaralovdan xahiş edirəm, mənim şikayətimə düzgün, qərəzsiz baxılması üçün göstəriş versin".

Şikayətçi məktubuna cinayət işinin başlanılması haqa qərarın surətini də əlavə edib. Həmin qərardan məlum olur ki, Nərimanov rayon prokuroru Vüqar Əliyev S.Əliyevin şikayəti üzrə toplanmış material üzrə Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda əmlakı mənimsəməklə dələduzluq) maddəsi ilə cinayət işi başlayıb. Cinayət işinin ibtidai istintaqının aparılması Nərimanov Rayon Polis İdarəsinin istintaq şöbəsinə həvalə olunub. Həmin vaxtdan 1 aydan artıq vaxt ötsə də, bu günə qədər hər hansı bir tədbir görülməyib.

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 111 (6432) 23 may 2016



# Bakının eyvan təhlükəsizliyi problemi

## "Göydələn"lərin eyvanlarının alçaq inşa edilməsi və dəmir barmaqlıqlar qoyulmasına icazə verilməsi hər an ölümə səbəb ola bilər; günahkar kimdir?

Yəqin ki, bu və buna bənzər başlıq altında yazılmış xəbərləri çox oxumusunuz. Son zamanlarda çoxmərtəbəli binalarda bu tipli hadisələr daha da artıb. Əsasən nəzarətsiz qalan uşaqlar hündürlüyü az olan eyvandan yıxılırlar. Nəticədə də bədbəxt hadisə baş verir.

Məsələn, bir neçə gün öncə Bakının Qara Qarayev prospektində yerləşən çoxmərtəbəli binanın arxasında uşaq meyiti tapılıb. Araşdırmalar nəticəsində məlum olub ki, 3 yaşlı İsa Rüstəm oğlu Vəliyev binanın 12-ci mərtəbəsindən yıxılaraq vəfat edib. Hadisə baş verən zaman İsa Vəliyevin valideynləri yuxuda olublar. Buna görə də, onun eyvana çıxdığını bilməyiblər.

Analoji hadisə Abşeron rayonunun Masazır qəsəbəsi "Yeni Bakı" yaşayış sahəsində də olmuşdu. Dörd yaşlı Zəhra Bağırova yaşadığı evin eyvanından (12 mərtəbəli binanın 6-cı mərtəbəsindən) yıxılaraq hadisə yerində də dünyasını dəyişmişdi. Digər bir hadisə; paytaxtın Xətai rayon sakini 2 yaşlı Ümid Ağalı yaşadığı mənzilin eyvanından yıxılmış və yerindəcə dünyasını dəyişib.

Yazının əvvəlində də bildirdiyimiz kimi, bu hadisələrin sayı çox təəssüf ki, gün-gündən artır. Musavat.com saytı məsələni gündəmə gətirərək, hadisələrin səbəbini araşdırmağa qərar verib.

Məsələ ondadır ki, ümumiyyətlə Bakıda ciddi şəkildə eyvan təhlükəsizliyi məsələsi var.

Məsələn, köhnə binalarda yaşayan bəzi Bakı sakinləri eyvanlarının formasını dəyişir, onun yerində otaq tikir, tikiliyə müdaxilə edirlər.

Buna çox zaman mane olunsa da, mənzil sakini ilə icra nümayəndəsi arasındakı "hörmət" prosesindən sonra məsələ öz həllini tapır. Belə müdaxilələr eyvanların uçması ilə nəticələnə bilər.

Yeni binalarda isə bu, ümumiyyətlə mümkün deyil. Mənzil sahibi eyvanda dəyişiklik etmək istəyən zaman dərhal yerli icra hakimiyyətinin nümayəndələri və binanın komendantı ona mane olur. Ona hər hansı bir müdaxilə etməyə icazə verilmir. Ancaq yeni tikililərdə eyvanlara müdaxilə çox zaman təhlükəsizlik amili ilə bağlı olur. Yəni yeni tikililərdə eyvanları kənarları çox alçaq olur və buradan yaxılmaq an məsələsidir.

Ona görə də mənzil sahibi hündürlüyü artıraraq təhlükəsiz eyvan şəraiti yaratmaq istəyir. Çünki başda sadaladığımız hadisələrlə qarşılaşmaq istəmir. Amma ona icazə verilmir.




Məsələ bununla da bitmir. Yeni binaların əksərində blokda ümumi eyvan var. Bu eyvanlar hər bir mərtəbədə olur və mənzillərdə olan eyvandan daha təhlükəlidir. Çünki hündürlüyü çox azdır.

Bütün sadaladıqlarımızı görmək üçün paytaxtdakı yaşayış binalarına göz gəzdirmək kifayət edir. Demək olar ki, bütün binalarda vəziyyət eynidir. 1 və 2-ci mərtəbələrdə eyvanlarda dəmir barmaqlıqlar olsa da, digərlərində buna icazə verilmir. İlk 2 mərtəbədə yerləşən mənzillərdə dəmir barmaqlıqların quraşdırılmasına icazə verilmənin səbəbi isə oğurluqdur. Mənzilə kənar şəxslərin daxil olmasının qarşısını almaq üçün barmaqlığa icazə verilir.

Digər mərtəbələrdə isə eyvanlara dəmir barmaqlıqlar vurmaq qadağandır. Bu qadağa əslində məntiqlidir. Yangın zamanı eyvandan mənzilə daxil olmaq istəyən FHN əməkdaşları dəmir barmaqlıqlara görə əziyyət çəkirlər.

Dəfələrlə eyvanlara sonradan quraşdırılmış dəmir barmaqlıqlar ucbatından baş verən yanğın hadisəsi daha da şiddətlənib.

**"Təmizlik edərkən eyvandan yıxıldı", "Səhlənkarlıq ucbatından azyaşlı uşaq eyvandan yıxılaraq öldü..."**

Məsələn, mənzildə baş verən yanğını söndürmək üçün oraya iki giriş forması var; biri qapıdan, digəri isə eyvandan. Qapıdan giriş mümkün olmadıqda yanğınsöndürənlər eyvandan daxil olurlar. Lakin eyvanda olan dəmir barmaqlıqlar onların işini çətinləşdirir. Həmin barmaqlıqlar kəsilənə qədər yanğın daha da şiddətlənir. Hətta mənzildə insan varsa, onu xilas etmək də gecikir. Bu da ölümlə nəticələnə bilər.

Bakı sakini Rüstəm Xankişiyev deyir ki, dəmir barmaqlıqlara qadağa qoyulsun, amma əvəzində alternativ də təklif edilsin: "Mən buna etiraz etmirəm. Adamlar haqlıdır. Amma biz də haqlıyıq. Mənim evdə 2 körpə uşağım var. Dəcəldirlər. Hərəsi bir yana qaçır. İnsanıq, fikirdən çıxır, eyvanın qapısı açıq qalır. Birdən uşağım ordan yerə düşdü, kim cavab verəcək. Canımızın dərdindən, övladlarımıza görə xərc çəkib, barmaqlıq qoyduruq. Əgər bu qadağandısa, alternativ təklif etsinlər. Desinlər ki, bu formada edin, həm sizin təhlükəsiz olsun, həm də biz işimizi görə biləK. Amma etmirlər, sadəcə "olmaz" deyirlər".

Yaxşı, belə olduğu təqdirdə günahkar kimdir? Ev sahiblərimi, tikinti şirkətlərimi, yoxsa aidiyyəti orqanlarmı? Bu suallar cavabsız qaldığı müddət ərzində məsələ öz həllini tapmayacaq. Amma ekspertlər günahı tikinti şirkətlərində görür. Onların fikrincə şirkətlər inşaya başlayan zaman bütün bunları nəzərə almalıdır. Mövcud şəraitdə isə qüsurlar dərhal aradan qaldırılmalıdır. Eyvanların hündürlüyü təhlükəsizlik səviyyəsinə qədər olarsa heç kim dəmir barmaqlıqlardan istifadə etməz. Amma onlar mümkün qədər qənaət edib, daha çox pul qazanmağı düşündükləri üçün bunu etmirlər.

❑ **Məhəmməd TÜRKMƏN**
**Fotolar müəllifindir**

# Ətdən imtina eləsək, nə olar?



**Hər bir qidanın orqanizmimizə birbaşa təsiri var. Ta qədimdən bu günə Azərbaycanın vazkeçilməz qidalarından biri də ətdir. Xüsusən də yağlı qoyun ətindən hazırlanan yeməklər, kabablar əksəriyyətimizin qida rasionumuzdan çıxara bilmədiyi təamlardandır. Ancaq ət yeməyin xeyri olduğu qədər, həm də ziyanlıdır.**

Ümumdünya Səhiyyə Təşkilatının hesabatında deyilir ki, qırmızı ət xərçəng xəstəliyinin inkişafına yol açır. Mütəxəssislər donuz ətini formaldehid, qamma radiasiya, spirt və siqaretlə eyni sıraya qoyurlar. Onların fikrincə, gündə 50 qram ət yeyən insanda xərçəngin inkişafı 18 faiz artır. Lerner Tədqiqat İnstitutunun (ABŞ) alimləri sübut ediblər ki, ət məhsullarında olan L-karnitin ürək xəstəliklərinin inkişafına yol açır.

Lakin ətdən tamamilə imtina enməyin bədənə müxtəlif ziyanları ola bilər. Belə ki, o zaman metabolizm proseslərində minerallar və mikroelementlərin çatışmazlığı müşahidə olunur. Ət dəmir, vitamin D və B12 qaynağıdır. Ət yeməyən insanların onun əvəzləyicilərini qidalanmasına daxil etməsi məsləhət görülür. Məsələn, lobya, mərcimək, qoz-fındıq, meyvə- tərəvəz, yumurta, maya ekstaktları.

Tibb elmləri doktoru, professor Adil Qeybulla ət yeməklərinin qəbulunun müəyyən məhdudiyyətlərlə olmasının vacib olduğunu dedi: "Doymamış yağ və əvəzolunmaz amin turşularının çoxu bədəndə istehsal olunmur. Bunlar ancaq xaricdən alınmalıdır. Yəni ancaq qida vasitəsi ilə bədənə daxil olmalıdır. Heyvani mənşəli və bitki mənşəli zülallar var. Sadəcə olaraq, ət yeməklərinin qəbulu müəyyən məhdudiyyətlərlə olmalıdır. Bizim qəbul etdiyimiz ət qidası orqanizmin tələbatından qat-qat artıqdır. Bəzi insanlar çox qida qəbul etdikləri üçün doyma hissini itirirlər və nəticədə qida həmin adamın ziyanına işləyir. Ona görə də qida qəbulunu kifayət qədər məhdudlaşdırmaq lazımdır. Birdəfəlik ət qidalarından imtina düzgün deyil. Onların tərkibində əvəz olunmayan amin turşuları orqanizm üçün vacibdir. Ona görə də arıqlamaq məqsədi ilə və ya uzun müddət aclıq keçirənlərdə psixi dəyişikliklərin olması da bəzən bununla izah olunur. Biz adekvat qidalanmalıyıq. Adekvat qidalanma da insanlar qidalanma mədəniyyətinə uyğun olaraq həddən ziyadə olmamaq şərti ilə normal, insanın aktiv hərəkətinə mane olmayacaq dərəcədə qida qəbulu yetərlidir".



**Adil Qeybulla:**
"Qəbul etdiyimiz ət orqanizmin tələbatından qat-qat artıqdır"



**Leyla Zülfüqarova:**
"Beynimizin işləmə sürəti yediyimiz ətlə birbaşa əlaqəlidir"

İnsanlar arasında belə bir deyim də var ki, çox ət yemək insanı qocaldır, üzündə qırışlar əmələ gətirir. Bu söylətilərin nə dərəcədə doğru olub olmamasına gəlincə isə A.Qeybulla bunun yanlış düşüncə olduğunu dedi: "İnsanlar ona görə qocalır ki, onların qəbul etdikləri kalori ilə sərf etdikləri kalori arasında disbalans yaranır. Qəbul olunan kalori çox olur, sərf olunan kalori isə az. Bunun da səbəbi çox qida qəbul edib az hərəkət etmələridir. Nəticədə bu orqanizmdə pozulma yaradır, ürək-damar sistemini sıradan çıxardır və təbii ki, insanın dərisi də bundan əziyyət çəkir".

Dietoloq Leyla Zülfüqarova yediyimiz ətin beynimizin işləməsinə böyük təsiri olduğunu dedi: "Ətin insana xeyri var deyənlər, sadəcə olaraq, evdə oturub bozbaş bişirib yeyən adamlardır. Əslində ət protein ağırlığını orqanizmimizə ötürür. Ət yemək ziyanlı deyil. Ət xeyirlidir deyənlər hər gün qoyun əti yeyənlərdir. Çingiz Abdullayev yazır ki, amerikalılar dəliqanlıdır, demokratikdir və onlar belə olmağa məhkumdurlar. Çünki onlar hər gün can əti yeyirlər. Bu, daha fərqli ətdir, yağı azdır, orqanizmdə də tez həzm olunur. Dəmir, protein, zülallarla zəngindir. Eyni zamanda tərkibində ekstraktiv maddələr azdır. DeməK ki, can əti yeyən amerikalılar emosiyalarını bildirmək gücünə malikdir. Yaponlar isə daha çox dəniz məhsullarından qidalanırlar. Buna görə də kifayət qədər ağıllı və dünyaya diktə edən xalqdır. Onların beyinlərinin sağ yarımkürəsi kifayət qədər inkişaf edib. Ona görə də ən ağıllı ixtiraçılar məhz buradan çıxır. Yəni qida ilə şüurun işləməsinin bir əlaqəsi var. Azərbaycana gəlincə isə biz kifayət qədər qoyun əti yeyirik. O qədər çox qoyun əti yeyirik ki, əgər kiməsə bunu yemə deyəndə o insana bu söz xoş gəlməyəcək, çünki insanların ataları, babaları uzun illər qoyun əti yeyib. Bunun səhv olduğunu deyəndə sanki o insanın ailəsinin səhv olduğunu demiş kimi oluruq. Amma qoyun ətinin tərkibini analiz etsək doymuş yağ turşularının olduğunu görərik ki, bu da beyin hüceyrələrinin aktiv işləməsinə xidmət edir. Ancaq xolesterin ağır fəsadlara gətirib çıxarır. Nəticə göz qabağındadır. Biz azərbaycanlılar ürək-qan damar xəstəliklərindən çox əziyyət çəkirik. Bunun da səbəbi qoyun ətinin çox yeyilməsidir. Biz dəniz məhsullarına üstünlük vermirik. Hətta bəzilərimiz bunu sevmədiyini deyirlər. Halbuki bu insan səhhəti üçün yaxşıdır. Yaxşını sevməməyin özü yaxşı hal deyil. Bunun isə əsl səbəbi qoyun ətindən imtina etmək istəməməyimizdir. Ekologiya da bizim qidalanmamızda rol oynayır. Belə ki, biz təmiz oksigen alırıqsa, həmin oksigen nəticəsində qidanı yandıra bilərik. Amma bu baş vermir. Bu əslində psixoloji bir nüansdır. Öyrəşdiklərimizdən vaz keçə bilmirik. Qidalanma hər zaman korrektə olunacaq bir hissədir. Biz yada və qışda olan qidalanmamızda belə dəyişikliklər ediriksə, təsəvvür edin ki, illərdir ki, qoyun ətini dəyişdirmirik. Nəzərə alaq ki, düşüncələrimizin, beynimizin işləmə sürətinin yediyimiz ətlə birbaşa əlaqəsi var".

❑ **Günel MANAFLI**

# Qızmar havaların gətirdiyi bəla - ilan sancmalar

## İlanvurmaya qarşı nə etməli? - həkim rəyi

**Hər il havaların istiləşməsi ilə Bakıda və bölgələrdə ilanların, əqrəblərin aktivləşməsi müşahidə olunur. Ekspertlərə görə, bu aktivlik mart ayının sonlarından noyabradək davam edir. Ehtiyatsızlıq, bəzən də təsadüfi hallar nəticəsində insanlar bu cür sürünən və ya zəhərli həşəratların hücumlarına məruz qalır.**



Belə xoşagəlməz hallar xüsusən Bakı kəndlərində, Qobustan qəsəbəsində, Hacıqabul, Şirvan, Şəki və Qəbələ bölgələrində daha tez-tez müşahidə olunur. Artıq ilanvurma hadisələri ilə bağlı xəbərlər gəlməkdədir. Bir neçə gün bundan əvvəl Qaxda 55 yaşlı kənd sakini ilan sancmasından dünyasını dəyişdi. 1959-cu il təvəllüdlü Qəhrəman Qasımov kənd ərazisində qoyun otararkən ilan hücumuna məruz qalmışdı. Yaralı dərhal rayondakı xəstəxanaya yerləşdirilib, tibbi yardım alsa da, ağır vəziyyəti dəyişməz qaldığından Bakıdakı Respublika Toksikologiya Mərkəzinə göndərilib. Lakin onun həyatını xilas etmək mümkün olmayıb. Mərkəzin verdiyi açıqlamaya görə, kənd sakini xəstəxanaya çatdırılanda onun vəziyyəti kritik olub.

Qax rayonunda ötən il də ilanvurmadan ölümlə nəticələnən hadisə yaşanmışdı. 53 yaşlı Gülmira Xinqalova ağır vəziyyətdə Respublika Toksikologiya Mərkəzinə çatdırılsa da, onun həyatını xilas etmək mümkün olmamışdı.

İddialara görə, bölgələrdə ilanvurmaların ölümlə nəticələnməsi ilan zəhərini neytrallaşdıran zərdab çatışmamazlığı ilə bağlıdır. Hətta əksər rayonlarda, kəndlərdə yerləşən tibb məntəqələrində bir çox hallarda zərdab olmadığı bildirilir. Nəticədə ilan sancması ilə qarşılaşan yaralını Bakıya, Toksikologiya Mərkəzinə çatdıranda artıq gec olur.

Mərkəzin həkimi, toksikoloq Hüseyn Süleymanovun "Yeni Müsavat"a verdiyi açıqlamaya görə, bu il İnnovasiya və Təchizat Mərkəzi tələb olunan zərdabları artıq rayonlara paylayıb: "İlin əvvəlindən Səhiyyə Nazirliyinə bu barədə məktub yazmışıq və şöbəmiz artıqlaması ilə zərdabları alaraq paylayıb. Nə qədər müraciət olunsa, ilan zəhərinə qarşı artıqlaması ilə zərdablar var".

Həkimin sözlərinə görə, bu il cəmi 9 nəfər mərkəzə müraciət edib: "Aprel ayından başlayaraq 9 nəfər şöbəyə qəbul olunub. Ağır vəziyyətdə olsalar da bütün tibbi müayinələrdən keçirilib, tibbi tədbirlər görülüb və sağ- salamat evə yazılıblar".

Hüseyn Süleymanov onu da qeyd elədi ki, ötən ilə nisbətən bu ilan sancmalarının sayı azdır: "Hələ havalar çox da isti keçmir ona görə də ilan vurma halları çox deyil. Xüsusən də ilan sancmaları daha çox 25-40 yaşlı insanlar arasında olur".

Məlumat üçün onu da bildirək ki, ölkəmizdə daha çox gürzə ilanları aktiv olur. Onların arasında ən çox yayılanı və təhlükəlisi Şahmar ilandır. Toksikoloqlar bildirir ki, bu ilanın zəhəri o qədər güclü olur ki, hətta digər ilanların zəhərinə qarşı olan zərdab belə kömək edə bilmir. İlan zəhəri qanın laxtalanması təsir eləməklə yerli ödem, nekrotik təsir yaradır. Ona görə də ilan sancmasından artıq bir neçə dəqiqə sonra insan bədənində zəhərlənmə başlayır. Bəzən isə ilan sancması ilə qarşılaşan insana düzgün olmayan türkəçarə tədbirlər görülməsi onun vəziyyətinin ağırlaşmasına hətta ölümünə səbəb olur. Əsasən də rayon və kəndlərdə ilan sancan ətrafa jqut qoyulur və yaxud yaralı yeri kəsib, qanı sorurlar. Lakin məlum olub ki, nəinki ağızla, hətta xüsusi ekstraktla zəhəri soranda onun yalnız 13 faizini çıxarmaq mümkündür.

Bəs ilan sancmaları zamanı ilk olaraq nə etmək lazımdır?

Toksikoloq Hüseyn Süleymanov bununla da bağlı öz məsləhətlərini verdi: "Adətən ilan insanın ətraflarına, xüsusən də aşağı ətrafına hücum edir. Bu zaman yaralı insanı hərəkətsiz hala gətirib, dişlənilmiş yaranı yodla steril etmək və dərhal həkimə çatdırmaq lazımdır. Həkim nəzarəti altında isə bütün tibbi tədbirlər görülür, ilk öncə ağrıkəsici iynə və ilan zəhərinə qarşı zərdab vurulur və daha sonra qalan lazımi tədbirlər görülür. Yaranı sorub zəhəri çıxartmaq və ya həmin ətrafı kəsmək, üzərinə qatıq qoymaq, belə şeylər məsləhət deyil. Ona görə ki, tez bir vaxtda çirklənmiş yara infeksiyalaşmış yaraya keçir və sonra fəsadlaşmış hal alınır".

Qeyd edək ki, təkcə ilan deyil, ölkəmizdə əqrəb sancmaları halları da baş verir. Ekspertlər bildirir ki, Azərbaycanda daha sarı əqrəblər olur ki, onların da zəhəri çox zəifdir. Hələ ki, əqrəb sancmasından dünyasını dəyişən olmayıb. Lakin son 10 ildə ölkəmizə Orta Asiyadan çox təhlükəli və zəhərli, el arasında "qara qurd" adlanan zəhərli hörümçəklərin gəldiyi bildirilir. Məlumata görə, onların zəhəri gürzəninkindən bir neçə dəfə güclüdür. Hörümçək o qədər balacadır ki, heç bəzən onun sancdığını da hiss etmək olmur. Bu həşəratın zəhəri neyrotoksik təsirli olduğundan, həmin nahiyədə şiddətli ağrılar başlayır. Hətta narkotik maddələr belə o ağrıları keyləşdirə bilmir. Bu hörümçək 1,5 mm ölçüdə olur və belində 4 qırmızı nöqtə var. Həkimlər xəbərdarlıq edərək bildirirlər ki, belə hörümçəklə qarşılaşanda mütləq ondan qorunmağa çalışmaq lazımdır.

❑ Xalidə GƏRAY



# Özünü yandıran qadın xəstəxanada öldü

**Hacıqabulda intihara cəhd edən qadın dünyasını dəyişib. Modern.az saytı xəbər verir ki, 75 yaşlı rayon sakini, B.İbrahimov küçəsi, ev 1/6 ünvanında yaşayan Kərimova Püstə Xələf qızı özünü yandırmaqla intihar etməyə cəhd edib. O, bədənin 90%-nin termik yanığı, yanıq şoku ilə adonal vəziyyətdə Şirvan şəhər xəstəxanasının reanimasiya şöbəsinə yerləşdirlib.**

Eyni zamanda həkimlər xəstənin sol döş qəfəsi nahiyəsində kəsilmiş-deşilmiş yara da aşkar ediblər. Həkimlərin səylərinə baxmayaraq, qadının həyatını xilas etmək mümkün olmayıb. Hadisənin hansı səbəbdən baş verməsi hələlik müəyyən edilməyib.

Faktla bağlı Hacıqabul Prokroluğunda araşdırma aparılır.

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Yenilik! Rusiyada təhsil almış və Moskvada müdafiə etmiş**
tibb elmləri namizədi, təcrübəli həkim
**Darya İvanovna**

**varikoz və postvarikoz trofik yaraları, habelə diabetik yaraları özəl metodika ilə, cərrahi müdaxiləsiz müalicə edir.**
**Tel (051) 634-40-01.**

**Elan**

**Bakı şəhəri Xətai rayon Levanevski keçəsi ev - 12D, Xüsusi mülkiyyət NZS qəsəbəsi, Dalqa plaza şadlıq sarayının arxası, 4 sotun içində 5 otaqlı ev, 200 km kvadrat, yüksək keyfiyyətlə tikilmiş ev. Təcili satılır: 80.000 dollar.**
**Evin tikinti pasportu və kupçası var.**
**Əlaqə telefonu: 050 393-39-69. Sadiq.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 111 (6432) 23 may 2016

**Heç kimə sirr deyil ki, hazırda idman salonlarının ən çox müştəri ilə qaynadığı dönəmdir. Məlum, qarşıdan yay gəlir - nazik paltarlar, çəkini gizlədə bilməyən qiyafələr və dəniz mövsümü. Qış boyunca aldığı yersiz və əlavə çəkidən qurtulmaq üçün əksər qadınlar indi özgüçülük hovuzlarında, arıqlama kurslarında və fitness klublardadır.**




# Arıqlamaq kilo yığmaqdan məsrəfli...

## Mədəni və iştahı necə kiçiltməli? Pəhrizlə bağlı mütəxəssis fikirləri ziddiyyətlidir...

### "15 günə çatacağı kondisiyaya... 2 dərsdən sonra çatmaq istəyənlər var"

Pəhrizlə paralel qadınların ən çox tərcih etdikləri isə idman salonlarıdır. Məşqçi yardımı ilə həftədə minimum 3 dəfə idman zalına getmək qadınların işinə yarayır. Amma bu halda da sistemsiz idman hərəkətləri işə faydadan çox ziyan verir. İdman salonlarından birində çalışan məşqçi Leyla Axundova deyir ki, qadınlarımız tez nəticə əldə etmək üçün bəzən özlərini gücə salırlar. Bu da son nəticədə əzələlərin ağrıması, idmandan tez yorulma, bezmə ilə nəticələnir: "Qadınlar gəlir salona, 15 gündə çatacaqları kondisiyaya 2 dərsdən sonra çatmağa çalışırlar. Ona görə də 3-cü dərsdə artıq əzələləri ağrıyır, idman etmək istəmirlər və sair. Bu səbəbdən də arıqlama planları yarıda kəsilir".

Müsahibimiz deyir ki, idmanla məşğul olmaq qadınların təkcə fiziki görünüşünə yox, xarakterinə də təsir edir. Sağlam bədəni olan qadın daim psixoloji baxımdan da rahat olur, çevrəsinə qarşı daha pozitiv olur: "Mən bura gələn qadınlara məsləhət görürəm ki, idmandan çıxandan sonra üzgüçülüyə də getsinlər. Bu halda ikiqat nəticə əldə etmək mümkündür".

### Bahalı fitness klublarda şərtlər yüksəkdir, ucuzlarda isə...

Xatırladaq ki, hazırda Bakıda idman salonlarının aylıq ödənişi 50-60 AZN-dən başlanır. Amma bəzi salonlarda məşqçi ilə birlikdə aylıq 100 manata yaxındır. Məhəllə arası bəzi salonlarda isə 30-40 manatlıq kurslar da tapmaq mümkündür. Amma təbii ki, burda standartlar bir qədər aşağıdır. Dar salonlar, alçaq tavanlı məkanlar, keyfiyyətsiz havalandırma sistemi, aşağı səviyyədə hamam sistemi... Bütün bunlara razısınızsa, ucuz kurslara getmək olar.

Bununla yanaşı, arıqlamaq üçün qadınların müraciət etdiyi müasir üsullardan biri Zumba dərsləridir. Bu, əslində ritmik mahnıların müşayiəti ilə edilən bir rəqsdir və tərkibində çoxlu gimnastik hərəkət elementləri də var.

### İynə ilə arıqlayanlar və qorxu üsulu

Öncə tibb ədəbiyyatlarından əldə etdiyimiz bəzi məlumatları nəzərə çatdıraq. Alimlər müəyyənləşdirib ki, 2 ilə 130 kiloqram arıqlamaq mümkün imiş. Özü də qorxu nəticəsində. Həkimlər boyu 162, çəkisi təxminən 200 kiloqram olan qadını müayinə edərək onun ömrünün sonuna maksimum 2 il qaldığını bəyan edib, yaşamaq üçün onun təcili arıqlamalı olduğunu bildirib. Bundan qorxuya düşən qadın sağlam qidalanmaya keçib, eyni zamanda hər gün hovuzda üzüb. Nəticədə 2 ildə 130 kiloqram arıqlayan amerikalı "2011-ci ilin arıqlaması" tituluna sahib çıxıb.

Bir qorxunu bir dəfə yaşamaq olar. Növbətiləri isə artıq lətifəyə bənzəyir. Odur ki, reallığa qayıdaq. Öncə ondan başlayaq ki, qadınların, eləcə də arıqlamaq istəyən kişilərin düşdüyü ən böyük tələ hansısa məşhur müğənninin reseptinə uymaqdır. Uzun illər türkiyəli qadınlar hər uşaqdan sonra kökələn, aldığı kiloları geri vermək üçün dietoloq qapısını yağır edən Sibel Can formulu əsasında arıqlamağa cəhd göstərdi. Halbuki, dünyanın ən məşhur dietoloqları da səhər-axşam bar-bar bağırırlar ki, əslində hər orqanizm spesifik olduğu üçün onun üçün tətbiq olunacaq pəhriz formulu da spesifik olmalıdır. Yəni həkim nəzarətindən keçmədən qan, təzyiq, şəkər analizləri vermədən hansı pəhrizin insana uyğun gəldiyini bilmək olmaz. Bundan başqa, eyni vaxtda həm pəhriz saxlayıb, həm aktiv idmanla məşğul olanlarda az-çox nəticə görünür. Yəni sərt, alman pəhrizi ilə 5-6 kilodan qurtulan elə eyni sürətlə də o kiloları geri alır.

Xatırladaq ki, bu sayaq həblərin tərkibində mərkəzi sinir sisteminə, baş beyinə təsir edən maddələr var və onlar birbaşa maddələr mübadiləsini pozur. Bəzi hallarda bunlar pasienti depressiv vəziyyətə də gətirib çıxarır. Məhz həmin səbəbdən bir çox inkişaf etmiş ölkələrdə onların istifadəsi, ümumiyyətlə, qadağan edilib.

Araşdırmamız zamanı bəzi gözəllik salonlarında (ad çəkib, reklam və antireklam etmək istəmədik) bir-iki seansla arıqlama təminatı verdiklərinin şahidi olduq. Maraqlıdır ki, əslində bu arıqlama vədi bədənin konkret nahiyələrində piylərin götürülməsi yolu ilə edilir. Əksər gözəllik salonlarında LPC deyilən müxtəlif cür aparatlar var. Bu aparatlar dərinin üstündən sürtülür, amma dəri altından birbaşa piylərə yox, onun üstünə nüfuz edir. Həkimlər hesab edir ki, bu üsulla arıqlama da əslində çox ziyanlıdır. Çünki dəri üstündən aparatla təsir edəndə dəri altında olan 3 komponent - fibrinogen, kollagen, elasten sıxlaşır. Bunun hesabına incəlmə gedir. Halbuki piy dərialtı təbəqədə qalır, getmir.

Mütəxəssislər onu da bildirir ki, əslində burada söhbət piyin əriməsindən yox, dərialtı təbəqənin preslənməsindən gedir. Və bu preslənmə qısa müddət sonra öz sözünü deyir. Yəni bir-birinə bitişmiş 3 komponent - fibrinogen, kollagen, elasten aralanmağa başlayır. Bədən yenidən köhnə şişmiş formaya qayıdır. Kilonun getməsi, arıqlama üçün piyin özünə təsir etmək lazımdır. Xatırladaq ki, əksər gözəllik salonlarında və fitness klublarda daha çox bu arıqlama metoduna üstünlük verilir. Nəticədə isə qadınlar qısa müddət aldadıcı arıqlıq hissi ilə yaşayır. Ardınca... xoş gəldin, yeni kilolar.

Araşdırma zamanı bir qədər bahalı və az sayda olan fitnes klublarda iynəbatırma, yəni akupunktura ilə arıqlama metodunun da tətbiq olunduğunu öyrəndik. Bu mərkəzlər daha çox Türkiyədə kurs keçmiş və ya türkiyəli mütəxəssisin rəhbərliyi ilə fəaliyyət göstərən klublardır. Onlarla maraqlandıqda isə məlum olur ki, bu arıqlama metodu Çin təbabətinə, akupunkturaya, iynəbatırmaya əsaslanır. Arıqlama proqramında blasterli qulaq iynələrindən və qızıl suyuna salınmış gümüş iynələrdən istifadə olunur. Bu iynələrlə bədənin müxtəlif nöqtələrindən iştah mərkəzlərinə, doyma mərkəzlərinə təsir edilir. 5 gündən bir keçirilən seanslarda xüsusi qulaq iynələri qulağa yapışdırılır. Pasient evinə, işinə-gücünə gedə bilər. 3 aylıq proqramda vaxtın uzanması xəstədə metabolik proseslərin bərpa olunmasından asılıdır. Çəkisi 100 kilodan çox olanlar 4-5 ay seansa gələ bilər.

### Mədə də kiçilər, iştah da...

İnsanın çəkisi artdıqca, mədəsi də böyüyür və daha çox yemək istəyir. Bu zaman da mədə kiçiltməsi əməliyyatları dövrəyə girir. Həkimlər deyir ki, hər şeydən əvvəl insanın hansı səbəbdən çox çəkili olduğunu araşdırmaq lazımdır. Bu, gizli səbəblə bağlı ola bilər. Endokrin sisteminin xəstəlikləri, qalxanabənzər vəzin çalışmaması, hipofiz vəzində olan problemlər, Kuşinq xəstəliyi ilə bağlı artıq çəkinin də olması mümkündür. Eləcə də piylənmə genetik faktorla da əlaqədar ola bilir. Hər mədəsini kiçiltmək istəyən, bu cür əməliyyata girmək istəyən şəxsə yaşıl işıq yandırılmır. Öncə pasiyentin ciddi dəyərləndirilməsi aparılmalıdır. İlk növbədə psixoloq, endokrinoloqun rəyi lazımdır.

Hətta psixiatrın araşdırması olmalıdır. Öncə piylənmədən əziyyət çəkən insanın yemək alışqanlığının səbəbini bilmək gərəkdir. Yəni dərin depressiya, psixoloji problemlərlə də bağlı davamlı yemək alışqanlığının olması mümkündür. Psixoloji, psixiatrik dəyərləndirmədən sonra qastroenteroloqun müayinəsinə ehtiyac var. Çünki mədədə hər hansı bir problemin olub-olmadığını da bilmək vacibdir. Eləcə də endokrinoloqun ciddi müayinəsi lazımdır. Və ən vacib məqamlardan biri də budur ki, insanlar çox yeməkdən imtina etməyi bacarmalıdır. Pasient əməliyyatdan sonra iradəsinin olacağına əmin olarsa, o zaman əməliyyata qərar vermək olar.

### Bahalı tariflər - arıqlamaq yemək yeməkdən məsrəfli imiş

Bütün bu arıqlama üsulları fayda verməyəndə isə estetik cərrahın qapısına gedənlər var. Artıq Azərbaycanda qadınların daha intensiv olaraq, bu xidmətə müraciət etmələri də statistikadan bəllidir. Qadınlar daha tez və əziyyətsiz üsul kimi, əməliyyat vasitəsilə piylərdən, artıq çəkidən qurtulmanı tərcih etməyə başlayıblar. Estetik cərrahiyyənin bu növü isə işin masştabından asılı olaraq, fərqli tariflərlə təqdim olunur.

Amma həkimlər hesab edir ki, estetik cərrahiyyə də insanın özünü aldatması deməkdir. Neyçün ki, əməliyyatla alınan kilolar da tezliklə geri qayıdır. Müraciət etdiyimiz sağlamlıq mərkəzlərindən birində isə bizə arıqlama proqramında idman tətbiq olunmadığı söyləndi. Belə ki, mərkəz nümayəndəsi iddia etdi ki, arıqlamaq istəyənlər idmanla bədənin piylərini sərtləşdirirlər. Nəticədə isə əzələ kütləsi artır. Əzələlər böyüdükcə piylər əzələ kütləsinin arasına keçir. Sərtləşmiş piylərinsə bədəndən çıxması çətinləşir: "Biz xəstəni idmandan tamamilə azad edirik. Yalnız gəzməyi, yeriməyi ciddi tövsiyə edirik".

Sözügedən mərkəzdə xəstələrə xüsusi qidalanma proqramı da verilir. Gündə 5 dəfə nə qədər və nə yeyəcəkləri qrafikdə bildirilir. Bundan başqa, elə həmin mərkəzin dieta mütəxəssisləri xəstələrə bol miqdarda qaynanmış su içməyi tövsiyə edirlər. Formula belədir: bədənimizin su ilə yuyulması kimi, içimizin də yuyulması su ilə olmalıdır. Su xolesterolu, şlakları təmizləyir. Gündə 2 litr su içmək lazımdır. Pasientin ərimiş, dağılmış yağları, piyləri sidiklə və bağırsaqlarla bədəndən xaric olunur.

Bəs bu arıqlama vasitələrinin məbləği nə qədərdir? Araşdırma zamanı məlum oldu ki, estetik cərrahiyyə (liposaksiya) - əksər klinikalarda təxminən eyni qiymətdir. Cəmi bir bölgənin liposaksiyası 350 manatdan başlayır.

Akupunktu ilə arıqlamanın hər seansı isə 30-35 manat arasında dəyişir. Tutaq ki, 8 kilo artıq çəkisi olan şəxs 10 seansa gəlməlidir. Bu halda endirim də edilir. 200-220 manata 8 kilodan qurtulmaq mümkündür. LPC aparatla arıqlama və edən sağlamlıq mərkəzlərində də hər seans üçün 15-20 manat tələb olunur. Bu işi professional həkimlərin etdiyi deyilsə də, bəzən naşılar iş görür.

### Yaş artdıqca arıqlamaq çətinləşir

Amerikada 3 min qadın arasında aparılan araşdırma göstərib ki, arıqlamaq üçün ən uyğun yaş 28-dir. Araşdırma 28 yaşını keçən qadınlarda arıqlamağın daha çətin olduğunu göstərib. Qadınlardan 60 faizi arıqlamağın uyğun bir yaş həddi olduğunu təsdiqləyib. 40 faizi isə bunun iradədən asılı olduğunu deyib. Araşdırma 30 yaşdan yuxarı qadınlar üzərində aparıldığından mütəxəssislər arıqlamaq üçün ən uyğun yaşın 28 olduğunu təxmin edir. Çünki 28 yaşda bədən hələ də özünü yeniləyə bilir və maddələr mübadiləsi zəifləməyib.

Britaniyalı mütəxəssis, professor Kris Haukey hesab edir ki, heç bir pəhrizin faydası yoxdur. Professor pəhriz saxlamaqdansa, yeməklərə diqqət etməyi, sağlamlıq üçün faydalı qidalar qəbul etməyi məsləhət görür. Lids Universitetinin professoru Andrey Hill ise insanların sürətli və asan arıqlamaq üçün yollar axtardığını, bu yolların az olduğunu deyib. O, insanların çəkisinin artdıqca çəki verməsinin daha da çətinləşdiyini vurğulayıb.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 111 (6432) 23 may 2016



## Pişiklərinə görə yalan danışan ispanı 600 min avro cərimə gözləyir

İspaniyada 40 yaşlı kişi xilasetmə xidməti əməkdaşlarını aldatdığı üçün cərimə ödəyəcək. Lenta.ru saytının xəbərinə görə, evin qapısı bağlandığı və içəridə iki pişiyi qaldığı üçün kişi panikaya düşüb. Amma xilasetmə xidmətinə zəng edərək, onlara içəridə iki azyaşlı qızının qaldığını deyib. Kişi düşünüb ki, əgər içəridə iki pişiyinin qaldığını desə, heç kim yardım üçün gəlməyəcək. Amma daha sonra bu yalanına qəribə bəhanə uydurub: "Mən pişiklərimi qızlarım kimi görürəm, ona görə elə dedim".

İspaniyada bu cür yalanlar qanun pozuntusu sayılır. Ona görə də Saraqos sakinini 150-600 min avro arasında cərimə gözləyir. Yerli qanunvericilik heyvan sahiblərinin bu cür hərəkətlərini ciddi cəzalandırır.



## Balığını 380 avroya əməliyyat etdirdi

Şərqi İngiltərədə yeddi santimetr uzunluğu olan akvarium balığı əməliyyat edilib. Ona yemək borusu tıxanması ilə bağlı ciddi diaqnoz qoyulub. Bir saata yaxın davam əməliyyat zamanı balığa narkoz verilib. Öz sevimli balığı üçün tibbi kömək istəyən yerli sakinlərdən biri olub. Balığın sahibi əməliyyat üçün 380 avro ödəyib. Həkim Fey Bettel isə əməliyyatla bağlı deyib ki, hər bir heyvan sahibi o heyvan üçün məsuliyyət daşıyır və onun sağlığı üçün lazım gələndə bu cür fədakarlıqlar etməlidir.

# Toylarına 1000 pişik çağırdılar

Kanadada heyvansevər cütlük toyuna 1000 pişik çağırıb. Dominik Husson və Luzi Veronno cütlüyü məhz buna görə məxsusi olaraq Kvebekdən Kaliforniyaya gəliblər. Burada pişiklər üçün sığınacaq evi olub. Hətta sığınacaq sahibini burda toy keçirmək üçün müvafiq qurumlardan icazə almağı da təklif ediblər. "Biz hər ikimiz heyvanları sevirik, ona görə də bu qərarı asanlıqla qəbul etdik" deyən Dominikin sözlərinə görə, onlar bir ilkə imza atırlar və davamının gəlməsini arzulayırlar. Cütlük qonaqlardan onlara hədiyyə gətirmək əvəzinə pişiklərin sığınma evinə müvafiq yardım göstərmələrini xahiş edib. "The Cat House"dakı pişiklər qəfəsdə saxlanmır, rahatlıqla sığınacaqda dolaşır.



# Əsəbi insanlar arıqlaya bilmir

ABŞ-da olan Milli Yaşlanma İnstitutunun 1988 adam üzərində 50 il müddətində icra etdiyi araşdırma nəticəsində təsdiqlənib ki, insanın xarakteri onun bədən ölçülərinə, daha dəqiq desək, artıq çəki almasına təsir edir. Araşdırma zamanı 14.521 iştirakçının dürüstlük, vicdan, açıq fikirlilik, məmnuniyyət, əsəbilik kimi 30 ayrı xüsusiyyəti araşdırılıb. İnstinktləri ilə hərəkət etməyə daha uyğun olanların, instinktlərini yatıra bilənlərlə müqayisədə ideal kilolarına nisbətlə 10 kq artıq çəki aldığı üzə çıxıb. Amma məmnuniyyət nisbəti aşağı, rəqabətçi, əsəbi və ictimai dəyərlərə çox əhəmiyyət verməyənlərin isə bədən kütlə indekslərinin lazım olandan çox olduğu müəyyən edilib. Əsəbi insanlar həyatları boyunca çəki vermə balanssızlıqları yaşayır və sonunda çəki almağa daha meylli olurlar. Araşdırma nəticəsində mütəxəssislər, bunun müalicəsində yeni-yeni üsullar tətbiq edilə biləcəyini söyləyiblər.





## Ər-arvad davası kökəldir

Evliliyi boyunca tez-tez dalaşan və yüksək səslə danışan cütlüklərin ildə təxminən 5.5 kiloqram aldığı ortaya çıxıb. Keçmişdə depressiya keçirmiş və yoldaşı ilə dalaşmaq məsələsində həssas olan cütlüklərin bu haldan daha çox təsirləndiyi və daha az kalori yandırdığı ortaya çıxıb. Belə cütlüklərdə insulin səviyyəsi daha yüksəkdir və bu da bədəndə daha çox yağ toplanmasına, triliseridlərin yüksək olmasına səbəb olur.

Ohayo Universitetinin araşdırmaçıları bu məsələyə görə ruhi problemlərin müalicəsinin əhəmiyyətinə diqqət çəkiblər. Daha əvvəlki araşdırma zamanı da stressli qadınların gündə 100 kalori daha az yandırdığı müəyyən olunmuşdu. Həyat yoldaşı ilə dalaşmaq ürəyə də mənfi təsir edir.




**QOÇ** - Bütün enerjinizi qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönəldin. Umu-küsüləri bir tərəfə atın. Çünki şəxsi işlərinizdə böyük dönüş yaxınlaşmaqdadır. Fəaliyyətlə bağlı səfərə çıxmaq olar.

**BUĞA** - Düşüncə və fikirlərinizin reallığa uyğun olmasını ulduzlar da təsdiqləyir. Bu səbəbdən də kənar məsləhətlərə o qədər də ehtiyacınız yoxdur. İmkan daxilində açıq havada az olmağa çalışın.

**ƏKİZLƏR** - Hazırda "hakim" bürc siz olduğunuz üçün enerjiniz xeyli artacaq. Odur ki, bu potensialı səmərəli istiqamətə yönəltməyə səy göstərin. İşgüzar sövdələşmələrə başlamağa dəyər.

**XƏRÇƏNG** - Havaların qeyri-sabitliyi, maqnit qasırğaları səhhətinizə mənfi təsir göstərə bilər. Bunu nəzərə alıb açıq havada çox durmayın. Bu gün istənilən ikitərəfli əməkdaşlığınız uğurla nəticələnəcək.

**ŞİR** - Mübahisəli gündür. Atmaca və böhtanlara əhəmiyyət verməyin. Əsas enerjinizi maliyyə məsələlərinə və peşənizlə məşğulluğa həsr edin. Sevdiyiniz adamın obyektiv fikrinə hörmətlə yanaşın.

**QIZ** - Saat 12-dən sonra maddi durumunuzu dirçəltmək üçün cəhdlər edin. Çox güman ki, bunun səmərəsi olacaq. Günün sonunda isə ürəyinizcə olan ünvanlara qonaq sifətilə baş çəkin.

**TƏRƏZİ** - Həmkarlarınızla davranışlarda nəzakətli olun. Çünki ulduzların düzümü bu gün çoxlarının sizdən incik düşəcəyini göstərir. Fəaliyyət zəminində isə böyük işlərə başlamağa dəyər.

**ƏQRƏB** - Maliyyə problemlərinizin qabarmasını istəmirsinizsə, bir az qənaətcil olun. Yaxşı olar ki, ciddi məbləğ tutan alış-verişə girişməyəsiniz. Əsas vaxtınızı sevgiyə həsr edin.

**OXATAN** - Hər mənada uğurlu gündür. Qarşıya qoyduğunuz vəzifələrin əksəriyyətini reallaşdıracaqsınız. Bunun üçün müttəfiqlərinizin köməyindən yararlanın. Bütün detalları saf-çürük edin.

**OĞLAQ** - Saat 14-16 arası gərginliklə üzləşə bilərsiniz. Bunun qarşısını alsanız, qalan müddətdə heç bir probleminiz olmayacaq. İşgüzar görüşləri təxirə salmayın. Sevindirici xəbər eşidəcəksiniz.

**SUTÖKƏN** - Çox məsuliyyətli gündür. Nəzərdə tutduqlarınızın hamısını reallaşdırmağa çalışın. Yersiz risklərə, bələd olmadığınız adamlarla əməkdaşlığa razılıq verməyin. Səhhətinizi qoruyun.

**BALIQLAR** - Öhdənizə düşən və əksəriyyəti yarımçıq qalan işlərinizi yekunlaşdırmağa çalışın. Heç kimə yalan vəd verməyin. Bu, nüfuzunuza xələl gətirə bilər. Yeni təkliflərə razılıq verin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Bu peşələr insanı işkolik edir




Amerika işkolikliklikdən ən çox əziyyət çəkən insanların ölkəsidir. Aparılan araşdırmalar göstərir ki, xüsusən son ildə bu ölkədə işkoliklikdən əziyyət çəkən insanların artım faizi 20-dir. Buna səbəb isə modern dövrün tələbləridir. Araşdırma nəticəsində ortaya çıxıb ki, psixoloji bir narahatçılıq olan xəstəlik beyin gücü ilə iş görənlərdə daha çox özünü göstərir. Dünyada bu problemə ən çox yaxalanan peşə sahibləri isə jurnalist və birja mütəxəssisləridir. Onlar daim yeniliklərlə ayaqlaşmaq məcburiyyətində olduqları üçün işi həyatlarının mərkəzinə yerləşdiriblər.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 4.750